Xalqın qəzeti!

# Xalq qəzeti

№ 62 (31031) 14 aprel 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan multikultural dəyərlər ölkəsidir



**Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır.**

**Ölkəmiz dünya miqyasında da sülh, dinc birgəyaşayış, humanizm dəyərlərinin təbliği və təşviqi üçün əlindən gələni əsirgəmir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## O.R.Səttarovun Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Orxan Rəcəb oğlu Səttarov Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 aprel 2026-cı il**

## Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Pasxa bayramı ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Pasxa bayramı münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir:** *"Pasxa bayramı münasibətilə Azərbaycanın xristian icmasını səmimi-qəlbdən təbrik edir, bütün həmvətənlərimizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!".*

## İran böhranı və anti-TRIPP təbliğatı

### *Bu oyunda udmaq istəyənlər kim(lər)dir?*



**Zəngəzur dəhlizi ideyasının, habelə böyük anlamda Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun, yaxud, sadəcə, TRIPP-in faydaları haqqında çox söz açılıb, xeyli fikirlər səslənib. Xüsusən, layihənin bütün region ölkələrinə xeyri üzərində dayanılıb və bildirilib ki, heç bir dövlətə qarşı yönəlməyən TRIPP yalnız iqtisadi mənfəətləri rəhbər tutur. İstər Prezident İlham Əliyevin, istərsə də digər rəsmilərin açıqlama və bəyanatlarında da məsələyə dair konkret baxış irəli sürülüb, arqumentlər gətirilib, əsaslandırmalar aparılıb. Amma...**

*(ardı 3-cü səhifədə)*

## Orban dövranının sonu



Səhifə ⇨ 6

## Etimad körpüsündə yeni addımlar



Səhifə ⇨ 4

## İslamabadın məramı göyərmədi



Səhifə ⇨ 3

## Erməni diasporunun Paris iflası






Səhifə ⇨ 5

## Ermənistan seçkiyə siyasi parçalanma şəraitində gedir



Səhifə ⇨ 3

## Dünya Bankı Xəzərin biomüxtəlifliyini himayə edir

Səhifə ⇨ 7

## TDT və yeni çağırışlar



Səhifə ⇨ 6

## Hörmüz üzərində şimşək çaxır



Səhifə ⇨ 11

# Qəbələdə "Sülh körpüsü" görüşü



**Qəbələ şəhərində "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirən ikitərəfli dəyirmi masa keçirilib. Növbəti görüşdə hər iki ölkədən qeyri-hökumət təşkilatlarının, media qurumlarının və beyin mərkəzlərinin nümayəndələri iştirak ediblər.**

Ermənistan nümayəndə heyəti Azərbaycana quru sərhədi vasitəsilə daxil olub, delimitasiya və demarkasiya olunmuş sahədən keçərək bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurları icra edib. Bu keçid faktının özü "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan cəmiyyətləri arasında etimadın möhkəmləndirilməsi istiqamətində növbəti simvolik addım olub.

İki gün ərzində dörd müzakirə sessiyası keçirilib. İştirakçılar Cənubi Qafqazda və onun ətrafında baş verən geosiyasi prosesləri və onların sülh prosesinə təsirini müzakirə ediblər. Azərbaycanlı və erməni ekspertlər, həmçinin regional inkişafla bağlı öz ölkələrinin mövqeləri və baxışları barədə fikir mübadiləsi aparıblar.



İkitərəfli dialoqdan əvvəl "Sülh körpüsü" təşəbbüsünün nümayəndələri öz ölkələrində vətəndaş cəmiyyətinin müxtəlif seqmentləri ilə görüşlər və müzakirələr keçirərək ictimai gözləntiləri və sülh prosesinə dair yanaşmaları daha yaxşı anlamağa çalışıblar. Ayrı bir sessiyada təşəbbüs iştirakçıları bu görüşlərin nəticələrini təqdim edərək cəmiyyətlərdə mövcud əsas narahatlıqları, gözləntiləri və baxışları vurğulayıblar.

İctimai gözləntiləri nəzərə alaraq, iştirakçılar yekun sessiyanı sülh prosesinin növbəti mərhələlərində həyata keçiriləcək birgə və fərdi fəaliyyətlər barədə fikir mübadiləsinə həsr ediblər.

Aprelin 11-də "Sülh körpüsü" təşəbbüsü çərçivəsində keçirilən dördüncü ikitərəfli dəyirmi masanın iştirakçıları Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüblər. Görüş zamanı regional təhlükəsizlik, sülh prosesinin siyasi səviyyədə gedişi və vətəndaş cəmiyyətinin normallaşma prosesinə töhfəsi müzakirə olunub.

İkigünlük dialoq dördüncü görüşün nəticələrinin yekunlaşdırıldığı mətbuat konfransı ilə başa çatıb.

Vətəndaş cəmiyyəti nümayəndələrinin son görüşü konstruktiv dialoq, açıq müzakirələr və sülh gündəliyinə alternativin olmadığına dair bir daha təsdiq mühitində keçirilib. Azərbaycan və Ermənistan hökumətlərinin dəstəyi ilə "Sülh körpüsü" təşəbbüsü çərçivəsində təşkil olunan dialoqun iştirakçıları sülh prosesinin növbəti mərhələlərində etimadın möhkəmləndirilməsi istiqamətində birgə səyləri davam etdirmək niyyətlərini ifadə ediblər.

*XQ*

# Azərbaycanın AQEM-də liderliyi yüksək qiymətə layiqdir



**Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşündə Azərbaycanın AQEM-dəki liderliyini yüksək qiymətləndirib.**

Bu barədə Sarıbayın "X" sosial şəbəkəsindəki paylaşımında bildirilib.

"Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşdüm. Azərbaycanın AQEM-dəki güclü liderliyini, o cümlədən təşkilatın transformasiyasındakı mühüm irəliləyişi yüksək qiymətləndirdim. Qarşıdan gələn AQEM sammitinə və AQEM Media Forumuna hazırlıq məsələlərini müzakirə etdik", - o yazıb.

Sarıbay, həmçinin Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbovla görüşüb, tərəflər AQEM Gənclər Şurasının 9-cu iclasına hazırlığı müzakirə ediblər.

"Güclü gənclər təşəbbüslərinə əsaslanaraq, AQEM Gənclər Şurasının 9-cu iclasına hazırlığı müzakirə etdik. Gənclər gündəliyini necə genişləndirmək, o cümlədən peşə təhsili sahəsində ən yaxşı təcrübələr və könüllülükdə gənclərin rolu barədə fikir mübadiləsi apardıq", - o qeyd edib.

*XQ*

# Hesablama Palatasının hesabat layihəsi



**Aprelin 13-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib.**

İclasda Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında Hesabat müzakirəyə təqdim edilib.

Komitənin sədri Azər Əmiraslanov bildirib ki, Hesablama Palatasının hesabatı qanunun tələblərinə uyğun şəkildə hazırlanıb və qanunvericiliklə müəyyən edilmiş müddətdə təqdim olunub. Bildirilib ki, Hesablama Palatasının hesabatı ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi öz rəyini Milli Məclisin plenar iclasına təqdim etməlidir.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2025-ci ildə fəaliyyəti haqqında hesabatı slaydlar vasitəsi ilə təqdim edib. Sədr hesabat ilinin Hesablama Palatasının "2021-2025-ci illər üzrə Strateji Plan"ının son ili olmasını nəzərə alaraq, əvvəlcə 5 illik dövr üçün icra vəziyyəti barədə məlumat verib.

Vüqar Gülməmmədov Hesablama Palatasının işinə ictimai etimadın gücləndirilməsinin müxtəlif aspektləri barədə danışaraq qeyd edib ki, bu sırada ənənəvi uyğunluq auditi kimi klassik audit növündən fərqli olaraq daha innovativ hesab edilən səmərəlilik (performans) auditinin əhatə dairəsinin genişləndirilməsi, Palatanın fəaliyyətində şəffaflığın artırılması, beynəlxalq AAO cəmiyyətində peşəkar tərəfdaş imicinin gücləndirilməsi, rəqəmsal transformasiyaya keçid kimi məsələlər ön planda olub. O, 2021-2025-ci illərdə ümumilikdə 26 səmərəlilik auditinin keçirildiyini, bu auditlərin əhatə dairəsinin 4,1 milyard manatdan çox olduğunu söyləyib.

Sonra Vüqar Gülməmmədov Palatanın kənar dövlət maliyyə nəzarəti fəaliyyəti barədə məlumat verərək, 2025-ci ildə auditlərin əhatəsinin nisbətən artırılmasına, auditlərin sayı üzrə stabilliyin saxlanılmasına və keyfiyyətinin yüksəldilməsinə nail olunduğunu vurğulayıb. Hesablama Palatasının Kollegiyası tərəfindən audit və analitik fəaliyyət formasında 48 nəzarət tədbirinin keçirilməsi ilə bağlı qərarlar qəbul olunub. Onlardan 47-si hesabat ilində başa çatdırılıb, 1 auditin nəticələrinin rəsmiləşdirilməsi növbəti ilə keçirilib. 3 audit "Dövlət sirri haqqında" Qanuna əsasən məxfilik rejimində keçirilib.

Palata sədri nəzərə çatdırıb ki, 2025-ci ildə keçirilmiş 15 audit və analitik fəaliyyətdə əsaslı xərclər üzrə hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib. Bildirilib ki, investisiya xərclərinin əsaslı xərclərdə payı yüksəkdir. 12 sifarişçi üzrə 42 layihə və 132 müqavilənin auditi həyata keçirilib. Yol verilmiş pozuntular, qanunvericiliyin və hesabatlılığın tələblərinin pozulması son nəticədə investisiya layihələrinin dəyərinin düzgün hesablanmamasına, aktivlərin doğru tanınmamasına və artıq vəsaitlərin istifadəsinə səbəb olub.

Sonra Vüqar Gülməmmədov Palatanın kənar dövlət maliyyə nəzarəti fəaliyyətinin təsiri ilə yaradılmış əlavə dəyər barədə danışıb.

Palatanın sədri qaldırılan məsələlərə münasibət bildirdikdən sonra hesabat Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*XQ*

# Baş prokurorun Çinə işgüzar səfəri



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Yinq Yonqun dəvətilə Şanxay şəhərinə işgüzar səfərə gedib.**

Səfər çərçivəsində Baş prokurorla Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Yinq Yonq arasında ikitərəfli görüş keçirilib.

Nümayəndə heyətini səmimi salamlayan Yinq Azərbaycan və Çinin strateji tərəfdaş dövlətlər olduğunu bildirərək bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıb.

Kamran Əliyev qeyd edib ki, son illərdə ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində yüksələn xətt üzrə inkişaf edərək strateji tərəfdaşlıq həddinə çatıb. Hər iki ölkənin prokurorluq orqanları arasında da möhkəm əməkdaşlıq əlaqələri qurulub.

Daha sonra cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, praktiki əməkdaşlıq məsələləri, həmçinin, hüquqi və institusional əməkdaşlığın genişləndirilməsi perspektivləri, prokurorluq əməkdaşlarının Çin Xalq Respublikasının ali təhsil müəssisələrində təhsilə cəlb edilməsi ətrafında fikir mübadiləsi aparılaraq razılıq əldə olunub.

Kamran Əliyev, həmçinin qarşılıqlı əlaqələrin gücləndirilməsi məqsədilə həmkarını ölkəmizə səfərə dəvət edib.

*XQ*

# "Yüksəliş"in qalibləri ilə görüş



**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirib. Görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi Qrupunun rəhbəri Fərhad Hacıyev iştirak edib.**

Nazir görüşdə "Yüksəliş" müsabiqəsini ölkədə idarəçilik potensialına malik şəxslərin aşkarlanması, onların inkişafının dəstəklənməsi və insan kapitalının gücləndirilməsi baxımından mühüm platforma kimi dəyərləndirib.

Görüş zamanı ötən ilin qaliblərinin kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbir və təşəbbüslərdə yaxından iştirakı da qeyd olunub. Bildirilib ki, onların aqrar sahə ilə bağlı görüşlərdə, müzakirələrdə və müxtəlif fəaliyyətlərdə iştirak etməsi həm bu istiqamət üzrə biliklərinin genişlənməsinə, həm də praktik idarəetmə baxımından yeni baxışlar qazanmasına töhfə verib

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.

*XQ*

# Azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin genişlənməsinə dəstək



**İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə işçi qrupunun növbəti iclası Laçın şəhərində keçirilib.**

İclasda işçi qrupun rəhbəri, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində işğaldan azad edilmiş ərazilərdə iqtisadi dirçəlişin sürətləndirilməsi, biznes fəallığının təşviqi və investorlar üçün cəlbedici mühitin yaradılması məqsədilə ardıcıl və genişmiqyaslı infrastruktur layihələrinin reallaşdırıldığını vurğulayıb.

Qeyd olunub ki, azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin genişlənməsi üçün institusional dəstək mexanizmləri gücləndirilib, biznes subyektlərinin həmin ərazilərə cəlbini stimullaşdıran effektiv təşəbbüslər həyata keçirilib. Bunun nəticəsidir ki, bölgəyə sərmayədar marağı getdikcə artır, burada istehsal fəaliyyəti genişlənib və istehsal olunan müxtəlif məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönləndirilməklə yanaşı, xaricə ixrac olunur. Həmçinin sənaye zonalarında infrastruktur daha da təkmilləşdirilir, istehsal sahələri şaxələndirilir və ardıcıl yeni layihələr icra edilir.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov rayonda aparılan bərpa və quruculuq işlərindən danışıb, əhalinin yurdlarına geri qayıdışı, məşğulluğun təmin edilməsi məqsədilə müxtəlif istiqamətlər üzrə sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar barədə məlumat verib.

İclas zamanı Dövlət Proqramının icrası çərçivəsində nəzərdə tutulan tədbirlərlə bağlı müzakirələr aparılıb.

Laçına səfər çərçivəsində işçi qrupun üzvləri rayondakı "Zerti" Aqro-Sənaye Parkında görülmüş işlərlə tanış olublar.

*XQ*

# İran böhranı və anti-TRIPP təbliğatı

*(əvvəli 1-ci səhifədə)*

“Əmması” ondadır ki, son günlər TRIPP-ə qarşı cəbhə formalaşıb. Daha doğrusu, hər zaman mövcud olan əks cinah təbliğatını gücləndirib. Bu qütbün söykəndiyi başlıca məqam isə İranda yaşananlar, daha dəqiq desək, ABŞ və İsrailin İrana qarşı hərbi müdaxiləsi fonunda yaranmış durumdur. İranda de-eskalasiya mühitinin hökm sürdüyü hazırkı şəraitdə müxtəlif ekspert dairələri tərəfindən, xüsusən Ermənistandakı bəzi başbilənlərin dili ilə TRİPP layihəsinin icrasının qeyri-mümkünlüyü və ya uzanacağı söylənilir. Bu mülahizəni ortaya atanlar müharibədən sonra güclənmiş İran amili üzərində dayanırlar. Onlar bildirirlər ki, İslam respublikası ərəb ölkələrində ABŞ-a məxsus obyektləri hədəfə almışdı və TRIPP də eyni aqibətlə üzləşə bilər. Hətta, İran diplomatiyasının layihənin reallaşmasına daha sərt formada mane olacağı önə çəkilir.



Doğrudur, İranda Zəngəzur dəhlizi və TRIPP-lə bağlı etiraz səsi ucaldanlar olub və belələri yenə qalmaqdadır. Amma mövcud amil heç də konstruktiv düşüncə sahiblərinin, hadisə və proseslərə reallığın pozitiv pəncərəsindən baxanların sıradan çıxması demək deyil. Eyni zamanda, hesab etmirik ki, İslam respublikasında TRIPP-ə ölkənin Azərbaycanla münasibətlərinin müsbət ahənginə nəzərən yanaşanların sırası seyrəlib. Axı İrana ən yaxın məsafədə olan ölkəmiz nəinki bu müharibədə, ümumən Tehrana qarşı digər kampaniyalar zamanı da alətə çevrilməyib, mehriban qonşuluq münasibətlərinə sadiq qalıb. Ümumən, ölkəmizin hərbi məqdəsli kampaniyalarda yer almadığı hər kəsə yaxşı məlumdur.

Bəli, Zəngəzur dəhlizi ideyası fonunda meydana çıxmış TRIPP iqtisadi layihədir və onda hansısa hərbi element yoxdur. Deməli, layihənin nəinki İrana, bütövlükdə regionun hansısa dövlətinə qarşı yönəlməsi qeyri-mümkündür. Müvafiq olaraq, İslam respublikasının ona hərbi həmlələr etməsinə dair düşüncələr cəfəngiyyatdan başqa bir şey deyil. Bəs bu ideyalar nəyə görə vüsət almaqdadır? Səbəb çox sadədir: məsələ Ermənistandakı parlament seçkiləri ilə bağlıdır. O seçkilər ki, gərgin keçəcəyi indidən müşahidə olunmaqdadır.

Bildiyiniz kimi, Ermənistanda revaşist və şovinist kəsim var. Bu kəsim hər vəchlə baş nazir Nikol Paşinyan administrasiyasını gözdən salmağa, yekunda hakim komanda üzərində qələbə qazanmağa çalışır. Rəsmi İrəvanın xətti ilə gerçəkləşdirilmiş bütün fəaliyyətə qarşı çıxan hay müxaliflər qəsdən TRIPP-in, guya, İranın əleyhinə olduğuna və Tehranın sərt addımlarının Ermənistan üçün təhlükəli durum yaratdığına dair rəy formalaşdırmağa səy göstərirlər.

Məsələ ondadır ki, Paşinyan administrasiyasında yer alan şəxslərin ölkədəki əks qütbün təmsilçilərinin hakimiyyətə gələcəkləri təqdirdə, Azərbaycanla yeni müharibənin qaçılmaza çevriləcəyinə dair fikirləri var. Müharibə təhlükədir və sadə ermənilər düşmənçilikdən, həmçinin savaş şəraitinin məşəqqətlərindən beziblər, onlara dinclik lazımdır. Yəni hay müxaliflərin hazırkı anti-TRIPP təbliğatı Nikol və tərəfdarlarının detallarını diqqətə çatdırdığımız təbliğatına qarşıdır. Təxminən belə: müharibənin əleyhinə olan Paşinyan və komandası ABŞ-ı regiona gətirir və Ermənistan üçün fəlakət hazırlayır. Hələ bu təbliğatın anti-Azərbaycan motivləri də özünü göstərir.

Digər tərəfdən, erməni hakim komandası üzvlərinin İrandakı vəziyyətə görə TRIPP-in inşası ilə bağlı işlərin ləngiməsinə dair açıqlamalarına rast gəlinib. Hərçənd, birmənalı şəkildə demək olmaz ki, bu açıqlamalar layihə üzrə nəzərdə tutulan




fəaliyyətin gerçəkləşdirilməsindən boyun qaçırmaq məramına daşıyır. Çünki, necə deyərlər, bu günün sabahı da var və bu, Nikol və komandasının üzvlərinə yaxşı məlumdur. Məsələn, bu gün Azərbaycan öz ərazisindən Ermənistana ixracın gerçəkləşməsinə şərait yaradıb. Eyni zamanda, Azərbaycan öz neft məhsullarını Ermənistana ixrac edir. Bunun nəticəsidir ki, ölkədə benzinin qiymətində enmə qeydə alınıb. Amma aydındır ki, belə vəziyyət sonsuzadək davam edə bilməz. Yəni davamlı şəkildə Bakıdan İravana Gürcüstan ərazisi ilə daşımalar mümkünsüzdür. Ən azından ona görə ki, Azərbaycanın Ermənistanla sərhəd zolağının uzunluğu ölkəmizin Gürcüstanla olan sərhəd xəttinin uzunluğundan çoxdur. Bütün bunlar hay hakim dairələri tərəfindən nəzərə alınmalıdır. Bilavasitə TRIPP-in fəaliyyət göstərməsinin başqa iqtisadi faydalarının mövcudluğu da həmçinin.

Bəli, TRIPP-lə bağlı yanaşmanın konseptuallıq amili, xüsusən Azərbaycanın təminatları düzgün qiymətləndirilməlidir. Sonda bir məqamı da vurğulamağa ehtiyac var. Məlumdur ki, Ermənistandakı revanşist və şovinist kəsim Rusiyadan “qidalanır”. O Rusiyadan ki, oradakı bəzi dairələr Paşinyan hakimiyyətinin devrilməsində maraqlıdırlar. Belələrinin direktivləri ilə hərəkət edən hay müxaliflər TRIPP-i sırf Amerikanın siyasi və hərbi layihəsi qismində qiymətləndirirlər. Belələri, eyni zamanda, Rusiyanın Zəngəzur dəhlizindən faydalanma imkanlarını da şübhələndirmək yolu tuturlar.

Obrazlı desək, regionun başı üzərində Şimal külləkləri əsir. O küləklər ki, toz-duman yaratmaqdan başqa heç nəyə yaramır, hər cür konstruktivlikdən uzaqdır, ənənəvi imperialist xəttini rəhbər tutur. Regionda hazırda formalaşmış Rusiya-İran tandemini TRIPP-ə qarşı cəbhəyə çevirmək istəklərinin kökü də məhz bundadır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İslamabadın məramı göyərmədi

## *Dialoqun bərpası üçün irəli sürülən tələblər*

**Vaşinqton və Tehran arasında yaranan dərin hərbi-siyasi böhranın tənzimlənməsi məqsədilə İslamabad şəhərində üzbəüz görüşlər keçirilib. Tarixi xarakter daşıyan təmaslar qlobal təhlükəsizlik arxitekturasının ən kritik sınağı kimi diqqət mərkəzində idi. İki dövlətin rəsmi nümayəndələrinin eyni masa arxasında əyləşməsi 1979-cu il inqilabından bəri müşahidə edilməyən nadir diplomatik hadisə sayılır. Görüşlərin əsas məqsədi mövcud hərbi qarşıdurmanın dayandırılması, atəşkəs rejiminin daimi sülhə çevrilməsi və qlobal miqyasda sabitliyin bərpası kimi müəyyənləşdirildi. Bu diplomatik addımın Pakistan hökumətinin intensiv vasitəçilik səyləri sayəsində baş tutduğu qeyd olunmalıdır. Danışıqlar 20 saatdan çox davam edərək təfərrüatlı siyasi, texniki və iqtisadi müzakirələrlə yadda qaldı.**

ABŞ nümayəndə heyəti dərin hərbi-iqtisadi ekspertizaya malik mütəxəssislərdən ibarət idi. Vaşinqtonun yekun razılaşma üçün əsaslı iradə nümayiş etdirməsi komandanın tərkibindən bəlli olurdu. Amerika diplomatlarının qarşısında qoyulan başlıca hədəf mövcud atəşkəsi daimi sülh sazişinə çevirmək, eyni zamanda, rəqib dövlətin nüvə proqramını tamamilə məhdudlaşdırmaq idi. Vaşinqton hərbi qarşıdurmanın iqtisadi dayaqlarını dağıtmaq niyyəti güdürdü. Digər cinahda isə İran rəsmilərinin başçılıq etdiyi 70 nəfərlik təcrübəli heyət mövqe tutdu. Tehran təmsilçiləri sırasına Mərkəzi Bankın və Müdafiə Şurasının nümayəndələri də qatıldı. Məlum tərkib açıq şəkildə göstərirdi ki, Tehran hərbi eskalasiyanın dayandırılması qarşılığında ağır iqtisadi sanksiyaların ləğvini, beynəlxalq banklarda bloklanan maliyyə vəsaitlərinin qaytarılmasını tələb edəcək. Hər iki tərəfin maksimum dərəcədə sərt mövqedə dayanması danışıqların fərqli və olduqca mürəkkəb formatda cərəyan etməsinə səbəb oldu.

Vasitəçilərin cəhdlərinə baxmayaraq, tərəflərin maraqları arasında yaranan dərin uçurum dialoq mühitini gərginləşdirməkdə idi. Müzakirələr zamanı irəli sürülən şərtlər yalnız hərbi xarakter daşımır, eyni zamanda, qlobal iqtisadi arxitekturanın təməl prinsiplərinə toxunurdu. Uzun sürən danışıqların yekun nəticəsi sülh prosesini dəstəkləyən qüvvələrin ümidlərini doğrultmadı. Vaşinqton təmsilçiləri mətbuat qarşısına çıxaraq diplomatik dialoqu rəsmən dayandırdığını bəyan etdilər. Amerika rəsmiləri qeyd etdilər ki, Vaşinqton kifayət qədər sakit mövqe nümayiş etdirərək ortaq məxrəcə gəlmək istəyirdi, lakin İran təmsilçilərinin irəli sürdüyü şərtlər prosesin dayanmasına gətirib çıxardı. Əsas fikir ayrılığı yaradan elementlərdən biri nüvə proqramının dondurulması məsələsi üzərində cəmləşirdi. ABŞ rəhbərliyi zənginləşdirilən uran ehtiyatlarının beynəlxalq nəzarətə verilməsini mütləq norma sayırdı. Lakin Tehran komandası məlum tələbi qəbul etməyərək, texnoloji inkişaf hüquqlarının məhdudlaşdırıla bilməyəcəyini vurğuladı. Nümayəndə heyətinin rəhbəri hesab edirdi ki, Amerika rəsmiləri zəruri etimad mühiti formalaşdırmaqda tərəddüd edirlər. Nəticədə, güzəştə gedilmədi, dialoq bərpa prosesinə keçə bilmədi. Təqdim edilən tələblərin maksimalistliyi prosesin mürəkkəbliyini göstərirdi.



*

Danışıqların əsas mövzusu Hörmüz boğazının statusunun müəyyənləşdirilməsi ilə bağlı idi. Ərəbistan yarımadası və Asiya qitəsinin cənubu arasında yerləşən dəniz keçidi dünya neft dövriyyəsinin iyirmi faizini təmin etməklə strateji əhəmiyyət daşıyır. Qlobal iqtisadiyyatın fasiləsiz fəaliyyəti məsələsi həlledici prinsip hesab olunur. Amerika tərəfi bəyan etdi ki, azad ticarət yollarının hər hansı təzyiq vasitəsinə çevrilməsi məqbul sayıla bilməz. Tərəflərin Hörmüz dəhlizi ilə bağlı baxış fərqlilikləri ortaq variantın tapılmasını mümkünsüz hala gətirdi. Tehranın boğazı nəzarətdə saxlamaqla iqtisadi mövqeyini gücləndirmək istəyi Amerika administrasiyası tərəfindən regional balansı dəyişmə addımı kimi dəyərləndirildi.

Diplomatik təmasların nəticəsiz qalmasının ardınca vəziyyət fərqli, yeni müstəviyə keçdi. Amerika hökuməti qərar qəbul edərək Hörmüz boğazında xüsusi təyinatlı dəniz nəzarətinin tətbiq ediləcəyini rəsmən elan etdi. Qərarın mahiyyəti ondan ibarət idi ki, hərbi gəmilər vasitəsilə mütəmadi yoxlamalar aparılacaq, hədəflənən ölkənin limanlarından çıxan və yaxud həmin istiqamətə hərəkət edən yük daşıyıcılarının sərbəst hərəkəti məhdudlaşdırılacaq, qeyri-rəsmi neft tranziti durdurulacaq. Həmin məhz bəhs edilən su dəhlizinin açıq və təhlükəsiz qalmasından asılıdır. Müzakirələr masasında Tehran nümayəndələri Hörmüz boğazından tranzit keçid edən ticarət gəmilərindən xüsusi rüsum alınması və tranzit mexanizminin yerli hərbi dəniz qüvvələrinin mütləq nəzarəti altında həyata keçirilməsi tələbini aktuallaşdırdılar. Qeyd edilən tələb Vaşinqtonun regiondakı maraqlarına, habelə beynəlxalq dənizçilik hüququna fərqli yanaşma tələb edirdi. Amerika administrasiyası üçün beynəlxalq suların azadlığı addım Vaşinqtonun münaqişəni quruda tam hərbi zərbələr səviyyəsinə qaldırmadan, dənizdə iqtisadi məhdudlaşdırma metodunu seçdiyini təsdiqləyirdi. Tətbiq edilən dəniz nəzarəti yalnız leqal ticarət əməliyyatlarını deyil, eyni zamanda, qeyri-rəsmi ticarət üzərindən icra edilən ixrac mexanizmini azaltmaq məqsədi daşıyır.

*

İslamabad danışıqlarının fiaskoya uğraması beynəlxalq arenada dərhal reaksiya doğurdu. Avstraliyanın Baş naziri Antoni Albanizi yaranan mürəkkəb vəziyyətlə əlaqədar narahatlığını ifadə edərək, Amerika və İran arasında danışıqların təcili bərpasına çağırdı. Hökumət rəhbəri rəsmi Kanberranın dialoqun davam etdirilməsini dəstəklədiyini bildirdi. Siyasətçi bəyanatında dərhal məsələyə toxunaraq danışıqların bərpasını qətiyyətlə dəstəklədiklərini, Yaxın Şərqdə insan tələfatının və mülki infrastrukturun dağıdılmasının dayandırılmasını görmək istədiklərini xüsusilə vurğuladı. Əlavə olaraq, Baş nazir qeyd etdi ki, Kanberra ticarətin tezliklə bərpa olunacağına ümid edir. Siyasətçinin rəsmi açıqlamasına görə, mövcud vəziyyət artıq qlobal iqtisadiyyata kəskin təsir göstərir və təkcə Avstraliyanı deyil, digər ölkələri də əhatə edir.

Paralel olaraq, diplomatik vəziyyətin dəyişdiyi ərəfədə İran və Rusiya prezidentləri arasında telefon danışığı baş tutdu. İran Prezidenti Məsud Pezeşkian ədalətli razılaşmanın əldə olunmasına maneə kimi ABŞ tərəfinin ikili standartlarını göstərdi. Dövlət rəhbəri vurğuladı ki, İran regionda davamlı sülh və təhlükəsizliyi təmin edəcək balanslaşdırılan və ədalətli razılaşmanın əldə olunmasına tam hazırdır. Pezeşkian Amerikanın beynəlxalq hüquq çərçivəsinə riayət edəcəyi təqdirdə razılaşmanın əldə olunmasının qeyri-mümkün olmadığını açıq şəkildə qeyd etdi.

Qeyd edilən siyasi sarsıntılar Yaxın Şərq coğrafiyasında formalaşan balansı silkələdi. Pakistan kimi nüfuzlu ölkənin maksimum dərəcədə qərəzsiz və konstruktiv cəhdlərinə baxmayaraq razılaşmanın əldə olunmaması münaqişənin tezliklə həll edilməsinin çətinliyini təkrar sübut etdi.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ermənistan seçkiyə siyasi parçalanma şəraitində gedir

## *Keçmişin terror tarixçəsi*



**Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın Erməni Milli Konqresi (EMK) ilə hazırda həbsdə olan iş adamı Samvel Karapetyanın başçılıq etdiyi “Güclü Ermənistan” Partiyası arasında vahid siyasi blok yaratmaq istəkləri gerçəkləşməyib. Halbuki, tərəflərin razılaşmaya ümidli olduqları bildirilirdi. Seçki ittifaqı nə üçün reallaşmayıb, bununla bağlı suallar çoxdur. Söhbət, ilk baxışdan, cavabsız kimi görünən suallardan getsə də, bəzi mətləbləri vurğulamağa dəyər.**

Deməli, EMK sədrinin müavini Levon Zurabyan təmsil olunduğu qurumla “Güclü Ermənistan” arasında seçki bloku yaratmaq barədə danışıqların ciddi keçdiyini bildirsə də, yekun nəticənin əldə edilmədiyini vurğulayıb. Onun sözlərinə görə, tərəflər blok formalaşdırmağa çox yaxınlaşıblar, lakin həlledici anda fikir ayrılığı yaşanıb. Səbəbi Zurabyan son dərəcə ehtiyatla ifadə edib və bldirib ki, siyasi nəticəyə çatma üsulları ilə bağlı yanaşma fərqləri var. Sadə dildə desək, tərəflər hakimiyyət üzərində necə qələbə qazanmaq barədə vahid mövqeyə gələ bilməyiblər. Görəsən, yanaşma fərqi nədədir? Suala ehtimal etdiyimiz cavabı sonda diqqətə çatdıracağıq. Hələlik isə EMK funksionerinin dilə gətirdiyi digər fikirlər üzərində dayanaq.

Deməli, Zurabyan xatırladıb ki, təmsil olunduğu qurum son iki ildə ətrafında müxalif qüvvələri toplamağa çalışıb. İstəyib ki, baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi hakimiyyətə alternativ təsir mərkəzi formalaşdırsın. Sonra S.Karapetyanın “Güclü Ermənistan”ı siyasi səhnəyə çıxıb və EMK-da belə qərara alınıb ki, bu komanda olmadan tamhüquqlu siyasi qütb yaratmaq mümkünsüzdür. Bəs belə bir qənaət nə üçün yaranıb? Çox düşünməyə ehtiyac yoxdur, cavab puldadır. Görünür, L.Ter-Petrosyan seçkidən sonraya sərmayə qoyurmuş. Düşünürmüş ki, Karapetyanın Rusiyada qazandığı pullar qələbə üçün vasitə olsun. Aydındır ki, iş adamının dövlət idarəçiliyi təcrübəsi yoxdur və buna görə də blokdakı azlıq olan EMK-nın idarəçilikdə öncüllüyü mümkündür. Ancaq Zurabyanın öz izahı var. O deyir ki, birləşmə, sadəcə, texniki ittifaq kimi deyil, qüvvələr balansını dəyişə biləcək amil kimi qiymətləndirilib. O, hətta, “inqilabi dirçəliş effekti” kimi ifadə işlədərək, böyük blokun tərəddüd edən seçicilər üçün siqnal ola biləcəyinə işarə edib. Amma...

*(ardı 4-cü səhifədə)*

*Sülhə ictimai dəstək*

# Etimad körpüsündə yeni addımlar

## *Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətlərinin təmasları sülh prosesinə dəstəkdir*

**Hələ də ictimai fəallar arasında ikitərəfli təmaslara qarşı çıxanlar, xalq diplomatiyasının uğuruna şübhə ilə yanaşanlar var. Aydındır ki, bu ovqat və təmayülün məğlubiyyəti tam həzm edə bilməyən Ermənistan cəmiyyətinə xasdır. Amma həmin kəsim bütün münaqişələrin, ən uzun sürən müharibələrin də sülhlə bitdiyini sübut edən tarixi reallığı da unutmamalıdır. Günümüzün digər reallığı isə bölgədə sülhə doğru qalib tərəfin inamla addımlamasıdır. Azərbaycan bu xoş məqamını, sülh əlini İkinci Qarabağ müharibəsi başa çatan kimi qarşı tərəfə uzatmışdı. Bakının uzatdığı əli sıxmağın məqamı 2025-ci il avqustun 8-də Vaşinqtonda tarixi görüşün taleyinə yazılıbmış. Məhz həmin görüşdə sülh mətninin paraflanması, ABŞ Prezidentinin iştirakı ilə Birgə Bəyannamənin imzalanması və bunun ardınca tərəflərin atdığı addımlar Cənubi Qafqazda sülh mühitini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb, əmin-amanlığın bərpası və möhkəmlənməsi üçün gözlə görünən perspektivləri açıb.**



Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan dövləti regionda etibarlı və uzunmüddətli sülhün bərqərar olmasına maraqlıdır və bugünədək olduğu kimi, bundan sonra da sülh siyasətinə sadiq qalacaq. Rəsmi Bakı deyilənlərin təsdiqini konkret əməlləri ilə sübuta yetirir. 6 gün əvvəl Qəbələ şəhərində "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətlərinin nümayəndələri arasında baş tutan görüş rəsmi Bakının sülh siyasətinin atributu idi. Bu görüş sübut edir ki, ölkəmiz sülhün möhkəmlənməsi üçün öz səylərini uğurla davam etdirməkdədir.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Qəbələdə "Sülh körpüsü"nün iştirakçıları ilə görüşü, onlarla səmimi söhbəti və ermənilərin suallarını cavablandırması bir daha dövlətimizin sülhə verdiyi önəmi göstərir.

**Qəbələ şəhərində keçirilən görüşün koordinatoru, Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov** yerli mediaya açıqlamasında qeyd edib ki, "Sülh körpüsü" təşəbbüsü çərçivəsində müzakirələr əsasən regionda cərəyan edən proseslər, şimal və cənub qonşuluqda baş verən müharibələr nəticəsində artan qeyri-müəyyənliklər, daxili və xarici amillərin sülh prosesinə təsiri ətrafında aparılıb. Təşkil edilən ayrı-ayrı sessiyalarda iştirakçıların öz ölkələrindəki fəaliyyətinə, iki ölkə cəmiyyətlərinin sülh gündəliyini necə qəbul etməsinə, bu prosesə yön verən amillərə və imkanlara həsr olunduğuna diqqət çəkən F.Məmmədov Qəbələdə, eyni zamanda, sülhə aparan yolun növbəti mərhələsində əməkdaşlıq formatları ilə bağlı fikir mübadiləsi aparıldığını da vurğulayıb: "Təbii ki, sülh gündəliyini müəyyən edən əsas amil iki ölkənin razılaşdırdığı siyasi legitimlikdir. İyunun əvvəlində bu legitimliyin nə dərəcədə dayanıqlı olacağı və vətəndaş cəmiyyətlərinin hansı şərtlər altında birgə fəaliyyətini davam etdirə biləcəyi aydın olacaq. Əslində, bu amil sülh prosesinin fundamental əsasını təşkil edir və prosesin geriyə dönüb-dönməyəcəyi, yaxud geri dönüşsüz xarakter alıb-almayacağı sualına cavab verəcək".

Politoloq onu da bildirib ki, belə ikitərəfli görüşlər bir-birini anlamağa, reallıqlarla tanış olmağa və gələcək addımları müəyyən etməyə imkan yaradır: "Bu gün demək olar ki, sülh gündəliyi daha dəqiq çərçivə qazanır və realist perspektivlər formalaşır. Müzakirələr çərçivəsində münaqişənin buraxdığı dərin travmalar, digər həssas mövzular və cəmiyyətlərin sülhə hazırlığı da nəzərdən keçirilir. Məhz bu cür səmimi və qarşılıqlı etimada söykənən müzakirələr vasitəsilə hansı istiqamətdə irəliləməyin mümkün olduğu aydınlaşır. Bəli, bu, uzunmüddətli yoldur və tərəflərdən səbir, ardıcıllıq və dözümlülük tələb edir. Amma onu da deməliyəm ki, sülh prosesinin dinamikası yüksəkdir və mövcud şəraitdə mümkün olan bütün addımlar atılır. Vətəndaş cəmiyyəti də bu prosesin tərkib hissəsi kimi öz rolunu müəyyən etməyə çalışır, həm birgə fəaliyyət həyata keçirir, həm də öz istiqamətində öz ölkələrində fəaliyyətini davam etdirirlər".

Sayca dördüncü olan ikitərəfli görüş təkcə iki ölkənin vətəndaş cəmiyyətləri nümayəndələri arasında artıq mütəmadi xarakter almış dialoq deyil, eyni zamanda, Ermənistanla iqtisadi münasibətlərin normal məcraya düşməsi, etimad körpülərinin bərpası üçün ortaya qoyulan səylərdir. Görünən reallıq ondan ibarətdir ki, Azərbaycan iki ölkə arasında yekun sülhün tezliklə əldə olunması üçün konkret addımlar atır. Bəli, ölkəmiz Azərbaycan və Ermənistan cəmiyyətləri arasında uzun müddət mövcud olan düşmənçilik münasibətlərinin ortadan qaldırılması, qarşılıqlı etimad mühitinin yaradılması istiqamətində mühüm işlər görür, əlindən gələn hər şeyi edir. Qəbələdə hər iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə həyata keçirilən müzakirələr də məhz bununla bağlıdır.

Sonda əminliklə deyə bilərik ki, vətəndaş institutları nümayəndələrinin Qəbələ görüşü Azərbaycan və Ermənistan cəmiyyətlərinin sülhə hazırlanması istiqamətində irəliyə doğru atılan mühüm addım sayılmalıdır. Gələcəkdə oxşar məzmunlu görüşlərin keçirilməsi xalqlar arasında qarşılıqlı inam və etimadı əhəmiyyətli dərəcədə artıracaq ki, bu da etibarlı sülhün formalaşması, regionda uzunmüddətli əmin-amanlığın bərqərar olması üçün vacibdir. Birmənalı olaraq deyə bilərik ki, bu qəbildən olan görüşlər 30 il ərzində yandırılmış, yaxud yararsız hala salınmış etimad körpülərinin bərpasına, qonşuluq münasibətlərinin yaranmasına, ilk növbədə isə, sülhə gətirib çıxaracaq.

***İ.HƏSƏNQALA***
***XQ***

***Ekspert rəyi***



**Tofiq ABBASOV, siyasi icmalçı**

İki ölkə arasında etimad körpülərinin bərpa olunması vaxtı çoxdan çatıb. 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsində Azərbaycan qələbə çalanda Ermənistan tərəfi Bakının konsturktiv, sağlam ruhlu təkliflərinə səs verməli idi. Hətta 2023-cü ilin sentyabrında Azərbaycanın antiterror tədbirindən sonra da İrəvan özündə bu cəsarəti tapmadı. Amma Azərbaycan öz məramından dönmədi, sülh quruculuğunda təşəbbüskar və təqdirli oldu, təşkilatçılığı da yüksək səviyyədədir. Açıq deməliyik ki, biz Ermənistana çox dəyərli hədiyyələr verməşik, sürprizlər etmişik. İrəvan isə bunun müqabilində adekvat addımlara hazır deyildi.

Bəli, Qəbələ görüşü sülhə aparan yolda əhəmiyyətli təmasların göstəricisidir. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin görüş iştirakçıları ilə görüşməsi də təsadüfi deyildi. Onun bu həssas mövzuda Ermənistan heyətinin üzvləri ilə səmimi söhbəti, suallarını cavablandırması ölkəmizin liderinin, siyasi elitasının məramının müharibə, düşmənçilik səhifəsini bağlamağa çoxdan hazır olduğunun nümayişi idi. Bu kontekstdən yanaşanda Ermənistanın "kəsirlərini" görürük. Azərbaycan dünənki işğalçıya tranzit verir, bu yolla strateji mal və məhsullar ora ötürülür. Bütün bunlar beynəlxalq səviyyədə təqdir olunan addımlardır. "Sülh körpüsü" ilə bağlı bir misal çəkəcəm. Ermənistanlı həmkarım, "İrəvan pess-klub"unun rəhbəri Boris Navasardyan mənə müsahibəsində dedi ki, əsas göstərici odur ki, artıq biz beynəlxalq təşkilatlarda bir-birimizdən çuğulluq etmirik. Bu, ondan xəbər verir ki, ikitərəfli münasibətlərin bərpası üçün yaxşı ab-hava formalaşır. Azərbaycan Prezidenti elə ilk gündən ölkələr arasında ikitərəfli formatın ən məqbul müstəvi olduğunu bildirmişdi. Birbaşa dialoq, vasitəçisiz ünsiyyət faydalı platformanın yaranmasını şərtləndirir. Əlbəttə, bu, birtərəfli proses olmamalıdır: bir addım bizdən, bir addım da onlardan. Buna isə bizdən çox Ermənistanın ehtiyacı var. Əgər doğrudan da körpülərin bərpasına hazırsınızsa, bunu əməldə göstərməlisiniz.

# Ermənistan seçkiyə siyasi parçalanma şəraitində gedir

***(əvvəli 3-cü səhifədə)***

"Əmməsı" budur ki, L.Zurabyan, müəyyən məqamda, tərəflərin strategiyalarının dəyişdiyini vurğulayıb. Onun fikrincə, "Güclü Ermənistan" siyasi konsolidasiyadan çox, seçki texnologiyalarına üstünlük verərək başqa yol seçib. EMK-ya gəldikdə, qurum, Zurabyanın dediyinə görə, birləşməmək qərarını açıq narazılıq bildirmədən qəbul edib, baxmayaraq ki, fikir ayrılığı aydın şəkildə hiss olunub və qalmaqdadır.

L.Zurabyan, həmçinin, EMK-nın səsləri parçalamaq xətti götürdüyünə dair ittihamlara da cavab verib. O bildirib ki, hazırda əsas mübarizə üç mərkəz – Samvel Karapetyan, ikinci prezident Robert Koçaryan və iş adamı Qagik Sarukyanın komandaları arasında gedir və EMK onların elektoratını ciddi şəkildə özünə çəkmək gücündə deyil. Deməli, gücü olmadığına görə də EMK pafoslu S.Karapetyanın partiyasına sığınmaq istəyirmiş, amma alınmayıb. L.Zurabyanın dilə gətirdiyi bir fikir də var ki, ona nəzərən gözlənilən konsolidasiyanın hansı səbəbdən geçəkləşməməsi diyinə dair ağlabatan ehtimal irəli sürmək mümkündür. EMK funksioneri bildirib ki, təmsil olunduğu qurum öz yerini sülh gündəliyinə yönəlmiş seçicilər arasında görür. Yəni bu o deməkdir ki, S.Karapetyanın rəhbərlik etdiyi cinah tamam başqa düşüncədədir. Amma L.Zurabyan tez də diqqəti bu amildən yayındıraraq, Paşinyan iqtidarını siyasi manipulyasiyada günahlandırıb. O deyib ki, Nikol və tərəfdarları hakimiyyət dəyişikliyinin baş verəcəyi təqdirdə, müharibə olacağına dair təbliğat aparırlar və bu təbliğat cəmiyyətə təzyiq aləti kimi istifadə olunur. O zaman Zurabyanın hakim "Mülki müqavilə"ni "müharibə partiyası" adlandırması yersizdir. Axı o, özü də fərqinə varmadan savaşa, yəni Azərbaycanla müharibəyə hansı siyasi qüvvənin can atdığını açıqladı.



L.Zurabyanın bildirdiyi fikirlərlə bağlı ümumiləşdirmək apararaq, iki məqamın üzərində dayanaq. Deməli, EMK ilə S.Karapetyanın partiyasının blok yarada bilməməsinin birinci səbəbi necə qalib gəlmək barədə razılığa gəlməməklə bağlıdırsa, ikinci səbəb "Güclü Ermənistan"nın müharibə tərəfdarı olması, daha çox sülh istəməyən elektoratı öz ətrafında birləşdirmək istəməsi ilə bağlıdır. L.Ter-Petrosyan təcrübəli siyasətçidir və o, hazırkı məqamda Azərbaycanla yeni savaşın hansı böyük fəlakətlərə yol aça biləcəyindən gözəl xəbərdardır. Karapetyan isə Rusiyanın buyruq quludur.

Digər tərəfdən, çox da uzaq olmayan keçmişə ekskurs edərək, L.Ter-Petrosyanın 1997-ci ildə istefasının səbəbindən söz açaq. Məlumdur ki, birinci prezident öz postunu məhz Azərbaycanla danışıqların heç bir fayda verməməsinə görə tərk etmişdi. Ter-Petrosyan yaxşı görmüşdü ki, dünya Ermənistanın Qarabağ avantürasını qətiyyən dəstəkləmir və bunu daxildə açıq şəkildə bildirmiş, güzəştlərə gedilməsinin zəruriliyini vurğulamışdı. Aydındır ki, Birinci Qarabağ müharibəsində uğur qazanmış, eyforiya ab-havasında olan erməni cəmiyyəti L.Ter-Petrosyanı qəbul etməzdi. Nəinki qəbul etmədi, eyni zamanda, 1999-cu ilin parlament terroru göstərdi ki, istefaya getməsə, Levonu asanlıqla məhv edə bilərdilər. Nəzərə alaq ki, 1999-cu ilin oktyabrında Ermənistan Milli Assambleyasında qətlə yetirilən şəxslər, xüsusən, parlament sədri Karen Dəmirçyan və baş nazir Vazgen Sarkisyan Azərbaycana güzəştə gedilməsinin tərəfdarları idilər və onlar barış niyyətlərini açıqca ifadə edirdilər.

Qeyd edək ki, adları çəkilən şəxslər Qarabağ klanının təmsilçisi olan və 1998-ci ildə qeyri-qanuni şəkildə prezident postuna yiyələnmiş R.Koçaryanı bütün parametrlər üzrə üstələyirdilər. Eyni zamanda, Ermənistanın o zamankı quruluşu onların dövlət başçısı üzərində dominantlığına şərait yaradırdı. Parlament terroru bu status-kvonu kökündən dəyişdi və Koçaryan mütləq hakimə çevrildi. Beləliklə, Qarabağ danışıqlarında güzəşt ritorikası sıradan çıxdı. Sonrası hamıya yaxşı məlumdur. Sözümüz isə ondadır ki, hazırda Karapetyanın partiyası, müəyyən mənada, 1998-ci ildə R.Koçaryanın oynadığı rola iddialıdır. Onun Azərbaycanla barışmaz mövqe tutması fonunda EMK ilə fikir ayrılığı labüddür.

Sonda əvvəldə vurğuladığımız məqama keçid alaq. Seçkidə necə qələbə qazanmaq barədə razılığın əldə olunmamasına gəlincə, S.Karapetyanın sivil siyasi mübarizədən uzaqlığı vurğulanmalıdır. Mövcud xüsusda terrorun da nəzərdən keçirilməsi mümkündür. Axı, Ermənistanın siyasi təcrübəsində terror amili var və bu barədə söz açdıq. Ehtimal etmək olar ki, EMK blok yaratmaqla məhz hakimiyyətdən narazı seçici aktivliyi ilə qalib gəlməyi düşünübsə, "Güclü Ermənistan" bütün vasitələri keçərli sayıb. Yəni terroru da. Nəzərə alaq ki, zamanında Ermənistanın Azərbaycanla savaş və barışmazlıq ritorikası ömrünü məhz terrorla uzatmışdı. Əlbəttə ki, söhbət hakim komandaya qarşı terrordan gedir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*Replika*

## Səfir Kopırkin və Zori Balayanın zəhərsaçan mumiyası

### *Diplomat nəyə tamaşa etdiyinin fərqinə varırdımı?..*

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Xocalı cəlladı, Qarabağ avantürasının ideoloqlarından sayılan, bədnam yazıçı Zori Balayanın dəfnində iştirak edib. Əlbəttə, bu adi hadisə deyil. Hər halda, cənab səfir kimin dəfninə qatıldığının fərqində olub. Axı o, təcrübəli diplomatdır. Ona görə ortaya maraqlı sual çıxır: Z.Balayanın dəfnində iştirak Kopırkinin öz təşəbbüsüdür, yoxsa...**



Əlbəttə, sualımız ritorikdir. Çünki Kopırkin konkret ölkəni təmsil edir, onun hara getdiyi, kimlə görüşdüyü planlıdır. Nəzərə alaq ki, diplomatın Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın yanına da gedib-gəlməkləri var. Adam boş dayanmır. Görünür, ölkəsi naminə belə çalışır...

Deməli, reallıq budur ki, Rusiyanın Ermənistandakı səfiri Cənubi Qafqazda ixtilaf təğlibatçısının dəfninə qatılır. İndi durumu necə başa düşək? Əslində, məsələni anlamaq çox da çətin deyil. Rusiya uzun müddət ATƏT-in artıq canını tapşırmış Minsk qrupunun həmsədri olub. O qrupun ki, Azərbaycanla Ermənistan arasında münaqişəni həll etməli idi. Amma həll etmədi. Əksinə, bu qrup işğal faktını rəsmiləşdirmək, onu düşüncələrə yeritmək üçün əlindən gələn hər şeyi etdi: Danışıqlar prosesini uzatdı və müxtəlif manipulyasiyaları ilə Ermənistanın şıltaqlıqlarına göz yumdu.

Nəhayət, Azərbaycan 44 günlük müharibə və 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri ilə torpaqlarını işğaldan qurtardı, eyni zamanda, ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Ən əsası isə ölkəmizin şanlı Zəfəri Qarabağ avantürasına son qoydu. Əlbəttə, bu gün də Rusiyada Azərbaycanın Zəfərini, Cənubi Qafqazdakı avantüranın sıradan çıxdığını həzm edə bilməyənlərin olduğunu görürük. Belələrinə hər sahədə rast gəlinir. Rusiya isə rəsmi səviyyədə bildirir ki, Cənubi Qafqazda sülhün tərəfdarıdır. Ölkə regionda barışın tərəfdarıdırsa, Kopırkin Zori Balayanın dəfnində nə gəzir?

Bu yerdə, dəfndə iştirak edənlərə diqqət yetirək: Ermənistanın keçmiş prezidentləri, Xocalı qatilləri Robert Koçaryan və Serj Sarkisyan, həmçinin, türklərə və azərbaycanlılara qarşı nifrət püskürən II Qaregin. Və səfir Kopırkin. Mənzərədə Qarabağ avantürası üzrə səhnə formalaşır. Ortada isə cənazə var. Özü də murdar cənazə, üfunət mumiyası.

Qeyd edək ki, Rusiyanın ictimai rəyində qondarma Qarabağ hərəkatının hələ bitmədiyinə dair fikir var və bu fikir Ermənistandakı revanşist və şovinist kəsmi hərəkətə gətirir. Baxmayaraq ki, Ermənistanın baş naziri Nikol Paşinyan, eləcə də ölkənin digər rəsmiləri Qarabağ hərəkatının artıq olmadığını bildirirlər. Özü də dəfələrlə. O zaman cənab Kopırkin haqqında da pis düşünməyək. Hesab edək ki, o, heç diplomatik etiketi pozmayıb, vəzifə səlahiyyətlərinə uyğun davranıb və öz gözü ilə Qarabağ avantürasının necə gəbərdiyini görməyə gedib. Ola bilər, bu avantüranın leşinə tamaşa etmək onun üçün maraqlıdır, belə demək mümkünsə, zövq işidir. Əgər belədirsə, səfirə bəraət var. Arzu edək ki, diplomatik möhləti imkan versin və o, II Qareginin də, Robert Koçaryanın da, Serj Sarkisyan və digər Qarabağ cəlladlarının da dəfnində iştirak etsin. Başqa nə deyək?

***Ə.RÜSTƏMOV***
***XQ***

# Erməni diasporunun Paris iflası

*İrəvan xaricdə axıdılan göz yaşlarına inanmır*






**Aprelin 11-12-də Fransanın paytaxtı Parisdə erməni diasporunun forumu keçirilib. Forumda dünyanın 26 ölkəsindən 150-dən çox erməni – özlərini ziyalı adlandıran şəxslər, siyasi və ictimai xadimlər iştirak ediblər. Toplantıda digər məsələlərlə yanaşı, hayların təbirincə desək, "Dağlıq Qarabağ" və "erməni soyqırımı" məsələləri də müzakirə olunub. Bütün ermənilərin katolikosu II Qaregin, Kilikiya Böyük Evinin katolikosu I Aramla yanaşı, bir zamanlar Azərbaycan ərazisində mövcud olmuş separatçı xunta rejiminin "parlamentinin spikeri" və "prezident vəzifəsini icra edən" Aşot Danielyan da forumda videomüraciətlə çıxış ediblər.**

Forumun yekun bəyanatında bildirilir ki, hazırda diaspor üçün prioritet məqsədlər Ermənistanın gücləndirilməsi, "erməni soyqırımı"nın tanıdılması və buna görə məsuliyyət (?) məsələsinin gündəmdə saxlanılması, eləcə də "Artsax məsələsi"nin həlli ("əsirlər"in azad olunması, geri qayıdış hüququ, mədəni irsin qorunması, Ermənistanda yaşayan "artsaxlıların" hüquqlarının müdafiəsi və sosial problemlərinin həlli) hesab olunur. İştirakçılar Ermənistan hakimiyyətinin kilsəyə münasibətdə siyasətini pisləyərək, iyerarxlara edilən təzyiqlərə (?) qarşı birləşməyə çağırıblar. Bəyanatda qeyd olunur ki, "milli kimliyə qarşı atılan istənilən addım həmrəy müqavimətlə" qarşılanmalıdır. Forum iştirakçıları, həmçinin, cəmiyyətdə parçalanmanın qarşısının alınmasının və kilsə ətrafında birləşməyin vacibliyini vurğulayıblar.

Bununla yanaşı, bəyanatda Ermənistan hakimiyyətinin diaspora münasibətdə yürütdüyü "etinasız yanaşmaq və parçalamaq" siyasəti tənqid edilib. Bu münasibətlərin yenidən nəzərdən keçirilməsi və diaspor nümayəndələrinin ölkənin inkişaf potensialına töhfəsinin artırılması üçün proqram hazırlanması təklif olunub. Forum iştirakçıları, həmçinin, harada yaşamasından asılı olmayaraq, bütün Ermənistan vətəndaşlarını ölkəyə qayıdaraq qarşıdan gələn seçkilərdə səs verməyə çağırıblar. Bəyanatda vurğulanır ki, "mövcud hakimiyyətin antimilli kursunun dəyişdirilməsi və milli-dövlətçilik inkişaf xəttinin bərqərar edilməsi" zəruridir.

*

Paris forumu bir daha göstərir ki, erməni diasporunun müəyyən hissəsi hələ də reallıqla hesablaşmaqda çətinlik çəkir və siyasi prosesləri köhnə düşüncə tərzi əsasında qiymətləndirməyə davam edir. Halbuki, regionda vəziyyət köklü şəkildə dəyişib. Ötən ilin avqustunda Vaşinqtonda Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması, eyni zamanda, Ermənistan–Türkiyə münasibətlərinin normallaşması istiqamətində müşahidə olunan müsbət dinamika İrəvan üçün yeni imkanlar pəncərəsi açır. Belə bir həssas mərhələdə diasporun tutduğu mövqe isə bu imkanları dəstəkləmək əvəzinə, əksinə, onları sual altına qoymağa xidmət edir.

Forumda səsləndirilən tezislərdən aydın görünür ki, bu çevrələr hələ də "Dağlıq Qarabağ" və ya "Artsax" kimi artıq tarixə qovuşmuş anlayışları siyasi gündəmdə saxlamağa çalışır, "geri qayıdış", "status", "məsuliyyət" kimi reallıqdan uzaq iddialarla çıxış edirlər. Belə ritorika İrəvanın Bakı ilə əldə etdiyi razılaşmaların ruhuna ziddir və sülh prosesinə kölgə salır.

Eyni vəziyyət Ermənistan–Türkiyə münasibətlərinə münasibətdə də müşahidə olunur. Son dövrlərdə sərhədlərin açılması, diplomatik təmasların genişlənməsi istiqamətində müəyyən addımlar atıldığı halda, diasporun bir qismi yenə də maksimalist və qarşıdurmaya hesablanmış mövqedən çıxış edir. Bu isə rəsmi İrəvanın apardığı ehtiyatlı normallaşma siyasətini çətinləşdirir, regionda etimad mühitinin formalaşmasına mane olur.

Diqqətçəkən digər məqam isə diasporun Ermənistanın daxili siyasi həyatına açıq şəkildə müdaxilə etməyə çalışmasıdır. Forum iştirakçılarının seçkilərlə bağlı çağırışları, hakimiyyətə qarşı sərt bəyanatları və "antimilli kurs" ittihamları göstərir ki, bu qüvvələr ölkə daxilində siyasi gündəmi formalaşdırmağa iddialıdırlar. Lakin illərdir xaricdə yaşayan, Ermənistanın sosial-iqtisadi reallıqlarından uzaq olan bu insanların radikal mövqeyi cəmiyyətin real ehtiyacları ilə uzlaşmır. Bu gün Ermənistan vətəndaşlarının böyük əksəriyyəti müharibələrdən usanmış vəziyyətdədirlər. Diaspor nümayəndələri bu reallığı ya anlamır, ya da anlamaq istəmirlər. Bu gün onlar müxtəlif ölkələrdə, xüsusilə həyat standartlarının yüksək olduğu Qərbi Avropa ölkələrində, ABŞ-da, Kanadada, Avstraliyada şad-xürrəm həyatlarını yaşamaqdadırlar. "Hayrenik, hayrenik" ("hayrenik" erməni dilində "vətən" deməkdir–S.H) deyərək gəzib dolaşsalar da, onların heç birinin nə özləri, nə övladları, nə də ayxın qohumları Ermənistan üçün döyüşməyib, ölməyib. Ən yaxşı halda, onlar üçün əlamətdar günlərdə Azərbaycan və Türkiyə səfirlikləri qarşısında çığır-bağır salıb, yaxud "Hayastan" ümumerməni fonduna qəpik-quruş ianə ediblər. Bütün bunlardan sıravi ermənilər də xəbərdardır. Ona görə də diaspor ermənilərinin sözləri onlar üçün keçərli deyil. Bu gün Ermənistan vətəndaşlarının böyük əksəriyyəti xaricdən səslənən bu zingiltiləri qulaqardına vururlar.

Əslində, diasporun bu davranışı yeni deyil. Onlar uzun illər ərzində daha çox emosional və ideoloji yanaşmalarla çıxış edərək, kompromis imkanlarını zəiflədib, maksimalist tələblərlə prosesləri dalana dirəyiblər. Nəticədə isə ən çox zərər görən yenə Ermənistanın özü və onun vətəndaşları olub. Bu gün də eyni xəttin davam etdirilməsi yalnız yeni risklər yaradır. Reallıq ondan ibarətdir ki, Cənubi Qafqazda davamlı sabitlik yalnız qarşılıqlı tanınma, sərhədlərin müəyyənləşdirilməsi və kommunikasiyaların açılması ilə mümkündür. Ermənistanın iqtisadi dirçəlişi, təhlükəsizliyinin möhkəmlənməsi və regional layihələrə qoşulması da məhz bu proseslərdən asılıdır. Diaspor isə bu reallığı qəbul etmək əvəzinə, köhnə münaqişə ritorikasına sığınaraq İrəvanı yenidən qarşıdurma mühitinə sürükləməyə çalışır. Bu baxımdan Paris forumunda səslənən fikirlər konstruktiv gündəmdən uzaq olmaqla yanaşı, müəyyən mənada, məsuliyyətsiz yanaşmanın göstəricisidir.

Diaspor anlamalıdır ki, bugünkü geosiyasi reallıqda düşmənçiliyin qızışdırılması heç bir tərəfə fayda gətirmir. Xüsusilə, bu cür yanaşma, ilk növbədə, Ermənistanın öz maraqlarına ziddir. Regionda açılan yeni imkanlardan yararlanmaq əvəzinə, onları bloklamağa yönəlmiş siyasət uzunmüddətli perspektivdə Ermənistanı daha da təcrid vəziyyətinə sala bilər. Nəticə etibarilə, Parisdə keçirilən forum bir daha göstərdi ki, diaspor daxilində hələ də ciddi düşüncə böhranı mövcuddur. Reallığı qəbul etmək, dəyişən şərtlərə uyğunlaşmaq və sülh gündəmini dəstəkləmək əvəzinə, köhnə stereotiplərə bağlı qalmaq Ermənistan üçün əlavə problemlər yaradır. Halbuki bu gün ən böyük ehtiyac məhz rasional yanaşma, praqmatik siyasət və regionda davamlı sülhün təmin olunmasına töhfə verəcək addımlardır.

**P.S.** *Hələlik Ermənistan hakimiyyətinin Paris forumuna münasibəti açıqlanmayıb. Ancaq 2024-cü ilin iyununda N.Paşinyan bəyan etmişdi ki, "Üçüncü Respublika" tarixində diaspor çox vaxt Ermənistanın idarə olunmasında yardımçı institut kimi nəzərdən keçirilib. O vurğulamışdı ki, hazırkı hakimiyyət bu ideologiyadan imtina etmək qərarına gəlib. Paşinyanın sözlərinə görə, Ermənistan özünün aydın mexanizmləri olan bir sistemdir və bu mexanizmdə kimin və necə idarə etdiyi dəqiq müəyyənləşdirilib. O, həmçinin diaspor nümayəndələrinə müraciət edərək, Ermənistanı idarəetmədə yardımçı alət kimi görməkdən imtina etməyə çağırmışdı.*

*Forumdan bir neçə gün əvvəl isə N.Paşinyan hökumətin iclasında bəyan etmişdi ki, bir çox insanlar diaspor adından danışmaq hüququnu öz üzərlərinə götürürlər, lakin onu bütövlükdə təmsil etmirlər və azlıqda qalırlar.*

***Səxavət HƏMİD***
***XQ***

# Karapetyanın seçkiöncəsi saxtakarlıqları

*Rusiyalı oliqarx tarixin təkərini geri döndərməyə çalışır*

**Rusiyalı oliqarx Samvel Karapetyanın rəhbərlik etdiyi "Güclü Ermənistan" Partiyasının İrəvanda keçirdiyi son aksiya bir neçə mühüm məqamı üzə çıxarıb: rəqəmsal texnologiyaların siyasi manipulyasiya alətinə çevrilməsi, aksiyaların real miqyasının şişirdilməsi və inzibati resurslardan istifadə halları.**

Ümumi mənzərə göstərir ki, ölkədəki siyasi rəqabət artıq təkcə ideologiyalar üzərindən deyil, həm də informasiya texnologiyaları vasitəsilə aparılır. Xüsusilə bəzi siyasi çıxışların "deepfake" texnologiyası ilə saxtalaşdırıldığına dair faktlar var. Texniki analizlər zamanı səs və görüntü arasındakı uyğunsuzluqlar, mimikaların nitqlə üst-üstə düşməməsi və audionun keyfiyyətsizliyi manipulyasiyaları təsdiqləyir. Bu, xüsusilə "Güclü Ermənistan"ın lideri Samvel Karapetyan videoformatda çıxışında daha aydın hiss olunub. Bu texnologiyadan çox vaxt xa-



ricdə seçiciləri çaşdırmaq üçün istifadə edilir. Ermənistandakı vəziyyət bu qlobal tendensiyanın lokal təzahürüdür və ən böyük risk odur ki, belə müdaxilələr ictimai etimadı sarsıdır, insanlar gördükləri və eşitdiklərinin reallığını ayırd etməkdə çətinlik çəkirlər.

Digər ciddi məsələ mitinqin təşkili formasıdır. "Qazprom Ermənistan" QSC kimi iri şirkətlərin əməkdaşlarının inzibati təzyiq altında aksiyalara cəlb edildiyi bildirilir. Regionlardakı işçilərə "Güclü Ermənistan" partiyasının mitinqinə qatılmaq tapşırılıb, əks halda, onlar işdən çıxarılma və ya digər mənfi nəticələrlə hədələniblər. Ermənistan qanunvericiliyinə görə, toplantılarda iştiraka məcburetmə cinayət tərkibi yaradır və sərbəst siyasi iştirak hüququnun birbaşa pozulmasıdır. Bu, həm də Aİ-ni narahat edən amildir. Onun İrəvana dəstək olmaq istəyi də bundan qaynaqlanır.

Şübhəsiz ki, məcburi iştirak halları siyasi aktivliyin könüllü xarakterini zədələyir və süni "kütləvi dəstək" görüntüsü yaradır. Bununla bağlı aidiyyəti qurumlara müraciət edilməsi institusional reaksiyanın mövcudluğunu göstərsə də, əsas sual budur: bu hallar epizodikdir, yoxsa sistemli xarakter daşıyır? Son aylar Ermənistanda müşahidə olunan dinamika göstərir ki, siyasi mübarizə texnoloji manipulyasiyalar və inzibati təzyiqlər fonunda daha mürəkkəb və çoxqatlı xarakter alır.

Mitinqlərin real miqyası ilə bağlı faktlar da aparılan təhlilləri daha konkret müstəviyə daşıyır. Son illərin ən böyük aksiyalarına nəzər saldıqda görünür ki, 2024-cü ildə Baqrat Qalstanyanın rəhbərliyi ilə keçirilən mitinqdə təxminən 32 min, 2021-ci ildə Robert Koçaryanın seçkiqabağı mitinqində isə 30 min nəfər iştirak edib. Hər iki aksiya Respublika meydanı kimi geniş ərazidə baş tutub. Buna qarşılıq olaraq, "Azadlıq" meydanında təşkil olunan son mitinqin daha kiçik məkanda keçirilməsinə baxmayaraq, iştirakçı sayının 40 min kimi təqdim edilməsi ciddi şübhələr doğurur. Hesablamalar göstərir ki, real iştirakçı sayı təxminən, 12–13 min olub ki, bu da 2022-ci ilin "Müqavimət hərəkatı" mitinqi ilə müqayisə edilə bilən göstəricidir. Rəqəmlərin bu dərəcədə şişirdilməsi kütləvi dəstək görüntüsü yaratmaqla həm daxili auditoriyaya, həm də xarici tərəfdaşlara təsir etmək məqsədi daşıyan klassik siyasi texnologiyadır. "The Guardian" və "The New York Times" kimi nəşrlər də vurğulayıb ki, kütlə sayının manipulyasiyası qlobal siyasi praktikanın ayrılmaz hissəsidir.

Mitinqlə bağlı xoş olmayan faktlar yalnız bunlarla bitmir. Təşkilati mexanizmlər də aksiyanın xarakteri haqqında aydın təsəvvür yaradıb. İştirakçıların avtobuslarla daşınmasını əks etdirən görüntülər tədbirin spontan deyil, planlı və koordinasiyalı şəkildə təşkil olunduğunu sübut edir. Eyni zamanda, iştirakçıların istifadə etdiyi radikal və konfrontativ simvollar sülh gündəliyi ilə ziddiyyət təşkil edərək regiondakı həssas sabitlik məsələlərini təhlükə altında qoyur. Tədbirdə siyasi ritorika paralel olaraq güclü populist elementlərlə zənginləşdirilib. "Güclü Ermənistan" xətti ilə çıxış edən Samvel Karapetyan özünü həm siyasi lider, həm də "milli xilaskar" obrazında təqdim edib. Onun bəyanatlarında şəxsi qurbanlıq, milli kimliyin müdafiəsi və sistem dəyişikliyi çağırışları əsas yer tutub ki, bu da emosional mobilizasiya yaratmağa hesablanmış klassik populist strategiyadır.

Narek Karapetyan tərəfindən Macarıstan nümunəsinə istinad edilməsi isə beynəlxalq paralellər üzərindən legitimlik yaratmaq cəhdidir. Müraciətində Samvel Karapetyanın biznesini övladlarına ötürərək dövlət xidmətinə fokuslanacağını bildirməsi də siyasi imic formalaşdırılmasına – özünü şəxsi maraqlardan uzaq, dövlətə xidmət edən lider kimi təqdimatına xidmət edir. Lakin beynəlxalq təcrübə göstərir ki, biznes və siyasət arasındakı əlaqələrin şəffaf olmaması gələcəkdə maraq toqquşmaları ilə bağlı suallar yaradır.

Ümumiyyətlə, Ermənistanda cərəyan edən son siyasi proseslər Azərbaycanın strateji maraqları prizmasından bir neçə mühüm nəticə ortaya qoyur. Bu vəziyyət yalnız Ermənistanın daxili gündəmi ilə məhdudlaşmır, həm də regionun təhlükəsizlik balansına, sülh prosesinə və geosiyasi dinamikanın gələcək istiqamətlərinə birbaşa təsir potensialı daşıyır. Daxili siyasi mübarizədə "deepfake" kimi texnoloji manipulyasiyalardan və inzibati resurslardan istifadə Ermənistanda siyasi institutların zəifliyini göstərir. Azərbaycan üçün bu, ikili mənzərə yaradır: parçalanmış siyasi sistem Ermənistanın ardıcıl xarici siyasət yürütməsini çətinləşdirsə də, radikal qüvvələrin önə çıxması riskini artırır.

Xüsusilə Samvel Karapetyan kimi fiqurların ritorikasındakı sərt populist elementlər, milli kimlik və "ədalətin bərpası" adı altında səsləndirilən çağırışlar regionda sülh gündəliyinə birbaşa təhdid yaradır. Mitinqlərdə sülh prosesi ilə ziddiyyət təşkil edən radikal simvolların nümayişi Ermənistan daxilində revanşist meyillərin hələ də qaldığını təsdiqləyir. Bu, rəsmi İrəvanın bəyanatları ilə real siyasi iradə arasındakı fərqləri qabardır və danışıqlar prosesində qeyri-müəyyənlik yaradır. Eyni zamanda, aksiyalarda iştirakçı sayının üç dəfəyə qədər şişirdilməsi ictimai rəyin manipulyasiya edildiyini göstərir.

"Qazprom Ermənistan" əməkdaşlarının aksiyalara məcburi cəlb edilməsi faktı isə Ermənistan iqtisadiyyatında və siyasətində xarici təsir rıçaqlarının nə dərəcədə həlledici olduğunu nümayiş etdirir.

**Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev**



bildirib ki, parlament seçkilərinə hazırlıq prosesi son mərhələyə daxil olaraq intensiv təbliğat kampaniyaları və artan xarici təsir iddiaları fonunda müşayiət olunur: "Proseslərin inkişaf dinamikası göstərir ki, həm mövcud iqtidar, həm də müxalifət qüvvələri bütün resurslarını səfərbər edərək həlledici mübarizəyə hazırlaşırlar. Lakin cəmiyyətdəki qeyri-müəyyənlik heç bir tərəfə mütləq qələbə zəmanəti vermir. Sorğularda respondentlərin 48 faizinin heç kimə etibar etməməsini bunun ən bariz nümunəsi hesab etmək olar.

Nəticə etibarilə, qeyd etmək olar ki, mübarizə son günə qədər gərgin keçəcək və seçkinin nəticələri ilə bağlı fors-major ssenarilərin reallaşması ehtimalı qalır. Digər tərəfdən, hakimiyyətin güclənən rəqiblərini neytrallaşdırmaq məqsədilə inzibati resurslardan fəal şəkildə istifadə edəcəyi və "Moldova ssenarisi"ni həyata keçirməyə çalışacağı istisna edilmir. Lakin bu addımın iqtidar üçün istənilən nəticəni verəcəyi ehtimalı azdır. Müxalifət qüvvələri bu ssenari barədə məlumatlıdır və hakimiyyətin belə bir addımına qarşı müvafiq hazırlıq gördüyü proqnozlaşdırılır".

Bütün bunları nəzərə alaraq, Azərbaycan üçün optimal yanaşma regionda sülh gündəliyini irəli apararkən, Ermənistan daxilindəki prosesləri mütəmadi monitorinq etmək və dəyişən reallıqlara qarşı çevik strategiya yürütməkdir. Ermənistanın daxili siyasi prosesləri artıq yalnız bu ölkənin daxili işi deyil, bütövlükdə, regionun təhlükəsizlik arxitekturasını formalaşdıran həlledici amilə çevrilib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Moldova postsovet məkanından necə uzaqlaşır?

*Kişineunun bu qərarı Avropanın təhlükəsizlik arxitekturasında yer alacaq*

**Müasir dünyada təhlükəsizlik anlayışı artıq siyasi sabitlik, informasiya mühiti və institusional dayanıqlılıq kimi elementləri özündə ehtiva edir. Avropanın şərqində baş verən proseslər göstərir ki, təhlükələr getdikcə daha mürəkkəb və çoxşaxəli xarakter alır. Belə olan halda, kiçik dövlətlərin rolu da dəyişir, onlar nəinki təsirə məruz qalır, həmçinin təsirləri analiz edən və qarşısını alan aktorlara çevrilirlər.**

Moldova məhz belə bir transformasiyanın mərkəzində dayanaraq öz təhlükəsizlik təcrübəsini daha geniş geosiyasi məkan üçün əhəmiyyətli model kimi təqdim etməyə çalışır. Təhlükəsizlik anlayışının Moldova üçün hər zaman əsas məsələlərdən biri olduğunu nəzərə alsaq, ölkənin həm də Aİ-ni daha təhlükəsiz edə biləcəyi barədə iddiaları təəccüb doğurmamalıdır. Moldovanın Avropaya inteqrasiya üzrə baş nazir müavini Kristina Qerasimov bildirib ki, ölkəsinin Aİ-yə inteqrasiyası çox vaxt Moldova üçün təhlükəsizlik zəmanəti kimi təsvir olunsa da, bu, eyni zamanda, qitənin öz təhlükəsizliyinə qoyduğu strateji sərmayədir.



Moldovanın Aİ ilə üzvlük danışıqları rəsmi olaraq 2 il öncə başlandı və Kişineu o vaxtdan etibarən öz gələcəyini Moskva orbitindən kənarda qurmaq istəyini açıq şəkildə bildirdi. Bu gün ölkə MDB-nin təsisatlarından tam çıxma prosesini rəsmiləşdirib. Sözügedən addım Kişineunun postsovet inteqrasiya modelindən qəti şəkildə uzaqlaşdığını göstərir. Sözsüz ki, cari siyasi kursun arxasında əsas amil Rusiya faktorudur. Çünki Moskva postsovet ölkələri üzərində öz təsir alətlərini müxtəlif formalarda saxlamağa çalışır. Məsələn, Dnestryanı bölgədə hələ də təxminən 1500 rus hərbçisi qalır ki, bu da Kişineunun suverenliyinin daim təzyiq altında saxlayan real təhlükə kimi qiymətləndirilir. Üstəlik, Rusiya ilə bağlı iddialar təkcə hərbi mövqe ilə məhdudlaşmır. Ötən il Prezident Maya Sandu bildirmişdi ki, Rusiyadan gələn qanunsuz maliyyələşmə və seçki korrupsiyası Moldova üçün əsas təhlükəyə çevrilib. Görünür, Kremlin Moldovaya yanaşması "yumşaq güc"dən çox, hibrid təzyiq məntiqinə əsaslanır.

Şübhəsiz, Kişineunun siyasi kursu məhz bu təhdidlərin fonunda formalaşıb. Moldova seçkiləri xarici müdaxilənin ən həssas nöqtəsi kimi görür. Seçki ərəfəsində səs alqı-satqısı, kiberhücumlar və dezinformasiya kampaniyaları barədə səslənən ittihamlar da bunu təsdiqləyir. Seçkilər Rusiya üçün ən asan giriş nöqtəsidir və məsələyə artıq milli təhlükəsizlik nöqteyi-nəzərindən yanaşılır. Diqqətçəkən başqa məqam odur ki, Moldova artıq özünü təcrübə ötürən aktor kimi təqdim edir. Prezidentin milli təhlükəsizlik müşaviri Stanislav Sekrierunun dediyi kimi, ölkə Rusiyanın hibrid təhdidlərinə qarşı "çətinliklə əldə edilmiş bilik və sınaqdan çıxmış həllər" toplayıb. Yəni Moldova açıq şəkildə bildirir ki, onun təcrübəsi Avropanın digər dövlətləri üçün faydalı ola bilər.

Moldovanın təhlükəsizlik gündəliyini həssas edən məqam Avropanın özündə də siyasi risklərin artmasıdır. Macarıstandakı seçkilərdən tutmuş Fransa, İtaliya, İspaniya və Polşadakı siyasi yarışlara qədər bir çox proseslərdə xarici təsir, populist dalğa və dezinformasiya ehtimalı müzakirə olunur. Təhlükəsizlik davamlı strategiya ilə dəstəklənməzsə, populist dalğanın güclənməsi qaçılmaz ola bilər. Bu isə regional təhlükəsizlik arxitekturasının dəyişməsi ilə nəticələnər. Maya Sandunun diplomatik fəallığı mövcud risklərin qarşısını almağa yönəlib. O, Avropa paytaxtlarında çıxış edərək Moldovanın inteqrasiyasının vacibliyini əsaslandırır. Lakin Kişineunun müraciətinin Kiyev ilə əlaqələndirilməsi və prosesin Viktor Orbanın mövqeyi səbəbindən ləngiməsi göstərir ki, Aİ-nin genişlənmə siyasəti həm də siyasi dilemmalarla müşayiət olunur.

Sandunun Latviya parlamentindəki çıxışı isə bu dilemmaların strateji mahiyyətini açıb. O bildirib ki, öz təhlükəsizliyinə ciddi yanaşan Avropa şərq qonşularına da ciddi yanaşmalıdır: "Bir tərəfdən Ukraynanı dəstəkləyib, digər tərəfdən demokratik ölkələri "boz zonalarda" saxlamaq olmaz. Və vətəndaşlarını parçalamağa çalışan qüvvələr barədə xəbərdarlıq edərkən onlar üçün sərhədlərindən kənarda hazır hədəflər buraxmaq düzgün deyil".

Çox güman Sandu bu çıxışı ilə həm də Aİ-yə xəbərdarlıq etmək istəyib. Çünki Kişineu öz təcrübəsi ilə sübut edir ki, təhlükəsizlik boşluqları gec-tez sistemin zəif nöqtəsinə çevrilir. Yəni Aİ genişlənmə məsələsindən daha çox, təhlükəsizlik arxitekturasının yenidən qurulması prosesinə fokuslanmalıdır.

Sonda bir məqamı da xatırladaq ki, enerji və iqtisadi asılılıq faktoru artıq təhlükəsizlik müstəvisinə keçir. Uzun illər Rusiya qazından asılı olan Moldova son dövrlər alternativ mənbələrə yönələrək bu asılılığı azaltmağa çalışır. Bununla Kişineu siyasi təzyiqlərin qarşısını almaq istəyir. Çünki enerji rıçaqları hibrid təsirin ən effektiv alətlərindən biri kimi istifadə olunur. Ona görə də Moldova iqtisadi təhlükəsizlik müstəvisində də müqavimət modeli formalaşdırmağa cəhd edir. Xülasə, rəsmi Kişineunun seçdiyi yol Avropa üçün daha geniş məna kəsb edir. Əgər "qoca qitə" bu siqnalları düzgün oxuyub qərarlarını buna uyğun formalaşdıra bilsə, Moldova kimi dövlətlər sərhəd bölgələri ilə yanaşı, təhlükəsizlik sisteminin aktiv dayaqlarına çevrilə bilər. Əks halda, "boz zonalar"ın genişlənməsi və onların geosiyasi qarşıdurmanın əsas meydanına çevrilməsi qaçılmaz olacaq.

***N.ELDARQIZI***
***XQ***

# TDT və yeni çağırışlar



## I MƏQALƏ

### TDT-nin sabahı

Dünya miqyasında geosiyasi dinamika və bütöv mənzərənin sürətlə dəyişməsi fonunda Türk Dövlətləri Təşkilatının (TDT) perspektivinin qiymətləndirilməsi daha da aktuallaşır. Dövlətlər üçün inkişafla təhlükəsizliyin təmini məsələsi daha incə və dərin faktorları nəzərə almağı tələb edir.

Bunlarla yanaşı, TDT-nin bir özəlliyi də vardır. Onu Azərbaycan Prezidenti İlham Əliyev dəqiq ifadə etmişdir. Dövlət başçısı demişdir: “Dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil. Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq”.

Türk Dövlətləri Təşkilatının etnik köklər üzərində yaranması mühüm müəyyənedici amildir. Bu elə tarixi, etnomədəni, təbii təməldir ki, bütün məsələlərdə üstünlüyü təmin etməyə meydan yaradır. Lakin siyasi və geosiyasi baxımdan bu təbii üstünlük potensialını real sinerjiyə təşkilat olaraq çevirmək üçün digər faktorları da nəzərə almaq lazımdır.

Prezident İlham Əliyev həmin faktorları da müəyyən etmişdir. Həmin anlamların konkret TDT üçün mənasını dərk etmək üçün müasir geosiyasətdə müşahidə edilən bir neçə ümumi nümunəyə baxaq.

### Qonşuluq geosiyasi amil kimi

Məlumdur ki, “qonşuluq” anlayışının müasir geosiyasi və siyasi təlimlərdə geniş semantik anlamı mövcuddur. Hətta dünyanın böyük geosiyasi gücləri “qonşuluğu” siyasi münasibətlərin əhəmiyyətli növü kimi konseptual səviyyədə xarici siyasət kurslarına daxil etmişlər. Məsələn, Avropa İttifaqının qonşuluq siyasəti.

Bu, konsepsiya səviyyəsində olan xüsusi bir yanaşmadır və siyasi nəzəriyyələrdə ayrıca termin kimi yerini tutmuşdur (ingiliscə: European Neighbourhood Policy; ENP). Aİ həmin siyasətin nəzəri izahını vermiş və məqsədlərini müəyyənləşdirmişdir.

Avropa Qonşuluq Siyasəti (AQŞ) Aİ-nin qonşu ölkələrlə münasibətlərini möhkəmləndirməsi məqsədilə yaradılmışdır. Yəni birincisi, bu siyasətdə özündə 27 ölkəni birləşdirən geniş bir təşkilat qonşu hesab etdiyi çoxlu sayda ölkələrin hər biri ilə təhlükəsizlik, rifah, dost ölkələr dairəsi, kommunikasiya sistemi, əməkdaşlıq sahələri yaratmağı nəzərdə tutur, ikincisi, bu məqsədə çatmaq üçün çoxlu sayda və əhatə dairəsi geniş olan faktorları vahid siyasi və geosiyasi məntiq müstəvisinə gətirməyə çalışır.

Təsadüfi deyildir ki, Aİ-nin qonşuluq siyasəti Şərqi Avropanı, Cənubi Qafqazı və Aralıq dənizi məkanını əhatə edir. Bu zaman Aİ həm də həmin qonşu saydığı ölkələrlə “siyasi-təşkilati” məsafə də saxlayır – onlara avtomatik olaraq təşkilata üzvlük vədi vermir! Digər xüsusiyyət ondan ibarətdir ki, Avropa İttifaqı qonşu kimi qiymətləndirdiyi hər bir ölkə ilə həmsərhəd deyildir, yəni onlara birbaşa “coğrafi çıxışı” yoxdur. Məsələn, Cənubi Qafqaz ölkələri Aİ ilə həmsərhəd deyillər. Bəs onda hansı anlamda Azərbaycan Aİ-nin qonşuluq siyasətinin subyekti ola bilər? Avropa İttifaqının “qonşuluq” anlayışının coğrafi-təbii sərhəd qonşuluğu ilə yanaşı, əməkdaşlıq, təhlükəsizlik, kommunikasiya və digər sferalar üzrə də yaxın münasibətlər qurmaq özəlliyini nəzərə aldığını görmək olar. Bu mənada, ümumiyyətlə, müasir siyasətdə və geosiyasətdə “qonşuluq” konkret məna çalarlarına malik olan və praktiki reallaşma aspektini özündə ehtiva edən məfhum kimi qəbul edilir.

Bu cür yanaşma həm əsaslıdır, həm də əhəmyyətlidir. Çünki həmin məntiqlə “praktiki alqoritmik” addımlarla çox geniş coğrafi məkanda əməkdaşlıq, təhlükəsizlik və qarşılıqlı faydalı qazanc verən əməkdaşlıq platforması yaratmaq mümkündür. Onu Avropa İttifaqı hansı uğurla həyata keçirir, bu, artıq başqa məsələdir. Prinsipcə, Aİ-nin yanaşması həm maraqlı, həm də perspektivli görünür.

Bunların fonunda başqa bir düşündürücü və aktual sual meydana gəlir: eyni etnik mənsubluğa malik və bir-biri ilə həmsərhəd olan ölkələrin qarşılıqlı fayda verə bilən qonşuluq siyasəti necə qurula bilər? Burada etnik “qardaşlıqla” dövlət və ölkə kimi coğrafi qonşu olmanın üstünlükləri mövcuddurmu? Bəlkə, müasir qlobal dünyanın reallıqları bu faktorları arxa plana atır və önə başqa amilləri çıxarır?

Bu suallara cavab axtarışları nümunələrindən biri kimi Tük Dövlətləri Təşkilatına baxaq.

### TDT-də qardaşlıq və qonşuluq

Türk dünyasında “qardaşlıq” adi ünsiyyətdə eyni etnik mənsubluğu, bir millətə mənsub olmanı ifadə edir. Qardaşlıq bu anlamda qədimdən mövcud olan birgəyaşam üsulunun bir aspekti olaraq formalaşmışdır. Türk tayfaları və xalqları tarixin müxtəlif dönəmlərində qardaşlığa kollektiv təsəvvürlərdə eyni anlamı vermişlər və onu yaddaşlarda bu günə qədər fərdi və ictimai səviyyədə möhkəmləndirmişlər. Lakin qardaşlığın ölkə və dövlət olaraq siyasi kontekstdə anlamı başqa məsələdir.

Burada artıq müstəqil dövlətləri olan türk xalqlarının ölkə və cəmiyyət kimi münasibətlərinin siyasi, hüquqi, geosiyasi, mənəvi-mədəni aspektləri ön sıraya çıxır. Bu o deməkdir ki, türklər sözün böyük mənasında cəmiyyət, ölkə və dövlət olaraq elə ortaq münasibətlər sistemi müəyyən etməlidirlər ki, etnik-mədəni “qardaşlıqla” ziddiyyət təşkil etməsin.

Etnik qardaşlıq anlamından siyasi və dövləti qardaşlıq anlamına uğurlu keçid etmək mürəkkəb məsələdir. Türk dövlətləri tarixində onun ilk uğurlu ölkələri Azərbaycan və Türkiyə oldu. Bunun ifadəsi isə Şuşa Bəyannaməsinin hər bir bəndində yer aldı.

Şuşa Bəyannaməsi, bizcə, ümumiyyətlə, müasir dünyada eyni etnik mənsubiyyəti olan iki dövlətin siyasi, geosiyasi və digər anlamlarda necə qardaş ola bilmələrinin klassik manifestidir. Azərbaycan və Türkiyə müstəqil dövlətlər kimi qarşılıqlı münasibətlərin bütün sferalarında sıx yaxınlaşma zərurətini vurğulamaqla yanaşı, bərabərhüquqluluq prinsipinə əməl etmək məsuliyyətini üzərlərinə götürdülər. Yəni çağdaş tarixdə Şuşa Bəyannaməsi etnik qardaşlığı tarixi-ünsiyyət kontekstindən siyasi münasibətlər kontekstinə transformasiya edən çox uğurlu sənəddir.

### Şuşa Bəyannaməsindən ümumtürk qardaşlığına

Şuşa Bəyannaməsinin məzmunu və məqsədi yalnız Türkiyə-Azərbaycan siyasi-hüquqi qardaşlığının manifesti çərçivəsində dərk edilməməlidir. Onun əsas üstünlüklərindən biri “bir millət, iki dövlət” kəlamını bütün Türk dünyası üçün siyasi-dövləti anlamda proyeksiya etməyə imkan verməsi ilə bağlıdır. Qarabağ Bəyannaməsi bunun əyani təsdiqidir.

2024-cü il iyulun 6-da Şuşada imzalanan həmin Bəyannamənin 2-ci bəndində yazılır: “Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyini bir daha vurğulayırlar”.

Beləliklə, rəsmi sənədlər əsasında türk dövlətləri münasibətlərini müasir beynəlxalq hüququn tələblərinə uyğun davamlı olaraq qurmaqdadırlar. Bu proses konkret proqramların uğurla həyata keçirilməsi ilə müşayiət olunur. Əgər TDT-də qardaşlığı bu cür dərk etsək, “qonşuluq” anlayışının da özünəxas anlamına baş vura bilrik.

TDT üzvlərinin coğrafi əraziləri bir-birini tamamlayır. Türkiyədən başlayaraq Azərbaycandan keçir və Mərkəzi Asiya dövlətlərinə qədər davam edir. Coğrafi bağlılıq həm də ölkə kimi onları bir-birinə bağlayır. Bu əhəmiyyətli xüsusiyyət türk dövlətlərini etnik-mədəni mənsubluq qədər təbii olan digər amillər üzərində birləşdirir – coğrafi ərazi, ölkə və dövlət kimi onlar bir-birilərini tamamlayırlar.

Bu özəllik türk xalqları, ölkələri və dövlətlərini həm də qonşular kimi xarakterizə etməyə imkan verir. Belə alınır ki, türk dövlətləri həm etnik-mədəni mənsubluğa görə eyni təmələ malikdirlər, həm də ölkə, cəmiyyət və dövlət olaraq qonşudurlar. Əgər etnik mənsubluq faktoru irqi baxımdan qardaşlıq yaradırsa, ölkə, dövlət və cəmiyyət kimi münasibətlərdə qonşuluq amilini də nəzər almağı tələb edir.

Digər tərəfdən, Avropa İttifaqında coğrafi qonşuluq aspektində özünü göstərən məqam türk ölkələrində də vardır. Belə ki, Türkiyə və ya Azərbaycan Özbəkistan və ya Qırğızıstanla həmsərhəd deyillər, burada, müəyyən mənada “coğrafi kəsintisizlik qırılmış”dır.

Hətta Türkiyə coğrafi olaraq birbaşa yalnız Azərbaycanla qonşudur. Mərkəzi Asiyanın heç bir ölkəsinin Türkiyə ilə nə quru, nə də su bağlantısı mövcud deyil. Bu özəllik türk dövlətlərinin qonşuluğuna xüsusi siyasi və geosiyasi anlam verir.

Bir müqayisə aparaq. Yuxarıdakı suallardan birini təkrar edək: Azərbaycanla Aİ qonşudurlarmı? Coğrafi olaraq qonşu deyillər, lakin siyasi və geosiyasi anlamda qonşudurlar. Bunun praktiki gerçəkləşməsi üsulu isə Avropa İttifaqı ilə Azərbaycanın müxtəlif platformalarda mehriban qonşu və etibarlı tərəfdaş olaraq münasibətlər qurması ola bilər.

Bu istiqamətdə prosesin getdiyi məlumdur. Ancaq burada aparıcı etnik-mədəni faktor deyildir, tərəflərə qarşılıqlı fayda verən və onları sülhə və əməkdaşlığa motivə edən müxtəlif sferalar üzrə layihələrdir. Burada enerji və nəqliyyat layihələrinin xüsusi birləşdirici rol oynadığını mütləq qeyd etmək gərəkdir. Deməli, Aİ-Azərbaycan qonşuluğunda infrastruktur diplomatiyası aparıcı rol oynayır.

Eyni mənzərə TDT üçün də mövcuddurmu? TDT-də yuxarıda vurğulanan faktorlar, əlbəttə, mehriban qonşuluğa xidmət edirlər. Onların kökündə etnik mənsubluq, dil, din və mədəniyyət ortaqlığı dayanır. Məhz bu anlamda Azərbaycan Prezidenti ilk faktor kimi eyni etnik mənsubluğu önə çəkmişdir. Yəni Azərbaycan dövlət başçısı irqi eyniliyi xüsusi vurğulamaq naminə deyil, həmin faktorun TDT üçün çox güclü qardaşlıq və mehriban qonşuluq perspektivi yaratdğını hər kəsin dərk etməsi üçün qeyd etmişdir.

Əlbəttə, Türk Dövlətləri Təşkilatının təməli möhkəmdir. Buna görə də onun davamlı olaraq inkişaf edəcəyinin böyük perspektivləri vardır. Azərbaycan Prezidentinin aşağıdakı fikirləri bu bağlılıqda çox əhəmiyyətlidir.

Dövlət başçısı vurğulamışdır: “Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik”.

Bu prosesin strateji hədəfi də dəqiq müəyyən edilmişdir – “Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır” (Azərbaycan Prezidenti İlham Əliyev).

Deməli, növbəti addımlar TDT-nin dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməsinə xidmət etməlidir! Bu isə, öz növbəsində, türk ölkələri arasındakı çox xoş və isti münasibətləri və vahid məqsədləri daha da aktuallaşdırır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Orban dövranının sonu

***Macarıstanda hakimiyyət dəyişikliyi və yeni siyasi başlanğıc***



**Avropanın siyasi səhnəsində baş verən dəyişikliklər bir ölkənin daxili seçkisindən daha böyük məna daşıyır. Macarıstanda 16 illik hakimiyyətin ardınca Viktor Orbanın məğlubiyyəti məhz belə hadisələrdəndir. Hakimiyyət dəyişikliyi Budapeştin siyasi kursunun dəyişməsindən əlavə, Avropa İttifaqı (Aİ) daxilində qüvvələr balansının yenidən qurulması, Rusiyanın təsir imkanlarının zəifləməsi, Ukraynanın diplomatik manevr sahəsinin genişlənməsi və ABŞ-la transatlantik münasibətlərin yeni mərhələyə keçməsi anlamına gəlir. Hakimiyyətə gələn Peter Magyar isə Macarıstanın son illərdə formalaşmış siyasi trayektoriyasını dəyişmək niyyətini açıq şəkildə ortaya qoymuşdu.**

Orbanın qurduğu sistem bəzi məqamlarda həm daxildə, həm də xaricdə mübahisəli idi. O, Brüssellə açıq qarşıdurma xətti yürüdərək, Aİ-nin vahid qərar mexanizmlərini tez-tez bloklayır, xüsusilə Ukraynaya dəstək məsələsində fərqli mövqe sərgiləyirdi. Onun siyasi xətti Macarıstanı Moskva ilə xeyli yaxınlaşdırmışdı. Amma həmin yaxınlıq təkcə ritorik səviyyədə deyildi. Enerji asılılığı, siyasi koordinasiya və bəzi hallarda Avropa daxilində qərarların ləngidilməsi Kremlin maraqlarına xidmət edən mühüm alətlərə çevrilmişdi. Belə olan halda onun hakimiyyətdən getməsi Rusiya üçün bir növ strateji itki kimi qiymətləndirilə bilər. Bu təqdirdə Aİ daxilində Ukraynaya dəstək mexanizmləri daha az müqavimətlə qarşılaşacaq. Çünki Orbanın veto siyasəti bir çox hallarda qərarların gecikməsinə səbəb olurdu. İndi bu maneənin aradan qalxması Aİ-nin daha operativ və koordinasiyalı davranmasına imkan yaradır.

Dəyişiklik Ukrayna üçün xüsusi əhəmiyyət kəsb edir. Macarıstanın əvvəlki mövqeyi Ukraynada ciddi problemlər yaradırdı, xüsusilə maliyyə paketləri və sanksiyalar məsələsində Budapeştin tərəddüdləri Kiyevin strateji planlamasına mənfi təsir göstərirdi. Yeni hökumətin bu məsələlərdə daha çevik davranacağı gözlənilir. Lakin məsələnin bir “əmması” var. Magyar açıq şəkildə bildirib ki, o, Ukraynaya birbaşa hərbi və maliyyə dəstəyinə ehtiyatla yanaşır və sözügedən məsələləri daxili ictimai rəyə uyğun şəkildə həll etmək istəyir. Belə olan halda, Macarıstan siyasətində daha çox balans axtarışı müşahidə oluna bilər. Yəni Budapeşt Brüssellə münasibətləri yaxşılaşdırsa da, daxili elektoratın gözləntilərini nəzərə alaraq Ukrayna məsələsində ehtiyatlı xətt saxlayacaq.

ABŞ-la münasibətlər kontekstində isə vəziyyət daha mürəkkəbdir. Orban uzun müddət Vaşinqtonda müəyyən siyasi dairələr üçün ideoloji müttəfiq sayılırdı. Xüsusilə Donald Tramp və onun ətrafı Orban modelini Avropa daxilində alternativ siyasi xətt kimi təqdim edirdi. Ceyms Devid Vens kimi fiqurların seçki ərəfəsində Budapeştə səfəri bunu təsdiqləyirdi. Lakin seçki nəticəsi göstərdi ki, xarici siyasi dəstək daxili ictimai rəyi dəyişmək üçün kifayət deyil. Əslində, bu situasiya ABŞ üçün, müəyyən mənada, strateji siqnal kimi də dəyərləndirilir.

Bu praqmatizm transatlantik münasibətlərdə müəyyən sabitlik yarada bilər. Çünki Orban dövründə Brüssel və Vaşinqton arasında Macarıstan faktoru tez-tez gərginlik yaradırdı. İndi isə bu gərginliyin azalması ehtimalı artır. Lakin bu, avtomatik olaraq tam harmoniyanın yaranacağı anlamına gəlmir. Ehtimal olunur ki, Magyarın siyasəti daha çox milli maraqlar üzərində qurulacaq və o, böyük güclər arasında balans saxlamağa çalışacaq. Rusiyaya təsir məsələsində isə dəyişiklik daha aydın görünür. Kreml üçün Aİ daxilində alternativ mövqelərin olması strateji üstünlük idi. Orban bu üstünlüyün əsas elementlərindən biri idi. Onun yoxluğu Moskvanın Avropa daxilində təsir imkanlarını zəiflədir. Bu, xüsusilə sanksiyalar siyasətində özünü göstərə bilər. Çünki əvvəlki kimi veto riskləri azalır.

Bununla belə, Rusiyanın regiondakı təsiri tamamilə aradan qalxmır. Enerji, iqtisadi əlaqələr və informasiya təsiri kimi alətlər hələ də mövcuddur. Lakin Macarıstanın siyasi kursunun dəyişməsi bu təsirin institusional səviyyədə zəifləməsinə gətirib çıxara bilər. Seçkinin ən maraqlı tərəflərindən biri də onun ideoloji aspektidir. Orban Avropada sağ-populist dalğanın simvollarından biri idi. Onun məğlubiyyəti bu dalğanın artıq dəyişdiyini nümayiş etdirir. Çünki Avropa seçicisi daha mürəkkəb seçimlər edir və konkret nəticələrlə qərar verir. Magyarın qələbəsi də məhz bu kontekstdə qiymətləndirilməlidir. O, həm də sistemin transformasiyası vədi ilə ortaya çıxıb. Onun qarşısında duran əsas vəzifə isə gözləntiləri doğrultmaqdır. Böyük siyasi dəyişikliklər böyük risklər yaradır.

Macarıstan indi yeni mərhələyə qədəm qoyur. O, Avropanın siyasi arxitekturasına, Rusiyanın regional strategiyasına, Ukraynanın mübarizə imkanlarına və ABŞ–Avropa münasibətlərinə təsir edən kompleks proseslərin başlanğıcıdır. Viktor Orbanın gedişi, eyni zamanda, yeni suallar doğurur. Bu sualların cavabı Brüsseldə, Vaşinqtonda və Kiyevdə veriləcək. Cavablar formalaşdıqca, Macarıstan seçkisinin əsl miqyası daha aydın görünəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı**

Macarıstanda baş vermiş siyasi dəyişikliklər ölkənin daxili idarəetmə modelində transformasiya ilə yanaşı, onun xarici siyasət prioritetlərinin də yenidən müəyyənləşdirilməsi prosesini şərtləndirir. Uzun müddət hakimiyyətdə olmuş Viktor Orban dövründə formalaşmış siyasi kurs milli suverenliyin ön plana çəkilməsi, çoxvektorlu xarici siyasət və Qərb institutları ilə münasibətlərdə selektiv əməkdaşlıq prinsiplərinə əsaslanırdı. Hakimiyyətə gələn Peter Magyar isə daha çox Avropa strukturları ilə münasibətlərin normallaşdırılması, institusional islahatların aparılması və siyasi dialoqun genişləndirilməsi xəttini təklif edir. Bununla belə, mövcud reallıq göstərir ki, bu dəyişiklik kəskin ideoloji dönüşdən daha çox, siyasi kursun balanslaşdırılması və yeni şərtlərə uyğunlaşdırılması xarakteri daşıyacaq.

Azərbaycanla münasibətlər kontekstində isə əsas tendensiya davamlılıq və praqmatizm üzərində qurulacaq. Azərbaycan ilə Macarıstan arasında son illərdə formalaşmış əməkdaşlıq konkret iqtisadi və enerji maraqları ilə şərtlənir. Avropanın enerji təhlükəsizliyi məsələsi fonunda Azərbaycanın qaz resursları və nəqliyyat imkanları Macarıstan üçün əhəmiyyətini qoruyur. Bu səbəbdən, hakimiyyət dəyişikliyinə baxmayaraq, enerji sahəsində əməkdaşlığın davam edəcəyi və hətta müəyyən hallarda daha institusional çərçivəyə salınacağı gözlənilir.

Türk Dövlətləri Təşkilatı ilə münasibətlər məsələsində isə müəyyən korrektələrin baş verməsi ehtimalı yüksəkdir. Orban dövründə Macarıstan bu təşkilatda müşahidəçi kimi fəal iştirak edir, Türk dünyası ilə siyasi-mədəni yaxınlaşmanı xarici siyasətin prioritetlərindən biri kimi təqdim edirdi. Yeni hakimiyyətin siyasi xəttində Aİ inteqrasiyasına yönəlməsi bu istiqamətin nisbi şəkildə ikinci plana keçməsinə səbəb ola bilər. Bununla belə, Macarıstanın Mərkəzi Avropada alternativ diplomatik platformalara çıxış imkanlarını qorumaq marağı nəzərə alınarsa, bu əlaqələrin tam zəifləməsi də real görünmür. Proses çərçivəsində Budapeşt Aİ ilə münasibətlərini normallaşdırmağa, eyni zamanda, əvvəlki dövrdə qurulmuş alternativ tərəfdaşlıqları, o cümlədən Azərbaycan və Türk dünyası ilə əlaqələri praqmatik əsaslarla qorumağa çalışacaq. Azərbaycan üçün isə əsas vəzifə yeni şəraitdə mövcud əməkdaşlıq platformalarını saxlayaraq onları daha funksional və qarşılıqlı maraqlara uyğun şəkildə inkişaf etdirməkdən ibarət olacaq.

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Macarıstanda Viktor Orbanın məğlubiyyətini qəbul etməsi və yeni siyasi xəttin Peter Magyar rəhbərliyində formalaşması Aİ-nin ümumi kursuna təsiri çoxqatlı olacaq, - deyə bilərik. İlk növbədə, Aİ daxilində siyasi kurs baxımından ehtimal olunan dəyişiklik konsensusyönümlü inteqrasiya xəttinin güclənməsi ola bilər. Orban dövründə Macarıstan tez-tez Brüsselə hüququn aliliyi, miqrasiya siyasəti, Ukrayna müharibəsinə baxış və sanksiyalar məsələsində qarşıdurma yaradırdı. Yeni administrasiyanın bu yöndə Aİ-nin ümumi maraqlarına daha loyal mövqe sərgiləməsi Aİ-də qərar qəbuletmə proseslərini müəyyən qədər asanlaşdıra bilər. Bu isə Aİ-nin xarici siyasətində daha vahid və koordinasiyalı davranışa şərait yarada bilər. Xüsusilə də Rusiya-Ukrayna müharibəsi fonunda Aİ-nin təhlükəsizlik və müdafiə siyasətində daha sərt və koordinasiyalı xəttin formalaşması ehtimalı artır.

Peter Magyar rəhbərliyində Azərbaycan–Macarıstan münasibətlərinə gəldikdə isə hakimiyyət dəyişikliyi bu münasibətlərə daha çox dolayı və struktur xarakterli təsirlər göstərə bilər. Çünki Macarıstanın xarici siyasəti əsasən Aİ çərçivəsində formalaşsa da, Budapeştin son illərdə Azərbaycana qarşı xüsusi praqmatik və fərqli mövqeyi olub. İlk növbədə, qeyd etmək lazımdır ki, Orban dövründə Macarıstan Azərbaycanla münasibətlərdə Aİ daxilində ən praqmatik və müstəqil xətt yürüdən ölkələrdən biri idi. Enerji, investisiya və siyasi dialoq sahəsində Budapeşt Bakı ilə münasibətləri genişləndirməyə açıq idi. Xüsusilə enerji təhlükəsizliyi məsələsində Azərbaycan qazına maraq Macarıstanın balanslı xarici siyasətinin mühüm hissəsinə çevrilmişdi. Bu səbəbdən iki ölkə arasında siyasi münasibətlər sabit və funksional xarakter daşıyırdı. Yeni siyasi rəhbərlik dövründə Macarıstan Aİ-nin ümumi xarici siyasətinə daha sıx inteqrasiya olunarsa, Budapeştin müstəqil diplomatik manevr imkanları bir qədər azala bilər. Bu isə Azərbaycanla münasibətlərin daha çox Aİ-nin ümumi çərçivəsinə uyğunlaşdırılması demək ola bilər. Bununla belə, Azərbaycan–Macarıstan münasibətlərinin tamamilə dəyişməsi real görünmür. Bunun əsas səbəbi münasibətlərin ideoloji deyil, praqmatik iqtisadi və enerji maraqlarına söykənməsidir.

# Azərbaycanda startap ekosisteminin hədəfləri

**Azərbaycanda innovasiya və startap mühitinin inkişafı istiqamətində mühüm addımlardan biri kimi bu il "PitchBook" məlumat bazasına çıxışın təmin olunması nəzərdə tutulur. Bu təşəbbüs ölkənin qlobal innovasiya ekosisteminə inteqrasiyasını sürətləndirəcək və yerli startapların beynəlxalq investorlar üçün daha əlçatan olmasına şərait yaradacaq.**




Bir neçə gün öncə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev startap nümayəndələri ilə görüş keçirərək mövcud dəstək mexanizmlərini və gələcək imkanları müzakirə edib. Məclisdə xüsusilə vurğulanıb ki, ölkənin innovasiya ekosistemində həyata keçirilən bütün vençur sövdələşmələrinin vahid məlumat bazası ilə əlaqələndirilməsi istiqamətində sistemli işlər aparılacaq.

*Ekspert rəyi*



**Fərid KAZIMOV,**
**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şuranın üzvü**

"PitchBook" haqqında qeyd etmək istərdim ki, Azərbaycanın bu sistemə qoşulması ölkəmizin qlobal startap və innovasiya ekosisteminə inteqrasiyası baxımından mühüm addımdır. Çünki "PitchBook" özlüyündə nüfuzlu və etibarlı məlumat platforması kimi tanınır.

Bu platformada, təxminən, 10 milyondan artıq startap qeydiyyatdan keçib. Eyni zamanda, burada 150 mindən çox investisiya və vençur fondları, eləcə də müxtəlif formatlı investor şəbəkələri mövcuddur. Bundan əlavə, 600 mindən çox investor, o cümlədən mələk investorlar da platformada təmsil olunur. Platformada 100 mindən artıq startap üzrə investisiya müqavilələrinin izlənilməsi mümkündür. Bəs bu sistem Azərbaycan startaplarına nə vəd edir?

İlk növbədə, yerli startaplar qlobal ekosistemə inteqrasiya imkanı qazanır. Onlar üçün bir növ "rəqəmsal pasport" formalaşır. Bu isə o deməkdir ki, hər hansı investor – istər yerli, istərsə də xarici – startap haqqında məlumatı daha şəffaf şəkildə əldə edə bilir və bu da etimadı artırır.

İkinci mühüm məqam isə odur ki, bu platforma Azərbaycan startaplarının vençur fondlarına çıxışını xeyli asanlaşdırır. Startaplar artıq ekosistemin aktiv iştirakçısına çevrilir və müxtəlif investisiya qurumlarına müraciət prosesi daha sistemli və effektiv şəkildə həyata keçirilir. Bununla yanaşı, startaplar öz fəaliyyət istiqamətləri üzrə qlobal trendləri izləyə, digər layihələri təhlil edə bilirlər. Məsələn, "fintech", "edtech", "proptech" kimi sahələrdə fəaliyyət göstərən startaplar bazardakı yenilikləri daha yaxından öyrənmək imkanı əldə edir. Bu isə onların inkişafına ciddi təkan verir.

Ümumilikdə, bu addım Azərbaycanın startap ekosisteminin qlobal inteqrasiyası istiqamətində atılan mühüm mərhələdir. Bu kontekstdə "AngelList" kimi beynəlxalq platformaları da qeyd etmək olar. Bu platformalar müxtəlif ölkələrdən olan startapları bir araya gətirərək onların qlobal bazarlara çıxışını təmin edir. Azərbaycanın da bu cür platformalarda təmsil olunması müsbət haldır.

Ölkə daxilində də müəyyən təşəbbüslər mövcuddur. Məsələn, Startup Azerbaijan kimi platformalar yerli startapların inkişafına dəstək verir. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycanın startap ekosistemində maliyyə resursları məhduddur. Bu səbəbdən qlobal platformalara inteqrasiya daha böyük əhəmiyyət kəsb edir. Son illərdə ölkədə startap ekosistemində nəzərəçarpacaq dəyişikliklər baş verib. Artıq bir çox universitetlərdə inkubasiya mərkəzləri fəaliyyət göstərir, gənclər innovativ təşəbbüslərə daha çox maraq göstərirlər. Xüsusilə, süni zəka sahəsində baş verən inkişaflar startapların yaradılmasını daha da asanlaşdırıb. Müasir dövrdə kiçik komandalar – hətta 2-3 nəfərdən ibarət qruplar belə – qlobal bazara çıxmaq potensialına malik layihələr yarada bilir.

Bu yaxınlarda cəmi 2 nəfərdən ibarət komanda tərəfindən qurulan və 1,8 milyard dollar dəyərində qiymətləndirilən startap haqqında yayılan məlumatlar da bunu təsdiqləyir. Bu, artıq texnologiyanın yeni mərhələyə keçdiyini göstərir.

Beləliklə, müasir alətlərdən düzgün istifadə edən hər bir şəxs və ya kiçik komanda qlobal səviyyədə rəqabət apara biləcək startap yarada bilər. Bu isə, ümumilikdə, startap mühitində ciddi transformasiyanın baş verdiyini göstərir.

Bu yanaşma Azərbaycanda startap mühitinin daha şəffaf, ölçülə bilən və investorlar üçün cəlbedici hala gətirilməsinə xidmət edir. Belə ki, yerli startapların fəaliyyəti, əldə etdikləri investisiyalar və inkişaf mərhələləri barədə məlumatların beynəlxalq platformalarda yer alması onların qlobal səviyyədə tanınmasını təmin edəcək.

Ümumiyyətlə, startapların Azərbaycanda davamlı şəkildə təşəkkül tapması, böyüməsi və 1–3 milyard dollar həcmində ixrac göstəricilərinə çatması üçün mərhələli və sistemli inkişaf trayektoriyası zəruridir. Son on beş ildə bu istiqamətdə əhəmiyyətli addımlar atılıb, dövlət və özəl sektor tərəfindən müxtəlif təşəbbüslər irəli sürülüb. Bununla belə, mövcud mənzərə göstərir ki, qarşıda hələ geniş inkişaf sahəsi mövcuddur və bu yolu keçmək üçün bir sıra əsas çətinliklərin aradan qaldırılması vacibdir.

Əsas məhdudiyyətlərdən biri bilik və bacarıqların yetərli səviyyədə formalaşmamasıdır. Azərbaycanda sahibkarlıq üzrə fundamental biliklər hələ geniş yayılmayıb. Startap yaratmaq istəyənlər, yaşından asılı olmayaraq, tamamilə yeni mühit və fərqli tələblərlə üzləşir, bu isə onların adaptasiyasını çətinləşdirir.

Azərbaycanın rəqəmsal arxitektura planı startap ekosistemini iqtisadi siyasətin mərkəzinə yerləşdirməlidir. Dövlət-özəl vençur fondlarının yaradılması, investorlar üçün vergi təşviqləri, Dövlət satınalmalarında startap kvotaları, regional innovasiya mərkəzləri həyata keçirilsə, 12 milyon manatlıq məhdud bazar qısa müddətdə çoxqatlı investisiya ekosisteminə çevrilə bilər.

Bununla belə, mövcud ekosistemin inkişaf tempi hələ istənilən səviyyəyə çatmayıb. Müqayisə üçün bəzi region ölkələrinə nəzər saldıqda, məsələn, Özbəkistan startap sahəsinə daha böyük maliyyə vəsaitləri yönəldir və nəticədə, texnologiya ixracı artıq 1 milyard dollar həddini keçib. Bu fakt bir daha göstərir ki, dövlət dəstəyi və maliyyə investisiyaları həlledici rol oynayır.

Maliyyə məsələsinə gəldikdə isə, yalnız kapitalın mövcudluğu kifayət etmir. Əsas məqsəd investisiya cəlb etmək qabiliyyətinə malik, qlobal bazarda rəqabət aparacaq layihələrin sayını artırmaqdır. Hazırda fəaliyyət göstərən vençur fondları belə, maliyyələşdirmək üçün keyfiyyətli layihələr axtarışındadır. Əgər ölkədə bir neçə uğurlu startap nümunəsi formalaşsa və uğurlu "exit"lər baş versə, bu, böyük investorların diqqətini cəlb edəcək. Çünki investor üçün əsas meyar gəlir perspektividir və kapital həmişə riskin daha aşağı, qazanc imkanlarının isə daha yüksək olduğu mühitlərə yönəlir.

*Nurlan ABDALOV*
*XQ*

# Özbəkistanla enerji əməkdaşlığı müzakirələri



**Özbəkistanda səfərdə olan Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti Arzu Cavadova "Özbəkneftqaz" ASC İdarə Heyətinin sədri Abdugani Sanginov ilə görüşüb. Söhbət zamanı Azərbaycan–Özbəkistan strateji tərəfdaşlığına uyğun olaraq şirkətlər arasında ikitərəfli əməkdaşlığın dinamik inkişafından məmnunluq ifadə olunub.**

Tərəflər əlaqələrin cari vəziyyətinə və inkişaf perspektivlərinə dair müzakirələr aparıblar. "Üstyurt" kəşfiyyat sahəsində geoloji kəşfiyyat üzrə birgə layihənin icrası istiqamətində görülən işlər nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edilib ki, öncəki görüşdən etibarən əməkdaşlıq ardıcıl şəkildə inkişaf edir və mühüm nəticələr əldə olunub. Xüsusilə, birgə fəaliyyət haqqında saziş imzalanıb, həmçinin onun həyata keçirilməsi üçün bütün zəruri korporativ təsdiqlər alınıb. Danışıqların yekunlarına əsasən, tərəflər əməkdaşlığın daha da möhkəmləndirilməsinə və mövcud layihələr çərçivəsində qarşılıqlı fəaliyyətin davam etdirilməsinə hazır olduqlarını təsdiqləyiblər.

Xatırladaq ki, 2024-cü ilin avqust ayında "Özbəkneftqaz" və SOCAR karbohidrogen sənayesində əməkdaşlıq barədə saziş imzalayıblar. Bu sənədlə geoloji tədqiqatlara, o cümlədən seysmik kəşfiyyata və Üstyurt yaylasında karbohidrogen hasilatına hazırlıq işlərinə start verilib.

Bundan əlavə, ötən il iyulun 24-də tərəflər məhsulun pay bölgüsü haqqında saziş bağlayıblar. Həmin saziş yaxın 25 il ərzində Özbəkistanın daxili neft tələbatının tam təmin olunmasını nəzərdə tutur. Saziş çərçivəsində hasil ediləcək qaz ölkənin daxili bazarına yönəldiləcək, sənayenin əlçatan və keyfiyyətli neft məhsulları ilə təminatına imkan yaradılacaq.

*XQ*

# Dünya Bankı Xəzərin biomüxtəlifliyini himayə edir



**Dünya Bankı "Xəzər dənizinin ekosisteminin bərpası: çirklənmənin idarə olunması və bioloji müxtəlifliyin qorunması sahəsində potensialın yaradılması" genişmiqyaslı ekoloji təşəbbüsünün maliyyələşdirilməsini təsdiqləyib. Qurumdan verilən məlumata əsasən, Azərbaycan və Mərkəzi Asiyanın iki ölkəsinin iştirakı ilə həyata keçiriləcək layihə Xəzər dənizində çirklənmə ilə mübarizə və bioloji müxtəlifliyin qorunması sahəsində regional əməkdaşlığın gücləndirilməsinə yönəlib.**

Qlobal Ekoloji Fond icraedici qurumlar qismində Dünya Bankına və BMT-nin Ətraf Mühit Proqramına 11 milyard 740 milyon ABŞ dolları həcmində qrant ayırır. Vəsaitlər Azərbaycan, Qazaxıstan və Türkmənistanda layihənin həyata keçirilməsini təmin edəcək.

Dünya Bankı, həmçinin 8 milyard 240 milyon dollar dəyərində ayrıca layihəni Direktorlar Şurasının müzakirəsinə çıxarmağı planlaşdırır. Sözügedən layihənin icraedici agenti qismində isə BMT-nin Layihə Xidmətləri İdarəsi çıxış edəcək. Bundan əlavə, layihənin hazırlanması məqsədilə BMT-nin Layihə Xidmətləri Ofisinə 183 min dollar həcmində qrant ayrılacaq. Həmin vəsait isə ekoloji və sosial qoruyucu mexanizmlərin hazırlanması, eləcə də iştirakçı ölkələr arasında qarşılıqlı fəaliyyətin koordinasiyanın gücləndirilməsi üçün istifadə olunacaq.

Qeyd edək ki, təşəbbüsün əsas məqsədi Azərbaycan, Qazaxıstan və Türkmənistanın institusional potensialını gücləndirməklə region ölkələrinə çirklənmənin idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi və bioloji müxtəlifliyin qorunması tədbirlərinin genişləndirilməsi istiqamətində dəstək verməkdir. Layihə, həmçinin dövlətlərin Tehran Konvensiyası və onunla əlaqəli protokollar üzrə öhdəliklərinin icrasına yönəlmiş mövcud səyləri tamamlayır.

Layihənin strukturu üç əsas komponentdən ibarətdir. Maliyyələşdirmə çərçivəsində çirklənmənin idarə olunmasına, eləcə də xüsusi mühafizə olunan təbiət əraziləri sisteminin inkişafı istiqamətlərinin hər birinə müvafiq olaraq nin 3,9 milyon dollar, layihənin idarə olunmasına isə 443,12 min dollar vəsaitin ayrılması nəzərdə tutulur.

Yeri gəlmişkən, dünyanın ən böyük qapalı su hövzəsi olan Xəzər dənizi yüksək endemikliyə malik unikal ekosistemdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Xəzər dənizi hövzəsində, çaylar da daxil olmaqla, 153 balıq növü var ki, bunların 81-i endemikdir. Eyni zamanda, dünyadakı nərə balıqları ehtiyatının 80 faizi burada cəmləşib. Xəzər suitisi isə dənizin yeganə məməli növüdür.

Son illər bu nadir su hövzəsinin bioloji müxtəlifliyi çoxsaylı təhdidlərlə üz-üzə qalıb. Belə ki, iqlim dəyişikliyi ilə əlaqədar suyun azalması dəniz səviyyəsinin enməsinə səbə olub ki, bu da ekosistemi dayanıqsız edir. Xəzərin biomüxtəlifliyinə ən böyük təhlükə isə sənaye və tullantı suları və neftlə çirklənmə səbəbindən yaranıb. Bununla yanaşı, nərə balıqlarının qanunsuz ovu səbəbindən ehtiyatlar kəskin azalıb. Yeri gəlmişkən, hazırda nərəkimilərin ehtiyatı kəskin şəkildə azaldığı üçün onların sənaye ovu qadağan edilib və ehtiyatlarının bərpası üçün tədbirlər görülür…

*Ekspert rəyi*



**Rövşən ABBASOV,**
**coğrafiya üzrə fəlsəfə doktoru**

Məlum olduğu kimi, Xəzər dənizi artıq uzun onilliklərdir ki, ciddi ekoloji problemlərlə üz-üzədir. Bu vəziyyətin əsas səbəblərindən biri Xəzər hövzəsində yerləşən ölkələr tərəfindən dənizə axıdılan çirkab və sənaye sularıdır. Bu istiqamətdə müxtəlif statistik göstəricilər mövcuddur.

Mövcud rəqəmlər və aparılan müasir tədqiqatlar göstərir ki, Xəzər dənizi kifayət qədər çirklənmiş su hövzəsidir. Bu hal isə birbaşa və dolayı yollarla biomüxtəlifliyə mənfi təsir göstərir. Bununla yanaşı, dənizin müəyyən ərazilərində aparılan həddindən artıq balıq ovu da biomüxtəlifliyin azalmasına ciddi təsir edən amillərdəndir.

Qeyd olunan layihənin əsas iki istiqaməti mövcuddur: Xəzər dənizində çirklənmənin azaldılması və biomüxtəlifliyin qorunması. Çirklənmənin azaldılması məqsədilə monitorinq sisteminin gücləndirilməsi nəzərdə tutulur. Bu çərçivədə sahil zonalarından dənizə daxil olan çirkləndirici axınların qarşısının alınması, onların müvafiq sutəmizləyici qurğulara yönləndirilməsi planlaşdırılır.

Azərbaycanda bu problemin daha çox Abşeron yarımadası ilə bağlı olduğu nəzərə alınaraq əsas tədbirlər də məhz sözügedən istiqamətdə həyata keçiriləcək. Eyni zamanda, Bakı şəhərində tullantı sularının idarə olunması ilə bağlı xüsusi Dövlət Proqramı icra olunur.

Tullantı, yağış və digər axıntı sularının düzgün idarə olunması bu prosesin mühüm tərkib hissəsidir. Biomüxtəlifliyin qorunmasına gəldikdə isə, Azərbaycan, Qazaxıstan və Türkmənistanda hər ölkə üzrə bir olmaqla üç dəniz qorunan ərazisinin yaradılması planlaşdırılır. Bu təşəbbüs həmin ölkələr üçün ilk dəniz qorunan ərazilərinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Bu məqsədlə Azərbaycanda Abşeron Milli Parkının ərazisinin genişləndirilməsi nəzərdə tutulur. Ümumilikdə isə, layihənin həyata keçirilməsi Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşacağına, çirklənmənin azalacağına və biomüxtəlifliyin qorunmasına mühüm töhfə veriləcəyi gözlənilir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

## 3 ayda neft – 6,6 milyon ton, qaz – 12,6 milyard kubmetr

**Energetika Nazirliyinin yaydığı operativ məlumatlarına əsasən, 2026-cı ilin yanvar-mart ayları üzrə ölkəmizdə 6,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Bunun 3,9 milyon tonu "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun, 0,9 milyon tonu "Şahdəniz" və 0,1 milyon tonu "Abşeron" yataqlarının payına düşüb. Hesabat dövründə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) üzrə neft (kondensatla birlikdə) hasilatı isə 1,7 milyon ton təşkil edib.**



Cari ilin yanvar–mart aylarında ölkə üzrə xam neft hasilatı orta hesabla gündəlik 61 min ton (450 min barrel), kondensat hasilatı 13 min ton (105 min barrel) təşkil edib. Ümumilikdə isə, neft hasilatı orta hesabla gündəlik 74 min ton (555 min barrel) olub. Xam neft və kondensatın 5,2 milyon tonu ixraca yönəldilib. Bunun isə 4,8 milyon tonu konsorsiumların, 0,3 milyon tonu SOCAR-ın, 0,1 milyon tonu isə JOCAP-ın payına düşüb. Maye karbohidrogenlərin yerdə qalan 1,4 milyon tonu Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda emal olunub.

2026-cı ilin yanvar-mart aylarında ölkədə 12,6 milyard kubmetr təbii qaz hasil edilib. Hasil edilmiş qazın 3,5 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 6,9 milyard kubmetri "Şahdəniz"in, 0,4 milyard kubmetri "Abşeron" yatağının, 1,8 milyard kubmetri isə SOCAR-ın payına düşüb. Bu dövrdə xaricə qaz ixracı 6,5 milyard kubmetr təşkil edib. Bunun 3 milyard kubmetri Avropanın, 2,4 milyard kubmetri Türkiyənin (o cümlədən TANAP-la 1,5 milyard kubmetr), 0,8 milyard kubmetri Gürcüstanın, 0,3 milyard kubmetri isə Suriyanın payına düşüb.

Bütövlükdə isə, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 2026-cı il aprelin 1-dək 675 milyon tona yaxın neft (qaz kondensatı ilə birlikdə), 519 milyard kubmetr qaz hasil edilib. Ötən müddətdə "Azəri-Çıraq-Günəşli"dən 621,7 milyon ton neft, 247,4 milyard kubmetr qaz, "Şahdəniz"dən isə 53,3 milyon tona yaxın kondensat və 271,6 milyard kubmetr qaz çıxarılıb. Bu dövrdə 673 milyon ton neft və 196,5 milyard kubmetr qaz ixraca nəql edilib.

## Ermənistana növbəti enerji nəqli

**Aprelin 11-də Azərbaycandan Ermənistana dizel yanacağı göndərilib. Enerji tranzitinin həcmi isə 15 vaqon (887 ton) dizel yanacağı təşkil edib.**



Xatırladaq ki, ötən il dekabrın 18-də Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Ermənistana 1 220 ton Aİ-95 markalı avtomobil benzini göndərib. 9 yanvar 2026-cı ildə Ermənistana, ümumilikdə, 2 min 698 ton yük (48 vaqon), o cümlədən 1 742 ton Aİ-95 markalı benzin və 956 ton dizel yanacağı yola salınıb. Yanvarın 11-də isə bu ölkəyə 979 ton Aİ-92 markalı avtomobil benzini ilə yüklənmiş 18 vaqondan ibarət qatar göndərilib.

Fevralın 25-də isə Azərbaycandan Ermənistana 4,5 min ton, martın 5-də 1 984 ton dizel yanacağı aparan 31 vaqon və 135 ton Rusiya gübrəsi yüklənmiş 2 vaqon, martın 9-da 7 vaqon Rusiya taxılı, martın 11-də isə 11 vaqon taxıl göndərilib.

## "Ümid–Babək" yatağının ikinci həyatı

**"Neptun" özüqalxan qazma qurğusu Xəzər dənizinin Azərbaycan sektorundakı "Ümid" qaz-kondensat yatağında fəaliyyətini 2027-ci ilin sonunadək davam etdirəcək. Bununla bağlı "Umid Babek Operation Company" (UBOC) əməliyyat şirkəti ilə "Caspian Oilfield Service"(COS) arasında sənəd imzalanıb.**




UBOC əməliyyat şirkətindən verilən məlumata görə, hazırda yatağın cənub qanadında mühüm qazma əməliyyatları həyata keçirilir. 2025-ci ilin iyununda ölkəmizə gətirilən "Neptun" qurğusu Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə birgə 7 min metrdən artıq dərinliyə malik sualtı qiymətləndirmə quyusunun qazılmasını davam etdirir. Bu, "Ümid" yatağının tarixində ən dərin quyu hesab olunmaqla yanaşı, Xəzər regionunda ilk dəfə özüqalxan qurğu ilə həyata keçirilən sualtı qazma əməliyyatıdır.

"Bu layihə çərçivəsində qazanılan təcrübə dəniz qaz hasilatının sürətləndirilməsinə, mövcud ehtiyatların daha dərindən öyrənilməsinə, eləcə də UBOC-un qazma mühəndisliyi komandasının sualtı əməliyyatlar üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verir", – deyə məlumatda qeyd olunub. Şirkətdən o da bildirilib ki, "Ümid" yatağının inkişafının növbəti mərhələsinə keçid fonunda COS ilə əməkdaşlıq əldə edilən nəticələrin əsas dayaqlarından biri olaraq qalır.

Xatırladaq ki, "Ümid" yatağı 2010-cu il noyabrın 24-də kəşf olunub. Bu, Azərbaycanın müstəqillik dövründə SOCAR tərəfindən kəşf edilən ilk qaz-kondensat yatağı kimi tarixə düşüb. Yataq 2012-ci ildə istismara verilib. Şirkətin ilkin qiymətləndirmələrinə görə, "Ümid" yatağının Balaxanı VIII, Fasilə (B, C, D), Fasilə E, Qırməkiüstü və Qırməkialtı layları üzrə ehtiyatları 129 milyard kubmetr qaz və 20 milyon ton kondensatdan ibarətdir.

"Ümid–Babək" yataqlar blokunun kəşfiyyatı və işlənməsi üzrə saziş isə 2017-ci il yanvarın 12-də imzalanıb və həmin ilin mayında qüvvəyə minib. UBOC şirkətinin səhmdarları SOCAR (80 faiz) və "Nobel Upstream" (20 faiz) şirkətləridir.

## "Xocalı" gəmisi Yaponiyadan Avstraliyaya gedib

**"AZCON Holding" şirkətlərindən olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Handysize" tipli "Xocalı" quru yük gəmisi Yaponiyadan Avstraliyaya səfərini tamamlayıb.**

ASCO-dan bildirilib ki, gəmi bu il martın 22-də Yaponiyanın Tsukumi limanından götürdüyü sement yükünü uğurla təyinat nöqtəsinə– Avstraliyanın Kvinana limanına çatdırıb. Gəmi dünən limana yan alıb və yükboşaltma əməliyyatına başlanılıb.

Qeyd edək ki, məhdudiyyətsiz üzmə imkanlarına malik "Xocalı" gəmisinin dedveyti 38 min 593 tondur. Gəminin uzunluğu 180, eni 30, suya oturumu 10,47 metr təşkil edir. Maksimum sürəti 15,7 düyün olan nəhəng quru yük gəmisi suya oturumunun əlverişli olması sayəsində bir çox dayaz limanlara maneəsiz daxil olmaq imkanına da malikdir.

*XQ*

# Küngüt gəlməli, görməli, gəzməli məkandır

## *Dünyanın 71 ölkəsini ziyarət etmiş səyyahla söhbət*

**Şəki rayonunun ərazisindəki Küngütçayın sağ sahilində yerləşir Küngüt kəndi. 1600-dən çox sakini, onlarla tarixi-mədəniyyət abidəsi var bu qədim yurdun. Əhali əsasən meyvə, taxıl, tütün, qarğıdalı əkib-becərməklə, heyvandarlıq və arıçılıqla məşğuldur.**



Bir neçə il əvvəl Küngüt kəndinin yuxarı başında, azman bir qayanın üzərində müasir texnikanın köməyilə hər cür şəraiti olan yaraşıqlı "Küngüt" istirahət kompleksi inşa edilib. Əvvəlcə kəndə, oradan isə kompleksə 4 kilometr aralıdan göz yaşı kimi dumduru su çəkilib. Kəndin yolları təmir olunaraq abadlaşdırılıb. Bütün bunların sayəsində Küngüt ətraf ərazidə ən gözəl turizm məkanlarından birinə çevrilib.

Sakinlər kəndin mərkəzindəki "Bulaq suyu" abidəsinin üzərində yuxarıda sadaladığımız bu xeyirxah işləri öz şəxsi vəsaiti hesabına həyata keçirən şəxsin – Sadiq Mustafazadənin isminə yaraşdırıb "Kəndinəsadiq" lövhəsi vurublar. Sadiq müəllim Küngütün öz yetirməsidir. İxtisasca inşaatçıdır. Hüquqşünas kimi ikinci ali təhsil də alıb. Xeyli müddət Bakı şəhərinin icra strukturlarında çalışıb.

Onunla söhbətə əvvəlcə ölkəmizdə, eləcə də Şəki rayonunda kənd turizminin inkişafının sadə insanlar üçün əhəmiyyəti ilə bağlı fikir mübadiləsi ilə başladıq. Sonra isə çoxdan səyyah-turist kimi gəzib-dolaşdığı çox sayda ölkələrlə bağlı təəssüratlarını öyrəndik. Beləcə, müsahibimiz XQ-nin suallarını cavablandırdı.

***– Sadiq müəllim, ilk sualım belədir: Küngütdə turizmin inkişafı kənd sakinlərinin məşğulluğuna necə təsir göstərir?***



– Müsbət təsir göstərir. Məsələn, bizim kənddə uzun illərdir arıçılıqla məşğul olan "Qinyət oğulları" şirkəti var. Ona Lətif Lətifov adlı dostum rəhbərlik edir. Mənə dəfələrlə deyib ki, turistlər bu tərəflərə ayaq açmağa başlayandan, Küngüt balının müştəribləri xeyli artıb.

Küngütdə elə ailələr var ki, evdə, şəxsi təsərrüfatlarında hazırladıqları lavaş, təndir çörəyi, ağartı və digər nemətləri bu yerlərə təşrif buyuran turistlərə təklif edirlər. Bunlar təzə, təmiz, ekoloji cəhətdən təmiz məhsullardır. Turistlər, əlbəttə, bunun fərqindədirlər və kənd məhsullarını həvəslə alırlar.

***– Ümid edirəm ki, regionlarda kənd turizminin daha sürətlə inkişaf etdirilməsi ilə bağlı ideya və təklifləriniz olmamış deyil...***

– Ölkəmizdə bütövlükdə turizmin, eləcə də kənd turizminin inkişafı istiqamətində bir çox uğurlu addımlar atılıb. Bununla bərabər, bu sahədə müəyyən çətinliklər də



var. İlk növbədə, müştərilərə göstərilən xidmətin səviyyəsini yüksəltmək, xüsusilə də qiymətləri aşağı salmaq lazımdır.

Bu sahədə dönüş yaratmaq üçün bacarıqlı gənc kadrların yetişdirilməsinə önəm verilməlidir. Şəxsi qənaətim budur ki, turizm sahəsində çalışan kadrlar həm səriştəli, həm də halal, ədalətli insanlar olmalıdırlar. Demək istəyirəm ki, fürsətgirlik bu işdə yaramır və ziyan gətirir.

***– "Küngüt" istirahət mərkəzində "Dəm çaynikləri muzeyi" yaradılıb. Bu barədə də məlumat verməyinizi rica edirəm...***

– Muzeydə irili-xırdalı 372 dəm çaynik nümayiş olunur. Onların bir hissəsini mənə hədiyyə ediblər. Amma çoxunu dünyanın müxtəlif ölkələrinə etdiyim səyahətlər zamanı satın almışam. Çayniklərin çoxu orijinal dizaynı ilə seçilir, hər biri ayrı-ayrı ölkələrin rəmzləridir. Bu çayniklər sanki Yer kürəsinin xəritəsinin özündə əks etdirir. Yeri gəlmişkən, turistlər burada şəkil çəkdirməyi çox sevirlər.

***– Sadiq müəllim, siz turist kimi dünyanın 71 ölkəsində olubsunuz. Belə çıxır ki, ayağınız dəyməyən qitə, materik qalmayıb. Görünür, dünyanı dolaşmaqdan məxsusi zövq alırsınız...***

– Hələ məktəbdə oxuyarkən özümə söz vermişdim ki, imkan düşən kimi mütləq yaxın-uzaq ölkələrə səyahət edəcəyəm. Bu, mənim hobbimdir və bundan böyük zövq alıram. Qardaş Türkiyədə İlbər Ortaylı adlı məşhur tarixçi vardı. Bildiyiniz kimi, bu yaxınlarda dünyasını dəyişib. İlbər bəy həmişə deyirdi ki, o, şəxsən tarixi bilgiləri daha çox göz yaddaşı ilə alır. Məndə də belədir. Gəzdiyim, gördüyüm yerlər yaddaşıma əbədi həkk olunur.

***– Ziyarət etdiyiniz ölkələrin içərisində sizi ən çox nə heyrətləndirib?***

– Bu, yaxşı sualdır. Etiraf etmək istərdim ki, bu vaxta qədər 2 ölkədə gördüklərim məni daha çox yaxşı mənada təəccübləndirib. Bunlar Yaponiya və Səudiyyə Ərəbistanında görüb müşahidə etdiklərimdir. "Gündoğar ölkə"nin insanları son dərəcə qonaqpərvərdirlər. Yaponlardan hansısa bir ünvanı soruşanda, çox vaxt turistin yanıma düşüb özləri onu o ünvana çatdırırlar.

Bir də müqəddəs Məkkə şəhərində gördüklərim məni çox heyrətə gətirib. Təsəvvür edirsinizmi, Kəbə ətrafında bir neçə milyon adam eyni vaxtda sidq-ürəklə ibadət edir. Bu, olduqca möhtəşəm səhnədir. Allah hər bir inanclı insana o müqədəs məkanı ziyarət etməyi nəsib etsin.

***– Gəzdiyiniz ölkələrdə Azərbaycanımıza münasibət necədir?***

– Münasibət əladır. Belə ki, Müzəffər Ali Baş Komandan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik xarici və daxili siyasəti, 2020-ci ilin payızında Qarabağda tarixi Zəfərimiz ölkəmizi, xaqımızı, həqiqətən, bütün dünyada çox məşhurlaşdırıb. Bunu müşahidə etmək çox qürurverici bir duyğudur! Şuşanın sıldırım qayalarına dırmaşaraq onu demək olar ki, əliyalın silahlarla azad edən xalq qəhrəman xalqdır.

Xarici ölkələrdə Qarabağdakı zəfərimizin səbəbləri barədə məndən tez-tez soruşurlar. O barədə danışanda sinəm qürurdan qabarır. Şanlı ölkənin vətəndaşı olmaq böyük xoşbəxtlikdir!

***Söhbəti yazdı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Qədim Mistanın yeni dövranı

## *Lerikin bu dağ kəndi qayğıya da möhtacdır*

**"Dağlar qapısı"ndan keçəndən sonra qarşımıza möhtəşəm, əsrarəngiz mənzərə açılır. Yolun hər iki tərəfində iri, nəhəng daşlar, sıldırım qayalar, dərin dərələr insanı heyrətə gətirir. Buradan dağlar yurdu Lerikin Zuvand ərazisi başlanır.**



Yol yoldaşlarım Rafil və Ələsgər Tağıyevlərin babaları vaxtilə bu qədim yurddan Lənkərana köçüblər. Lakin doğma ocaqlarını unutmurlar. Tez-tez Mistana gəlir, el-obanın qayğıları ilə maraqlanır, köməklərini əsirgəmirlər.

Budur, Divağac kəndində asfalt yoldan sola dönüb torpaq yolla Mistan kəndinə doğru istiqamət alırıq. "Qış çox sərt keçdi, bu yerlərdə qarın hündürlüyü bəzən 130 santimetrə çatırdı", - deyə Rafil söhbətə körpü salır. Deyir ki, bir arada kənd yolu, hətta müvəqqəti bağlanmışdı. İndi isə yazın nəfəsi duyulur. Bu yerlər zəngin bitki örtüyü, füsunkar təbiəti ilə hər zaman göz oxşayır.



Maşın üzüyuxarı uca, sıldırımlı dağlara doğru qalxır. Ələsgər bu yollara bələddir, maşını ustalıqla idarə edir. Budur, artıq Mistan kəndinə çatmışıq. Kəndin girəcəyindən başlayaraq, buradakı ziyarətgahlar, qədim qəbir daşları diqqəti cəlb edir. Rafil Tağıyev isə deyir ki, Mistanın Meydan kurqanları tunc dövrünə aiddir və ölkə əhəmiyyətli arxeoloji abidə kimi qorunur. Şeyx Pirzarənin qəbri-şərifi yerləşən Yel ocağı, Vəliəddin ağanın və Soltan Heydər Musəvinin məzarları yerli sakinlərin dərin inam, inanc yerləridir.

Qeyd edək ki, Mistan kəndində ilk məscid 1830-cu ildə tikilib. 1995-ci ildə Şirvanşahlar sarayının tağ üslubuna uyğun inşa olunan təzə məscid binası isə 27 metr hündürlükdə olan minarəsi, 5 böyük və 3 kiçik havalandırma pəncərələri ilə zahirən Bakının "Təzə Pir" məscidini xatırladır.

Mistan kəndinin sayılıb-seçilən ağsaqqalı Əlişan Muradov təsərrüfatda mühasib, direktor, kənd inzibati ərazi dairəsi üzrə nümayəndə vəzifələrində işləyib. Gəlişimizə sevindi, sonra isə kəndin keçmişindən, eləcə də son illərdəki inkişafından həvəslə söhbət açdı:

– Mistanın əhalisi qədimdən 6 qəbilədən ibarət olub: misgərlər, qalayçılar, dəmirçilər, ağacçəkənlər, zərgərlər və çörəkçilər. Yerli sənətkarlar köçdükləri ərazilərdə də sənətlərini qoruyub davam etdirirlər. Kəndin igid, mərd kişilərindən Bala Məmməd 1918-ci ildə ermənilərin törətdikləri mart-aprel qırğınları zamanı bölgə əhalisini daşnakların qəfil hücumlarından fədakarcasına qoruyub.

Mistanlılar Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda döyüşlərdə də fərqləniblər. Kəndin yetirmələrindən Əliniyaz Vahabov, Rüstəm Əliyev, Çingiz Babayev Vətənin bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıblar.

Mistan həm də tanınmış alimlər, ziyalılar kəndidir. Kəndin adlı-sanlı ziyalı yetirmələrindən iqtisad elmləri doktoru, professor Polad Rufullayev, tibb elmləri doktoru, professor Ümidvar Ələkbərov, istefada olan polkovnik Səadət İsmayılov, ədliyyə polkovniki Ataxan Rüstəmovun adlarını fəxrlə çəkmək olar.

Acı təəssüf ki, Mistanın taleyində çətin günlər də olub. Ağsaqqal Əlişan Muradov bildirdi ki, 1952-ci ildə Zuvand ərazisinin əhalisi zorla Muğan rayonlarına köçürüləndə təsərrüfatda 4 min baş qoyun-quzu, 70 at, xeyli sayda iribuynuzlu mal-qara var idi. Camaat da yaxşı dolanırdı. Əslində, əhalini köçürməyə heç bir ehtiyac yox idi.

Bəli, Kremlin dağ kəndlərinin aran ərazilərə köçürülməsi yanlış siyasəti nəticəsində mövcud infrastruktur dağıdıldı, torpaqlar uzun müddət istifadəsiz qaldı. Lakin 1956-cı ildən kəndə qayıdış başlandı. İməcilik yolu ilə burada 50 ailə üçün ev tikildi, təsərrüfat yenidən bərpa edildi.

Ağsaqqal sonra dedi:

–1969-cu ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Mistan kəndinin dirçəliş və inkişaf dövrü başlandı. Əkinçilik, heyvandarlıq, bağçılıq, arıçılıq, kartofçuluq sürətlə inkişaf etdirildi. Davarın sayı 2 min başa, qaramalın sayı 200 başa çatdırıldı. Ərazidə arıçılıq sovxozu yaradıldı. Əhalinin güzəranı gündən-günə yaxşılaşırdı. Lakin 1990-cı illərin əvvəllərində hakimiyyətə gələn Xalq Cəbhəsinin naşı rəhbərlərinin səhvi üzündən ölkənin hər yerində olduğu kimi, Lerik rayonunda da bütün sahələri ağır böhran bürüdü, insanlar çörək dalınca şəhərlərə üz tutdular. Bir vaxtlar qonaqlı-qaralı Mistan da boşaldı, kənddə cəmi 35 ailə qaldı.

Bu gün, xoşbəxtlikdən, Mistan yenidən qurulur, dirçəlir. Kənd qazlaşdırılıb, işıq xətləri kabelləşdirilib. Məktəb üçün təzə bina tikilib. Əhaliyə fasiləsiz işıq, qaz, internet xidmətləri göstərilir. Sakinlərin həyat səviyyəsi xeyli yüksəlib. Lakin çətinliklər də var. İxtisaslı kadr olmadığından həkim məntəqəsi bağlıdır. Qarlı-şaxtalı havalarda ağır xəstəni rayon mərkəzinə çatdırmaq olmur.

Kəndin nüfuzlu ziyalılarından Rizvan Muradov ilə də həmsöhbət olduq. Vaxtilə Mistan ərazi vahidliyi üzrə icra nümayəndəsi vəzifəsində işləyib. O dönəmdə ilk dəfə Mistan kəndinin perspektiv inkişafı üçün müfəssəl plan layihəsi işlənərək hazırlanıb. Layihədə istirahət mərkəzlərinin salınması, turizmin inkişaf etdirilməsi, dərman bitkilərinin tədarük olunması, su anbarının tikilməsi nəzərdə tutulub. Rizvan kişi dedi ki, layihənin icrası təkcə Mistan kəndinin deyil, Zuvand ərazisinin sosial-iqtisadi inkişafına töhfələr verəcək.



Mərdan Bəşirov da doğma yurda, ata-baba ocağına çox bağlıdır. Kənddə poçt şöbəsinin müdiri, bələdiyyə sədri işləyib. Şəxsi təsərrüfatında 28 baş qaramal, qoyun-quzu, toyuq-cücə saxlayır. İstehsal etdiyi heyvandarlıq məhsullarını yerindəcə satır, ailənin büdcəsinə hər ay xeyli vəsait daxil olur.

Mərdan kişinin oğlu Murad Mistan dağının hündür zirvəsində, iri daşdan süzülüb gələn Koçin bulağının suyunu qablaşdırıb Lənkəran və Bakı şəhərlərində mütəmadi olaraq müştərilərə çatdırır. Mərdan kişi deyir ki, kənddə yaşamaq üçün hər cür şərait var. Gərək çalışasan, zəhmət çəkəsən, bəhrəsini görəcəksən.

Mistanın digər ağsaqqalları – Aydın Tağıyev və Fərahim Yusubov ilə də xeyli söhbətləşdik. Ağsaqqalların sözü bu oldu ki, bu cənnətmisal məkanda kənd turizminin inkişaf etdirilsə, əhalinin məşğulluğu daha da yaxşılaşar. Bunun üçün isə, ilk növbədə, 9 kilometrlik Divağac-Mistan yolunu əsaslı şəkildə təmir etmək lazımdır. Mistanlılar əmindirlər ki, müvafiq qurumlar tezliklə bu problemin həllinə lazımi kömək göstərəcəklər.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Lerik**

# Xocalı bar-bərəkətə üz tutub

## ***Ballıcalılar taxılçılığı dirçəldirlər***



**Baharın gəlişi Xocalının əsrarəngiz gözəlliklərinə gözəllik qatıb, yaşıl donunu geyinmiş çöllər, çəmənlər gülə-çiçəyə bürünüb. Əzəli sakinlərinin dönüşü rayonda uzun illərdən sonra əkinçiliyin inkişafına da zəmin yaradıb. İndi bu bərəkətli torpaqlar insan əməyi sayəsində yenidən canlanır.**

2025-2026-cı il təsərrüfat ilində ilk dəfə olaraq yerli əhali tərəfindən Ballıca kəndinin ərazisində dənli bitkilərin əkini həyata keçirilib. **Xocalı Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Habil Rzaquliyevlə** söhbət zamanı öyrəndik ki, ötən il rayonun Ballıca və Xanyurdu kəndlərinin sakinləri ilə torpaqların əkin məqsədli istifadəyə verilməsinə dair icarə müqavilələri imzalanıb:

– Bu obaların sakinlərindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) 2 mərhələdə, ümumilikdə, 177 müraciət daxil olmuşdu. Müraciətləri təsdiqlənmiş şəxslərdən 64 nəfər tərəfindən 8 kooperativ, 28 nəfər tərəfindən isə 8 ailə-kəndli təsərrüfatı formalaşdırıldı və Kənd Təsərrüfatı Nazirliyi (KTN) ilə təsərrüfatların üzvləri arasında icarə müqavilələri imzalandı.

Mərkəz direktorunun sözlərinə görə, Xocalının ilk femerləri təsərrüfat ilinin əvvəlindən aqrar sahədə dövlət dəstəyi tədbirləri, KTN-in tabeliyində olan qurumlar tərəfindən göstərilən xidmətlər, aqrar subsidiya mexanizmi, texnika və damazlıq heyvanların alınmasının maliyyələşdirilməsi barədə məlumatlandırılıblar. Onlara, həmçinin kənd təsərrüfatı təyinatlı kreditlərin ayrılması, müasir suvarma sistemlərindən istifadənin əhəmiyyəti və aqrar sığorta mexanizminin tətbiqi ilə bağlı da maarifləndirici sessiyalar təşkil edilib, fermerlərin Xankəndidə keçirilən Aqrar Biznes Festivalında iştirakları təmin olunub.

H.Rzaquliyev 2025-2026-cı il təsərrüfat ilində Ballıca kəndində fermerlər tərəfindən 153 hektar sahədə dənli bitkilər əkildiyini bildirdi. Əkin zamanı sakinlərin texnika sarıdan problemlərlə üzləşməmələri üçün əlaqələndirici tədbirlər görülüb. İcarədarların qanunvericiliyə uyğun olaraq subsidiya almaları üçün isə zəruri məlumatlar EKTİS-ə yüklənilib. Yəni fermerlər tezliklə dövlətin daha bir qayğısından yararlana, əkin sahəsinin həcminə və məhsulun növünə görə subsidiyalar ala biləcəklər. Bu da doğma torpaqları həvəslə əkib-becərən xocalılılar üçün əlavə bir stimul olacaq.

Ötən ilin sonlarında rayonunun Ballıca kəndində Aqrar Tədarük və Təchizat ASC-nin təşkilatçılığı və PAŞA Holdinqin maliyyə dəstəyi ilə AFAQ (Aqrar Fəaliyyətli Azərbaycan Qadınları) layihəsi çərçivəsində "Ballıcanının ilk AFAQ-çıları" adlı toplantı keçirilib. İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının inkişafına yardımçı olmaq və xüsusilə qadın fermerlərin bu sahədə fəallığını artırmaq, onların dayanıqlı təsərrüfatlar qurmasına şərait yaratmaq məqsədilə təşkil edilən tədbir çərçivəsində, ümumilikdə, 53 qadına dəstək göstərilib, hər birində 5 qadının yer aldığı "Güllü yaylaq" və "Qızıl pətək" kooperativləri təsis edilib.

Bu kooperativlər kənd təsərrüfatı məhsullarının emalı və satışı ilə məşğul olacaq. Nəticədə kənd qadınlarının həm məşğulluq, həm də gəlir imkanları genişlənəcək. Fermerlərin təsərrüfatlarını inkişaf etdirmələrinə dəstək məqsədilə AFAQ layihəsi çərçivəsində yerli sakinlərə 86 ədəd avadanlıq və 18 ton yem verilib, həmçinin onlara sertifikatlar təqdim edilib.

Xocalıda ilk kooperativlərin və ailə-kəndli təsərrüfatlarının yaradılması, ata-baba yurdlarına dönmüş sakinlərin doğma torpaqları əkib-becərmələri azad Qarabağımızda kənd təsərrüfatınn inkişafına böyük töhfədir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

*Biz deməsək...*

# "Qaynar xət"lərdə soyuq sükutlar

## *"Çağrı mərkəzləri"nin zənglərə cavab verməsi getdikcə müşkülə çevrilir*



**Azərbaycanda müxtəlif dövlət orqanları, nazirliklər və digər qurumların vətəndaş müraciətlərini (sualları, şikayətləri və təklifləri) operativ araşdırmaq üçün "Qaynar xət"lər fəaliyyət göstərir. Bu xidmətlərin fəaliyyəti dövlət orqanlarının daxili qaydaları, normativ-hüquqi aktlar və "Vətəndaşların müraciətləri haqqında" Qanunla tənzimlənir. Həmin "Çağrı mərkəzləri" qarşısında vətəndaşların suallarını operativ cavablandırmaq, şikayət və təklifləri qeydə alaraq aidiyyəti şöbələrə yönləndirmək, bəzən isə birbaşa həllini gerçəkləşdirmək kimi məsələlər mühüm vəzifə kimi qoyulur.**

"Qaynar xət"lər tabe olduqları qurumun fəaliyyəti ilə bağlı müraciətləri operativ araşdıraraq vətəndaşa gün ərzində və ya müəyyənləşdirilən müddətdə cavab verməli, təhsil, səhiyyə, sosial xidmətlər və digər sahələrdə vətəndaş məmnuniyyətini gerçəkləşdirməkdə, eləcə də şəffaflığı artırmaqda önəmli rol oynamalıdır. Eyni zamanda, dövlət orqanlarında qanunçuluğun təmin edilməsi, müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, sui-istifadə əməllərinin qarşısının alınması, fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təhlillər aparmalıdır.

Bəs ölkə ərazisində fəaliyyət göstərən rəsmi qurumlar tərəfindən əhalinin geniş istifadəsi məqsədilə yaradılan "Qaynar xətt" xidmətlərində vətəndaşların müraciətlərində yer alan müəyyən şikayətlərin operativ baxılmasına, onların aradan qaldırılmasına necə münasibət bəslənilir? Ümumilikdə, bu "Çağrı mərkəzləri"nin fəaliyyəti vətəndaşları qane edirmi?

Bu suallarla bağlı bir sıra "Çağrı mərkəzləri"nin "Qaynar xətt" xidmətlərinə zəng etməklə mövcud sahədə vəziyyəti aydınlaşdırmaq istədik. Daxili İşlər (102), Fövqəladə Hallar (112), Təhsil (146), Əmək və Əhalinin Sosial Müdafiəsi (142) nazirlikləri, Dövlət Miqrasiya Xidməti (919), "ASAN xidmət" (108) kimi strateji strukturların "Çağrı mərkəzləri"nə ünvanlanan hər hansı bir müraciətə laqeyd yanaşılmadığı, zənglərə çevik reaksiya verildiyi, həmin müraciətin forma və məzmununa əsaslanılaraq dərhal uyğun orqanlara yönləndirildiyi aydın oldu.

Təəssüf ki, bu səmərəlilik, operativlik adları çəkilən dövlət qurumlarının tabeliyində yaradılan bəzi "Qaynar xət"lərin fəaliyyətində müşahidə olunmur. Həmin strateji strukturların sırasında elələri var ki, təsadüfi hallar istisna olmaqla, onlarda günlərlə vətəndaşların zəngləri cavabsız buraxılır, başqa sözlə, telefonlar "məşğul" vəziyyətə salınır. Müvafiq icra hakimiyyəti orqanlarının yaratdıqları "Qaynar xətt" xidmətlərinin də çoxunun, ümumiyyətlə, iflic vəziyyətdə olduğu müşahidə edilir. Dəfələrlə mətbuatda və sosial şəbəkələrdə bununla bağlı məsələ qaldırılsa da, problem öz həllini tapa bilmir. Vətəndaşı aldatmaq naminə "Qaynar xətt" yaratmağın hansı məqsədə xidmət etdiyi anlaşılmır. Yeri gəlmişkən, "153 Qaynar xətt" xidmətinin istifadəçinin ölkə apteklərində hansı dərmanın olub-olmaması barədə sualına cavab verə bilməməsi də başa düşülmür.

Yeri gəlmişkən, bu yazı çapa hazırlanan gün saat 13:00 radələrində müraciət etdiyimiz ünvanların heç birinin – "Azərişıq" ASC (199), "Azəriqaz" İB (104), Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi (141) və "Azərbaycan Dəmir Yolları" QSC-nin (1822) "Qaynar xətt" xidmətlərinin fəaliyyət göstərmədiyi də məlum oldu. Bu isə deməyə əsas verir ki, vətəndaş məmnunluğunun gerçəkləşdirilməsi məqsədi daşıyan "Qaynar xət"lərin heç də hamısında qarşıya qoyulan vəzifə qanunvericilikdə nəzərdə tutulan səviyyədə həyata keçirilmir.

Məsələn, "Çağrı mərkəzi"nin təmsil etdiyi dövlət orqanının fəaliyyəti ilə bağlı sualların birbaşa və ya araşdırıldıqdan sonra cavablandırması, məlumatlandırma və məsləhət xidməti göstərməsi, şikayətləri qəbul etməsi, eləcə də yönləndirməsi kimi məsələlər telefon zənglərinin günlərlə "susması" nəticəsində öz həllini tapmır. Yaxud vətəndaşın telefon zəngi qeydə alınaraq şikayət və təklifləri aidiyyəti şöbələrə çatdırmasına baxmayaraq, bu, nəticəsiz qalır, qarşı tərəfə heç bir məlumat verilmir.

Təəccüblüsü isə odur ki, bu zaman susqunluğun səbəbini sonradan həmin orqana bu məqsədlə dəfələrlə edilən zənglərin cavabsız qalması üzündən öyrənmək mümkün olmur. Başqa sözlə, vətəndaş müraciətini cavablandırmaq, prosedur qaydalara əməl etmək məsuliyyətini üzərinə götürən "Çağrı mərkəzi" çağrışlardan bilərəkdən yayınaraq kənar qalmağa üstünlük verir.

Həmin "Çağrı mərkəzləri"nin fəaliyyətsizliyi bununla kifayətlənmir. Belə ki, xidmət canlı rejimdə fəaliyyət göstərmədiyi vaxtlarda səsli menyu vasitəsilə vətəndaşların müraciəti "yazılmır", yəni onunla növbəti iş saatlarında əks əlaqə yaradılması üçün zəng sifarişi etmək imkanı təklif olunmur. Halbuki hər hansı bir "Çağrı mərkəzi"nin növbəti iş günü vətəndaşla əks əlaqə yaradaraq müvafiq xidmət göstərməsi qanunvericiliyə əsasən qurumun qarşısında duran əsas vəzifələrdən biri hesab edilir.

Yeri gəlmişkən, "Çağrı mərkəzləri"nin bir çoxunda canlı rejimdə fəaliyyət zamanı müraciət edən şəxs növbədə 10 saniyədən çox gözləyərək dəstəyi asdıqda, yəni belə demək mümkünsə, zəng "itirildikdə" və yaxud təkrar zəng edilmədikdə, gün ərzində əks əlaqə yaradılaraq ona müvafiq xidmət göstərilməlidir. Amma qanunvericilikdə əksini tapan bu mühüm məsələ xidmət qurumlarının fəaliyyətində, demək olar ki, müşahidə edilmir. Halbuki "Çağrı mərkəzləri"ndə belə bir xidmətin "unudulması" vətəndaş məmnunluğu kimi əsas prioritetin üzərinə kölgə salır, vətəndaşın vaxt itkisi ilə üzləşməsi ilə nəticələnir, bu hal digər "Qaynar xət"lərin də nüfuzunu sarsıdır.

### Dövlət – vətəndaş dialoqu körpüsü

Müasir dövrdə dövlət idarəçiliyinin keyfiyyəti qəbul olunan qərarlarla yanaşı, həm də bu qərarların vətəndaşa nə qədər tez və səmərəli çatdırılması ilə ölçülür. Bu baxımdan respublikada fəaliyyət göstərən "Qaynar xətt" xidmətləri dövlətlə vətəndaş arasında canlı ünsiyyət körpüsü rolunu oynayır. Lakin bu körpünün nə dərəcədə möhkəm və etibarlılığı təkcə texniki məsələ deyil, həm də sistemin struktur mexanizmlərinin nə dərəcədə işlək olması ilə bağlıdır.

Son illər ölkədə vətəndaş müraciətlərinin sayı artan dinamika nümayiş etdirir. Müxtəlif dövlət qurumlarının açıqlamalarına əsasən, il ərzində dövlət orqanlarına yüz minlərlə müraciət daxil olur. Bu müraciətlərin böyük bir hissəsi məhz "Qaynar xət"lər vasitəsilə qəbul edilir. Ən çox müraciət edilən sahələr sırasında sosial müdafiə, təhsil, kommunal xidmətlər, səhiyyə və məşğulluq məsələləri dayanır. Məsələn, "ASAN xidmət" mərkəzlərinin çağrı xidməti (108) vasitəsilə hər il yüz minlərlə zəng qəbul olunur və müraciətlərin böyük hissəsi ilkin mərhələdə cavablandırılır. Bu isə vətəndaşların fiziki olaraq dövlət qurumlarına müraciət etmə ehtiyacını əhəmiyyətli dərəcədə azaldır.

Burada əsas məsələ təkcə müraciətlərin sayında deyil, onların həll sürətində və keyfiyyətindədir. Onu da qeyd edək ki, bir çox hallarda vətəndaşlar müəyyən problemlərlə, məsələn, eyni məsələ ilə bağlı dəfələrlə zəng etmək məcburiyyəti, standart, şablon cavablar verilməsi, müraciətin taleyi ilə bağlı qeyri-müəyyənlik hallarının nəzərə çarpası kimi çətinliklərlə üzləşir. Bu isə göstərir ki, bəzi hallarda "Qaynar xət"lər real həll mexanizmi deyil, sadəcə, necə deyərlər, "qəbul platforması" funksiyasını yerinə yetirir.

Ekspertlər tərəfindən düzgün qurulmuş "Qaynar xət"lər dövlət üçün güclü təhlil mərkəzi hesab olunur. Belə ki, "Çağrı mərkəzləri" vasitəsilə, əslində, ən çox şikayət olunan sahələr müəyyən edilir. Regional problemlər xəritələndirilir və qanunvericilikdə boşluqlar üzə çıxarılır. Bu məlumatların düzgün təhlili ilə dövlət siyasətinin daha hədəfli formalaşdırılmasına imkan yaradılır. İnkişaf etmiş ölkələrdə çağrı mərkəzləri "şikayət qutusu" kimi deyil, "idarəetmə radarı" funksiyasını yerinə yetirən sistem kimi dəyərləndirilir.

Onu da qeyd edək ki, son illər respublikada rəqəmsallaşma istiqamətində atılan addımlar "Qaynar xət"lərin də transformasiyasını sürətləndirir. Xüsusilə elektron müraciət platformalarının genişləndirilməsi, mobil tətbiqlərin diqqət mərkəzində saxlanılması və avtomatlaşdırılmış cavab sistemlərinin istifadəsi bunun bariz ifadəsidir. Bu sahədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən layihələr "Çağrı mərkəzləri"nin daha çevik və inteqrasiya olunmuş sistemə keçidini gerçəkləşdirir.

Dünya təcrübəsi göstərir ki, çağrı mərkəzlərinin səmərəliliyi texnologiya və idarəetmənin sintezindən asılıdır. ABŞ-da "311" sistemi vətəndaş müraciətlərini vahid platformada toplayaraq onların icra vəziyyətini onlayn izləməyə imkan verir. Böyük Britaniyada dövlət xidmətləri vahid rəqəmsal portal üzərindən inteqrasiya olunur. Estoniyada isə müraciətlərin böyük hissəsi insan müdaxiləsi olmadan avtomatlaşdırılan qaydada həll edilir. Xüsusilə bu ölkə modeli göstərir ki, rəqəmsal dövlət konsepsiyası ilə "Çağrı mərkəzləri" klassik formatdan çıxarılaraq tam inteqrasiya olunmuş xidmət platformasına çevrilir.

Ekspertlər tərəfindən mövcud vəziyyət və beynəlxalq təcrübə nəzərə alınaraq ölkədə "Qaynar xət"lər üçün vahid xidmət standartlarının hazırlanması, zənglərin keyfiyyətinə nəzarət və qiymətləndirmə sisteminin tətbiqinin diqqətdə saxlanılması, süni intellekt əsaslı cavablandırma sistemlərinin genişləndirilməsi, vətəndaşlara müraciətin icra vəziyyətini izləmək imkanı verən platformaların yaradılması və dövlət qurumları arasında məlumat inteqrasiyasının gücləndirilməsi kimi məsələlərin həlli zəruri sayılır.

Beləliklə, "Qaynar xət"lər, sadəcə, hər hansı bir quruma müəyyən telefon nömrəsi ilə zəng edib problemin həlli istəyini bildirmək deyil, bu, həm də dövlətin vətəndaşı nə qədər eşitdiyinin göstəricisidir. Əgər bu mexanizm operativ, şəffaf və nəticəyönümlü işləyirsə, deməli, bu, təkcə xidmət keyfiyyətinin deyil, həm də idarəetmə mədəniyyətinin yüksək səviyyəsindən xəbər verir. Əks halda isə, "Qaynar xət"lər yalnız formal prosedura çevrilir və vətəndaş etimadını zəiflədir. Bu baxımdan qarşıdakı dövrdə əsas vəzifə bu sistemi texniki vasitədən strateji idarəetmə əlaqəsinə çevirməkdir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Sahib MƏMMƏDOV,**
**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri, hüquqşünas**

Mənə tez-tez belə bir sual verilir ki, "Qaynar xət"lərin zəif fəaliyyəti şəraitində vətəndaş nə etməlidir? Hansı hüququ addımlar atılmalıdır? Xatırladım ki, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası hələ 2009-cu ildə dövlət qurumlarının "Qaynar xət"lərinin monitorinqini keçirmişdi. Bu prosesin nəticələri Beynəlxalq İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının aylıq nəşrində də yer almışdı. Etiraf edim ki, o zaman çağrı mərkəzlərində mövcud durum indikinə nisbətən xeyli yaxşı idi. Halbuki sözügedən monitorinqin nəticələri əsasında hazırlanan hesabatda da xeyli iradlar yer almışdı.

Ötən müddətdə vəziyyət nəinki dəyişib, əksinə, dəfələrlə pisləşib. Ümumiyyətlə, hazırda "Qaynar xətt"i qanunvericiliyə uyğun fəaliyyət göstərən bir neçə dövlət qurumu var. Əksər strukturların "Çağrı mərkəzi" acınacaqlı durumdadır. Bəzi qurumların, "Qaynar xətt"i indiyədək avtomatlaşdırmaması da bunun bariz ifadəsidir. Bundan başqa, vətəndaşların əksər qurumların "Qaynar xət"lərinə düşə bilmələri ilə bağlı çətinlik də ciddi narahatlıq doğurur.

Bəzi qurumların "Qaynar xət"lərinə zəng edilərkən xeyli gözlənilir, nəhayət, hansısa milli və yaxud klassik musiqi eşidilir. Musiqi qurtaran kimi də çox vaxt telefon qapadılır. Bu isə korrupsiyaya qarşı mübarizə tədbirlərini gücləndirmək, süründürməçiliyi aradan qaldırmaq və operativliyi təmin etmək kimi prioritetlərin icrasına mənfi təsir göstərir.

"İnformasiya əldə etmək haqqında" Qanuna görə vətəndaşın sorğusu və yaxud müraciətinin cavabsız qalması hüquqi məsuliyyət yaradır. Əvvəllər belə hallara görə vətəndaş istənilən məhkəmədə öz hüququnu müdafiə edə bilirdi. Amma indi belə mübahisəli məsələlərə İnzibati Məhkəmələr baxır. Bu məhkəmə instansiyasına müraciət prosedurları isə çox mürəkkəbdir. Ən optimal variant isə Obudsmana şikayət etməkdir.

*"Şəhərsalma və Memarlıq İli"*

# Lənkəranın ilk mühəndisi

**Ölkəmizin cənubunda, mavi Xəzərin sahilində yerləşən Lənkəran şəhərinin memarlığı onun çoxəsrlik tarixi, mədəniyyəti və coğrafi təsiri altında formalaşıb. Tarixi ənənələrlə yanaşı, Lənkəran memarlıq məktəbi də öz zənginliyi, nadir üslubları ilə bu şəhərə bənzərsizlik gətirib. Burada qədim və müasir memarlığın harmoniyası daha aydın nəzərə çarpır.**

Bu gün Lənkəran Azərbaycanın milli və beynəlxalq memarlıq ənənələrinin qorunub zənginləşdirildiyi abad, gözəl şəhərdir. Bir neçə əsr əvvəl şəhər salınarkən burada həm yeni, həm də qədim memarlıq nümunələri nəzərə alınıb. Nəticədə, şəhərin mədəni və tarixi irsinin qorunması, müasir infrastrukturun inkişafı təmin edilib. Lənkəranda yeni layihələr əsasında çoxsaylı yaşayış evlərinin, ictimai binaların, körpülərin tikilməsində cənub bölgəsinin ilk ali təhsilli mühəndisi Qüdrət Səmədzadənin misilsiz xidmətləri olub.

Qüdrət Muxtar oğlu Səmədzadə 1910-cu ildə Lənkəran şəhərinin Kiçik bazar məhəlləsində dünyaya göz açıb. İlk təhsilini doğma şəhərdə alıb. 1933-cü ildə Bakı Sənaye Texnikumunu bitirdikdən sonra N.E.Bauman adına Moskva Dövlət Texniki Universitetinə qəbul olunub. O vaxt hər azərbaycanlıya Sovetlər İttifaqının paytaxtında təhsil almaq qismət olmurdu. Mərkəzdə oxuyanlarla Azərbaycanın rəhbəri şəxsən maraqlanır, maddi və mənəvi dəstək göstərirdi. Elə bu məqsədlə ölkə başçısı Mircəfər Bağırov universitetə gələrək azərbaycanlı tələbələrlə görüşür. Qüdrət Səmədzadənin soyadı onun diqqətindən yayınmır. Sən niyə zadəsən, - deyə soruşanda gənc Qüdrət susur. Elə soyadına görə digər iki yoldaşından fərqli olaraq rəhbərin yardımından kənarda qalır.

Moskvanın soyuq qışı, sərt iqlimi səhhətinə təsir etdiyindən Bakıya qayıtmalı olur. Azərbaycan Sənaye İnstitutunda (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) təhsilini davam etdirir. 1938-ci ildə təhsilini başa vurub təyinatla Sankt-Peterburq şəhərinə göndərlir. Burada işləyərkən Sovet-Finlandiya müharibəsinə səfərbərliyə alınır və körpülər üzrə minaaxtaran kimi xidmət göstərir. 1940-cı ilin fevral ayında müharibənin bitməsinə bir ay qalmış ağır yaralanır və ordudan tərxis edilir.

Gənc mühəndis Vətənə qayıtdıqdan sonra Lənkəran rayon torpaq şöbəsində ilk ali təhsilli mühəndis kimi fəaliyyətə başlayır. O dövrdə ixtisaslı kadrlar çatışmadığından həm də şəhərin memarı olaraq inzibati və sosial binaların, fərdi evlərin layihələrini hazırlayıb. Eşidəndə ki, kimsə ev tikmək istəyir, layihəsini hazırlayaraq sahibinə bağışlayıb. Bu gün şərq memarlıq xüsusiyyətləri, milli oramentləri ilə seçilən neçə-neçə binada, yaraşıqlı fərdi evlərdə onun izi yaşayır.

Qüdrət Səmədzadə təkcə Lənkəranda deyil, ətraf rayonlarda da peşəsini dərindən bilən təcrübəli mühəndis kimi tanınıb. 1930-cu illərdə müsadirə edilmiş mülkləri və onların sahiblərini yaxşı tanıdığı üçün onu canlı arxiv adlandırırdılar. Sonradan mülkiyyət hüququ ilə bağlı yaranan mübahisələr onun şəxsən iştirakı ilə yoluna qoyulurdu.




Bacarıqlı, yüksəkixtisaslı mühəndis kimi nüfuz qazanmış Qüdrət Səmədzadə strateji əhəmiyyətli obyektlərin layihələrinin hazırlanmasında yaxından iştirak edib. Salyan rayonunun ərazisində Kür çayının üzərində avtomobil körpüsü salınarkən tikintidə çoxlu səhvlər aşkar edib və deyib ki, bu körpü heç 50 il dözməz. İllər keçəndən sonra dedikləri təsdiq olunub. Lənkəranda Xanbulançay dəryaçası kimi nəhəng suvarma obyektinin inşasında da onun məsləhətləri, dəyərli təklifləri nəzərə alınıb.

Övladlarından Fikrət və Qəhrəman ali təhsilli mühəndis kimi atanın sənət yolunu ləyaqətlə davam etdiriblər. Fikrət uzun illər Bakı mərmər zavodunda, Qaradağ daş karxanasında, Qəhrəman isə Lənkəran şəhərində ixtisası üzrə rəhbər vəzifələrdə işləyib, böyük hörmət və nüfuz qazanıblar.

**İxtisasca ingilis dili müəllimi olan gəlini Lalə Səmədzadə deyir:**

– Qüdrət müəllim canlı tarix idi. Azərbaycan Xalq Cümhuriyyəti dövrü və sovet dönəmində baş vermiş hadisələrin şahidi idi. Nəriman Nərimanovun Lənkərana gəlişini yaxşı xatırlayırdı. Hüseyn Cavidin, Mikayıl Müşfiqin vurğunu idi. İnsanlara təmənnasız yaxşılıq etməyi çox sevirdi. Oğlum Rəşad, qızlarım Fidan və Zümrüd başqa ixtisaslar seçsələr də, həyatda babalarına oxşamağa çalışırlar.

Əvvəllər Lənkəran şəhərinin baş memarı işləmiş Alim Məmmədov bildirir ki, Qüdrət Səmədzadə memarlıq, şəhərsalma sahəsində zəngin irs qoyub. Onun keçdiyi yol, həyat təcrübəsi böyük məktəbdir. Neçə-neçə nəsil mühəndis, memar quruculuq təcrübəsini ondan öyrənib, hər birimiz üçün nümunə, örnək olub.

Lənkəranın ilk ali təhsilli mühəndisi Qüdrət Səmədzadənin xatirəsinin əbədiləşdirilməsi, bir vaxtlar yaşadığı mənzilin divarına xatirə lövhəsinin vurulması onu nəsillərin yaddaşında əbədi yaşatmağa xidmət edər. Buna onun haqqı var.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Dünəndən sabaha*

# Kitab bütün dövrlərin bilik xəzinəsidir

## *Rəqəmsal aləmin də qaynağı çap məhsullarıdır*

**Kitab oxumağın ən böyük üstünlüklərindən biri də dərketməni, qavramanı gücləndirməsidir. İnsan hər cümləni tələsik ötüb keçmir, dayanır, ara verir, əvvəl oxuduğunu sonrakı ilə əlaqələndirir. Məhz bu zaman əhatəli anlayış formalaşır, bilik daha çox mənimsənilir.**

Təəssüf ki, müasir dövrdə insanlar rəqəmsal texnologiyalardan istifadənin sərhədini qorumaqda çətinlik çəkirlər. Bu isə xüsusi diqqət və dərin düşünmə tələb edən sahələrdə, o cümlədən təhsildə öz mənfi təsirini göstərir. Getdikcə kitabdan uzaqlaşma meyili artır, onun yerini isə daha sürətli, qısa və səthi alternativlər tutur. İnsanlar uzun mətn oxumaq əvəzinə, qısa məlumatlara üstünlük verir, dərindən öyrənməkdənsə tez nəticə almağa çalışırlar.

Gənclər üçün dərsləri kitabdan oxumaq çətin və yorucu görünməyə başlayır, rəqəmsal məzmun isə daha asan və cəlbedici təsir bağışlayır. Təhsildə belə, kitabın yerini alternativ rəqəmsal resurslar alır. Hazırda təhsil son onilliklərin ən böyük rəqəmsal sınağından keçir və görünən odur ki, parlaq ekranların vəd etdiyi təhsil inqilabı bir çox inkişaf etmiş dövlətlər üçün böyük məyusluqla nəticələnib. Bu gün hətta texnologiyanın vətəni sayılan ölkələr belə, sinif otaqlarından rəqəmsal cihazları kənarlaşdırırlar.

Fransa, Niderland, Danimarka, İsveç bu sahədə ən erkən və sərt qanun qəbul edən ölkələrdəndir. Bu ölkələrdə şagirdlər dərs saatları ərzində telefonlarını məktəbə təhvil verir, müəllimlər isə dərsi yalnız kitabdan öyrətməyə çalışırlar. Bu ildən Cənubi Koreya və Çində də dərs prosesində elektron cihazlardan istifadə ciddi şəkildə tənzimlənəcək. Yaponiya da oxşar yanaşma tətbiq edir. Xüsusilə ibtidai siniflərdə rəqəmsal vasitələrdən istifadə məhdudlaşdırılır. Ölkəmizdə də dərs zamanı mobil telefonlardan istifadə qadağan edilib.

Bəs müasir dövrün sürət yarışında biz bir düymə ilə əldə edilən hazır məlumatla vaxt qazanmağa, yoxsa insanın öz iradəsi, zəhməti ilə qazandığı biliyə üstünlük verməliyik?



**Təhsil eksperti Məzahir Məmmədli vurğuladı ki, ən doğru yanaşma hibrid modeldir:**

– Əgər biz 20-30 il əvvəlki ilə indiki nəsli müqayisə etsək, arada ciddi fərqin olduğunu aydın görərik. Keçmişdə qəzet, kitab oxumaq, dərsləri yazaraq yadda saxlamaq gündəlik həyatın ayrılmaz hissəsi idi. Bu isə öyrənmə prosesini daha möhkəm və davamlı edirdi. Lakin bu gün elmi-texniki tərəqqi, xüsusilə süni intellektin həyatımıza sürətlə daxil olması vəziyyəti tamamilə dəyişib. Yeni nəsil artıq nəinki ənənəvi mütaliəyə zaman ayırır, hətta bəzən ailə-məişət məsələlərinə belə diqqəti göstərmir.

Dünyada artıq geniş yayılan bu tendensiya Azərbaycana da təsir göstərir. Təhsil sistemində elektron platformaların tətbiqi, rəqəmsal idarəetmə və onlayn resurslar bu dəyişimin hissəsidir. Hesab edirəm ki, həm müasir texnologiyanın imkanlarından istifadə edilməli, həm də ənənəvi təhsil formaları qorunub saxlanılmalıdır. Xüsusilə yazı mədəniyyətinin, düşünmə bacarığının və yaradıcılığın inkişafı üçün bu balans mütləq qorunmalıdır.

**Təqaüddə olan müəllim Sevinc Xəlilova söylədi ki, problem elektron cihazlarda deyil, onlara münasibətdədir:**



– Ömrümün çox hissəsini sinif otağında, lövhənin qarşısında keçirmişəm. Əvvəlcə, bunu anlamaq lazımdır ki, müəllimlik insan yetişdirmək sənətidir. Mən o dövrün müəllimiyəm ki, dərs otağında elekron vasitələr, internet yox idi, amma diqqət, maraq, düşünən beyinlər vardı.

Bu, o demək deyil ki, texnologiyaya qarşı çıxmaq lazımdır. Müasir dövrdə bu, mümkünsüzdür. Bu günün şagirdi məlumatı çox tez tapır, amma onu yadında saxlaya bilmir. Səbəbi sadədir: o, artıq əldə etdiyi bilgiyə dəyər vermir. Əvvəllər bir faktı öyrənmək üçün kitablar vərəqlənir, qeydlər aparılır, düzgün mənbələr axtarılırdı. İndi isə məlumat 5 saniyəyə tapılır, 15 saniyəyə unudulur. Bu, öyrənmə prosesinin sıradan çıxmasıdır. Ənənəvi təhsilin ən böyük silahı hüsnxət və mütaliə idi. İndi isə planşetləri, elektron lövhələri üstün tuturlar.

Mən bir dəfə dərsdə çox sadə sual verdim ki, "Nizami Gəncəvi hansı dövrdə yaşayıb?" Sözsüz ki, cavab internetdə var idi. Şagirdlərdən biri dedi ki, "müəllim, bunu araşdırmaq lazım deyil, onsuz da internetdə var". Qəribə səslənsə də, bu cümlə mənim qəlbimi qırdı. Çünki o şagird, əslində, belə deyirdi: "Düşünməyə ehtiyac yoxdur. Mənə lazım olan şey istənilən an əldə edə biləcəyim informasiyadır". O an başa düşdüm ki, problem texnologiyada yox, münasibətdədir.

İnsan əxz etdikləri və düşündükləri ilə formalaşır. Əgər bilik sənin yadında qalmırsa, sən onu oxuyub dərindən dərk etmirsənsə, demək, o, sənə aid deyil.

Mən bunu dəfələrlə yoxlamışam. Eyni mövzunu iki fərqli üsulla keçmişəm: biri slaydlarla, elektron təqdimat vasitələri ilə, biri isə sadə lövhə və sual-cavablarla. Bir həftə sonra sual verəndə, izahla keçilən dərsdən daha çox şey yadda qalmışdı. Çünki o dərsdə şagird düşünmüşdü, beynini yormuşdu, digərində isə sadəcə izləmişdi. Çalışıram ki, sualı bir az dəyişim, istiqamət göstərim. Bu proses vaxt aparır. Bəli, texnologiya ilə bunu daha tez etmək olar. Amma tez öyrənilən tez də unudulur.

Son illərdə təhsil sistemində ən ciddi dəyişikliklərdən biri kurikulum modelinə keçiddir. Məqsəd əzbərçiliyə əsaslanan təhsildən uzaqlaşmaq, şagirdi passiv dinləyicidən aktiv iştirakçıya çevirmək, bilikdən çox bacarıqlara üstünlük verməkdir. İdeya olaraq bu yanaşma müasir dövrün tələblərinə cavab verir. Çünki informasiya əlçatandır, əsas məsələ onu necə istifadə etməkdir. Kurikulum da məhz bunu hədəfləyir: şagirdin düşünməsi, analiz və tətbiq etməsi.

Bu baxımdan kurikulumun müsbət cəhətlərini danmaq olmaz. Şagird artıq sadəcə dinləmir, müzakirə edir, fikir bildirir. Qiymətləndirməyə gəlincə isə o yalnız imtahan nəticəsi ilə deyil, proses boyu göstərdiyi fəaliyyətlə dəyərləndirilir. Kurikulumun tətbiqində ciddi məqam bacarıqların inkişafı adı altında baza biliklərin arxa plana keçməsidir. Əgər şagirdin kifayət qədər biliyi yoxdursa, onun analiz etməsi də səthi olur.

Ən vacibi isə yazı məsələsidir. İndi şagirdlər yazı yazmaqdan qaçırlar. Çünki yazı düşünməyə məcbur edir, fikrini cilalamalı, ardıcıllıq qurmalısan . Ekranda isə hər şey silinə və dəyişdirilə bilər. Bu isə məsuliyyət hissini azaldır. Yazı zamanı insan səhv edir və o səhv üzərində düşünür. Niyə bu cümlə düzgün olmadı? Niyə fikir axmadı? Əlaqə harada qırıldı? Bu suallar insanı inkişaf etdirir. Və bəlkə də ən böyük fərq də elə buradadır: yazan insan düşünür, yazmayan isə hazır cavablarla kifayətlənir.

**Ekspert Qoşqar Məhərrəmovun fikrincə, rəqəmsal cihazlardan istifadə məhdudiyyətlər olduqda yaxşı nəticə verə bilər:**



– Ümumilikdə, insanların həyatından texnologiyanı tamamilə çıxarmaq mümkün deyil. Lakin məktəb mühiti öz mahiyyətinə görə fərqlidir. Burada ənənəvi tədris vasitələri – kitablar, iş vərəqləri, dəftərlər və əyani materiallar hələ də təhsil prosesinin təməl hissəsidir.

Bir çox ölkələrdə tədris prosesində planşet və digər rəqəmsal vasitələrdən istifadə olunur. Lakin bu texnologiyalardan istifadə ciddi nəzarət və məhdudiyyətlər çərçivəsində həyata keçirilir. Şagirdlər istədikləri saytlara daxil ola bilmirlər.

Əgər məktəbdə hər şagirdə planşet verilir və ya siniflərdə rəqəmsal cihazlardan istifadə olunursa, həmin sistemdə mütləq şəkildə məhdudiyyətlər və təhlükəsizlik mexanizmləri olmalıdır. Əks halda, bu vasitələr təhsil prosesini asanlaşdırmaq əvəzinə, çətinləşdirə və şagirdin diqqətini yayındıra bilər. Bu səbəbdən texnologiyanın təhsilə inteqrasiyası informasiya texnologiyaları və kibertəhlükəsizlik üzrə mütəxəssislərin iştirakı ilə həyata keçirilməlidir.

Əslində, biz çox vaxt problemin kökünü yanlış yerdə axtarırıq. Problem məktəbdən kənarda da formalaşır. Şagirdlər evdə daha çox ekran qarşısında vaxt keçirir, sosial şəbəkələrə, oyunlara və müxtəlif rəqəmsal platformalara daxil olurlar. Bir çoxunun artıq "TikTok" və "İnstagram" hesabları mövcuddur. Biz ekran asılılığı nəticəsində tədricən mütaliə mədəniyyətimizi itirmək təhlükəsi ilə üz-üzəyik: uşaqlar kitab oxumur, evlərdə jurnal və qəzetlərə rast gəlinmir, kitabların sayı isə olduqca azdır.

Azərbaycan gəncliyi üçün bu məsələnin əhəmiyyəti son dərəcə böyükdür. Çünki ekran asılılığı da psixoloji mexanizmlərlə işləyir, beyində gedən proseslər vasitəsilə formalaşır. Bu tarazlığı qorumağın əsas yolu ailədən başlayır. Valideynlər uşaqlara nəzarət etməli, onların nə izlədiyinə və nə ilə məşğul olduğuna diqqət yetirməlidirlər.

Eyni zamanda, təhsil sistemində texnologiyanın düzgün inteqrasiyası vacibdir. Sözsüz ki, məktəblər kompüter və planşetlərlə təmin olunmalı, sinif otaqları müasir texnoloji vasitələrlə zənginləşdirilməlidir. Lakin bu proses mütləq şəkildə peşəkar idarəetmə tələb edir. Hər məktəbdə informasiya texnologiyaları üzrə mütəxəssisin olması zəruridir ki, sistemlər düzgün qurulsun və təhlükəsiz şəkildə idarə edilsin, şagirdlər kitabdan uzaqlaşmasınlar.

***Fidan ƏLİYEVA***
***XQ***

*Nazir Rüstəmov - 70*

# Köçkün teatrın fədakar sənətkarı

**Təməli 1848-ci ildə qoyulmuş Şuşa teatrının çox uğurlu və həm də bəlalı tarixçəsi var. Belə ki, onun ərsəyə gəlməsində və tanıdılmasında Azərbaycan mədəniyyətinin çox görkəmli ziyalıları, unudulmaz simaları iştirak etmişlər. Otuz ildən çox "məcburi köçkün" kimi Bakıda məskunlaşan bu sənət məbədimiz bir gün də olsun öz fəaliyyətinə ara verməyib.**

Mən bu sətirləri qələmə alarkən qeyd etməyi vacib sayıram ki, ötən ilin yazından bəri üçüncü dəfədir bu sənət ocağında anşlaqla üzləşirəm. Bu dəfə söhbət açdığım tamaşada isə ayaq üstdə qalanlara minnətdarlıq etmək istəyirəm. Belə ki, birinci hissəsi dərin mənəvi-psixoloji prosesləri, dünyanın, demək olar ki, bütün xalqlarını narahat edən ailə dəyərlərinin aşınmalarını əks etdirən tamaşadan, ikinci hissəsi isə əsl teatr bayramından ibarət olan təqdimatın hər sözünün, hər notunun eşidilməsinə imkan verdilər.



Söhbət ondan gedir ki, aprelin 12-də Şuşa Dövlət Musiqili Dram Teatrında bu mədəniyyət ocağının rejissoru və aktyoru, Əməkdar artist, Cəfər Cabbarlı mükafatı laureatı Nazir Rüstəmovun 70 illik yubileyinə həsr edilmiş mükəmməl bir mərasimin tamaşaçısı olduq. Məclisdə yubilyarın quruluşçu rejissoru olduğu və əsas rollardan birini ifa etdiyi "Ümid işığı" tamaşası (yazıçı-publisist Zemfira Məhərrəmlinin əsəridir) oynanıldı. Bu tamaşanın uğurları barədə əvvəllər yazdığımıza görə indi ancaq axşamın yubiley hissəsində səsləndirilənləri qeyd etmək istəyirik.

Şuşa teatrının aktyoru, Əməkdar artist Teymur Məmmədov, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini, Əməkdar artist, professor Azad Şükürov, Şuşa Rayon İcra Hakimiyyətinin nümayəndəsi – Sənəd dövriyyəsi, vətəndaş müraciətləri və inzibati işlər şöbəsinin müdiri Qabil Kazımov, Əməkdar artist, Şuşa Dövlət Musiqili Dram Teatrı direktorunun vəzifəsini icra edən Azad Məmmədov, Əməkdar jurnalist, yazıçı-publisist, pedaqogika üzrə fəlsəfə doktoru, Yazıçılar Birliyinin üzvü Zemfira Məhərrəmli, Şuşa Teatrının aktrisası, Xalq artisti Şükufə Musayeva, AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Əsəd Cahangir, Dünya Gənc Türk Yazıçıları Birliyinin qurucu-başqanı Əkbər Qoşalı və başqaları çıxış edərək yubilyarın yaradıcılığından söz açdılar və ona yeni uğurlar arzuladılar.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin yubilyara ünvanladığı təbrik məktubu səsləndirildi, Nazir Rüstəmovun Azərbaycan Teatr Xadimləri İttifaqının "Teatr fədaisi" medalı ilə təltif edildiyi elan olundu, Şuşa Rayon İcra Hakimiyyətinin "Təşəkkürnaməsi" təqdim edildi.

Çıxışlarda qeyd edildi ki, Nazir Rüstəmov Ağdam Dövlət Dram Teatrında aktyor, rejissor, daha sonra isə bədii rəhbər vəzifəsində işləmişdir. Müxtəlif illərdə Sumqayıt Dövlət Musiqili Dram Teatrında, Füzuli Dövlət Dram Teatrında, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, Azərbaycan Dövlət Dərbənd Dram Teatrında və Ukraynanın Donetsk Dövlət Dram Teatrında aktyor və rejissor olaraq fəaliyyət göstərmişdir.

2003-cü ildən isə Şuşa Dövlət Musiqili Dram Teatrında ikinci dərəcəli quruluşçu rejissor vəzifəsində çalışır. İşlədiyi müddətdə Elçinin "Şuşa dağlarını duman bürüyüb", Əbdürrəhimbəy Haqverdiyevin "Dağılan tifaq", Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı", İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" və digər əsərlərdə baş rolu ifa etmiş, ona qədər tamaşanın isə quruluşçu rejissoru olmuşdur. Onun ən uğurlu rejissorluğu və aktyor oyunu isə məhz 70 illik yubileyi günü tamaşaçılara təqdim edilən "Ümid işığı" əsəri oldu. Nazir Rüstəmov, ümumiyyətlə, 120-dən çox tamaşada rol almışdır. Onun "Həm ziyarət, həm ticarət", "Bəsdir, ağlama", "Çinarlı şəhərin generalları" (birinci film (film), "Günaydın, mələyim!", "Seçilən", "Cavad xan", "Qaydasız döyüş", "Qardaşımdan yaxşısı yox idi", "Heydər Əliyev" filmlərində, "Həyat sən nə qəribəsən" və "Səni ürəyim sevdi" teleseriallarında yaratdığı obrazlar tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

Yubiley gecəsinin sonunda çıxış edən Nazir Rüstəmov Mədəniyyət Nazirliyinə, Şuşa Rayon İcra Hakimiyyətinə, Yazıçılar Birliyinə, Teatr Xadimləri İttifaqına, Şuşa Dövlət Musiqili Dram Teatrına və tamaşaçılara minnətdarlığını bildirdi.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

*Kino tariximiz*

# Əsrdən uzun bədii filmlər



**Kino da insan kimidir: yaranır, yaşayır, ya xoş xatirələrlə anılır, ya da unudulub gedir. Bu il Azərbaycan kinematoqrafiyasına öz möhürünü vurmuş bir sıra ekran əsərinin yubiley ilidir. Hər zaman həvəslə baxdığımız, epizodlarını, qəhrəmanlarının dialoq və replikalarını əzbər bildiyimiz həmin filmlər hansılardır?**

"Yubilyar" kinolentlərimizin ən "qocaman"ları 1916-cı ildə çəkilmiş "Arvad" və "Arvadlar ərlərini mənsəbə necə çatdırırlar", eləcə də "Neft və milyonlar səltənətində" adlı tammetrajli bədii filmlərdir. Doğrudur, buna qədər hələ 1898-ci ildə Bibiheybətdə və Balaxanıda neft fontanlarından çəkilmiş xronikal kadrlar və "İlişdin" adlı kiçik kinosüjet də olub və 2 avqust Milli Kino Günü də bu əsasda təsis edilib.

Adıçəkilən bütün kinolentlər ta 1935-ci ilədək çəkilmiş digər ekran işləri kimi, kinematoqrafiyanın "səssiz" dövrünə aiddir. Digər adı "Həyat yoldaşı" olan "Arvad" filmi yazıçı Artsıbaşovun "Ər" romanına ekran parodiyasıdır. Müəllifləri qeyri-türklər olan "Arvad"ın aktyor heyətində də heç bir soydaşımızın adına rast gəlmirik. "Arvadlar ərlərini mənsəbə necə çatdırırlar" filmində isə hətta ssenarist, rejissor və operator özləri də çəkiliblər, amma yenə də azərbaycanlı aktyorlar yoxdur. Bu kinolentlərin hər ikisi arxivlərdə itib-batıb.

Böyük milli dəyər kəsb edən "Neft və milyonlar səltənətində" tammetrajlı filmi isə ilk Azərbaycan bədii filmi sayılır. Çünki, əvvəla, maarifçi-pedaqoq, yazıçı İbrahimbəy Musabəyovun povesti əsasında çəkilib, titrləri Azərbaycan və rus dillərində yazılıb, üstəlik, görkəmli aktyor və rejissorumuz Hüseyn Ərəblinski bu filmdə Lütfəli bəy rolunda oynayıb. Məşhur xanəndə Cabbar Qaryağdıoğlu ilə tarzən Qurban Pirimov və kamança ifaçısı Məşədi Qulu kinodramın "Toy" və "Kazinoda şənlik" epizodlarında lentə alınıblar.

Daha bir maraqlı fakt: hələ film çəkilməmişdən əvvəl gənc şair-dramaturq Cəfər Cabbarlı aktyor Məmməd Əliliyə deyib ki, Peterburqdan kino çəkmək üçün Bakıya bir dəstə gələcək. Onlara hər cür kömək edək, qoy, azərbaycanlı aktyorlar, uşaqlar da çəkilişlərə cəlb olunsunlar. Bizlərdən də bir kino artisti çıxsın ortaya. Beləliklə, Məmməd Əlili və Balaxanı mollaxanalarından 5 uşaq kütləvi səhnələrdə yer alıb. Əlili həm də filmin qeyri-rəsmi rejissor köməkçisi olub.

Yeri gəlmişkən, "Neft və milyonlar səltənətində" Ərəblinskinin ilk və son filmi olsa da, 3 ay sonra həmin yaradıcı heyətin çəkdiyi "Knyaz Dəmir Bulat" bədii filmində daha bir soydaşımız – Abbas Mirzə Şərifzadə baş rolu ifa edib. Növbəti ildə lentə alınan "Arşın mal alan"ın ilk variantında isə artıq Hüseynqulu Sarabski, Əhməd Ağdamski, Ələkbər Hüseynzadə, Yunis Nərimanov, Mirzəağa Əliyev, Hənəfi Terequlov kimi Azərbaycan aktyorları rol alıblar.

Sosial kinodram neft Bakısının ötən əsrin əvvəllərindəki həyatı, müsəlman milyonçuların məişəti, dolanışıq üçün neft mədənlərində ən çətin şəraitdə işləyib yaşayan fəhlələrin ağır güzəranı haqqındadır. Kinokadrlarda baş verən bütün əhvalatlar əsərin qəhrəmanı Cəlilin (Vladimir Lenin) taleyi fonunda cərəyan edir. Bir təsadüf yoxsul və kimsəsiz Cəlilin varlı neft sahibkarına çevrilməsinə səbəb olur. Torpaqlar, gəmilər, şaxtalar alır. Lakin cilddən-cildə girməyi bacaran, pozğun və qəddar neft milyonçusu Lütfəli ilə dostluq etməsi sonda onun məhvinə səbəb olur. Burjua cəmiyyətinin ali təbəqəsinə qədər yüksələn kasıb balasının burada özünə yer tapa bilməməsi və buna mənən hazır olmaması onun faciəsi ilə nəticələnir.

Lütfəli bəyin təsiri ilə Cəlil sərxoşluğa, qumara və daha pis əməllərə qurşanır, sirkdə atçapan olan gözəl Regina Lazareva ilə yaxınlıq edərək ona külli miqdarda pul xərcləyir. Lütfəlinin fırıldaq ortağı Regina Cəlillə birlikdə səyahətə çıxır və onun pullarını götürüb qaçır. Cəlil ayılıb özünü müflis görür.

Bu müddət ərzində hiyləgər Lütfəli bəy onun mülkünü ələ keçirir. Bakıya qayıdan Cəlil ailəsinin ağır günlərə düçar olduğunu görür və ürəyi partlayır. Cəlilin ölümündən xəbər tutan Lütfəli bəy onun arvadı Şəfiqəyə evlənmək təklif edir. Şəfiqə isə onu bıçaqla vurub öldürür…

Qeyd edək ki, 110 yaşlı "Neft və milyonlar səltənətində" filmindəki təbiət mənzərələri Bakı və ətrafında – Balaxanı, Binəqədi, Zığ kəndlərində, eləcə də bəzi epizodlar Bayılda və Xəzərin sahillərində çəkilib. Balaxanıda neft mədənlərində baş vermiş yanğından xronikal kadrlar da filmə daxil edilib. Hadisələr və təsvirlər seyrçidə 1 əsr əvvəlki dövrün ab-havası barədə müəyyən təsəvvürlər yaradır.

"Knyaz Dəmir Bulat" filminə gəlincə, həmin kinoroman Xəzər dənizçilərinin həyatından bəhs edir. Film mürəkkəb insani münasibətlər, məişət şərtilikləri, onun mövcud olan və illərdən bəri müqəddəs sayılan adi qaydaları haqqındadır. Bu qaydaların pozulması faciəli nəticələrə gətirib çıxarır.

Eyni müəlliflərin 110 il əvvəl Bakıda çəkdikləri daha bir film isə "Ölümünə bir saat qalmış" adlanır. Məhkəmə xronikasından ibarət əhvalatın təsvir olunduğu bu dramaturji kinolent qısametrajlı idi və 1916-cı ilin sentyabrında ilk baxışı olub. Rollarda heç bir Azərbaycan aktyoru çıxış etməyib. Təəssüf ki, mənbələrdən bu kinodram haqqında ətraflı məlumat tapa bilmədik.

*(ardı var)*

***Ə.DOSTƏLİ***
***XQ***

# "Mediada Azərbaycan dili"

**"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin nəzdində fəaliyyət göstərən Teleradio Akademiyası "Mediada Azərbaycan dili" mövzusunda Lənkəran Dövlət Peşə Təhsili Mərkəzində təlim keçirib. Təhsil müəssisəsinin rəhbəri Afər Kərimli tədbir iştirakçılarını salamlayaraq mərkəzin fəaliyyəti barədə məlumat verib.**



Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər sektorunun müdiri Sehran Alışov ana dilimizin saflığının qorunmasında və zənginləşdirilməsində dövlət dəstəyinin rolundan danışıb.

Teleradio Akademiyasının rektoru Almaz Mahmud regionlarda Qubadan sonra ikinci tədbirin Lənkəran şəhərində keçirildiyini bildirib. Ana dilimizin qorunmasında medianın rolunun sürətlə artdığını, düzgün yazı və səlis nitqin təkcə jurnalistlər üçün deyil, hər bir vətəndaş üçün vacib olduğunu vurğulayıb.

Təcrübəli diktor Sevda Ağazadə qeyd edib ki, müasir jurnalistika informasiya ötürməklə yanaşı, həm də ictimai rəyi formalaşdırır, cəmiyyətin həyatına müsbət təsir göstərir.

AzTV-nin xəbər aparıcısı, nitq mədəniyyəti mütəxəssisi Mümtaz Xəlilzadə televiziya və radio kanallarında, mətbuatda Azərbaycan dilinin istifadəsi zamanı yol verilən nöqsanlardan, qarşıda duran vəzifələrdən danışıb.

AMEA Mərkəzi Elmi Kitabxanasının direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Şəhla Quliyeva media orqanlarında orfoqrafiya qaydalarına əməl olunması, terminlərdən düzgün istifadə edilməsi barədə fikir və düşüncələrini söyləyib.

Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin sədri, birliyin ədəbi-bədii, publisistik orqanı olan "Şəfəq" jurnalının baş redaktoru Qafar Cəfərli, "Lənkəran" qəzetinin baş redaktoru Əlimərdan Əliyev, "Aşkarlıq" qəzetinin baş redaktoru Etibar Əhədov, Lənkəran Dövlət Universitetinin mətbuat xidmətinin rəhbəri Esmira Ağayeva, aparıcı televiziya kanallarının bölgə əməkdaşlarından İsmayıl Cəfərli, Pərvanə Nəhmətqızı, Nuranə Əliyeva, veteran jurnalist Bəxtiyar Hüseynov dilimizin saflığının qorunmasında medianın rolundan, mediada mövcud dil problemlərindən söhbət açaraq fikir və təkliflərini söyləyiblər.

***Ə.HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Fəzail İbrahimli – 75*

# Ziyalılıq örnəyinə çevrilən ömür

**Tanınmış tarixçi alim və nüfuzlu ictimai-siyasi xadim Fəzail İbrahimlinin 75 yaşı tamam olur. Vətəndaş Həmrəyliyi Partiyasından Milli Məclisin deputatı, BDU-nun professoru Fəzail İbrahimlinin ömür yolu bir insanın yaşadığı illərin yekunu deyil, həm də müəllimlik ləyaqətinin, milli tarixçiliyin, fəal deputatlıq nümunəsinin və əsl ziyalılığın bir insan həyatında ahəngdar surətdə mənəvi dəyərə çevrilməsidir.**



İnsan ömrünün həqiqi dəyəri yalnız təqvimdə sıralanan illərlə ölçülmür. Ömrün sanbalı onun hansı mənaya çevrilməsində, hansı amal uğrunda yaşamasında, cəmiyyətə nə verməsində, insanların qəlbində və yaddaşında hansı iz qoymasında əksini tapır. Elə ömürlər var ki, onlar sadəcə yaşanmış həyat deyil, həm də bir məktəb, bir örnək, bir mənəvi irs təsiri bağışlayır. Fəzail İbrahimli 75 illik ömrünü məhz belə yaşayıb. Bu yolda elm də, müəllimlik də, milli düşüncə də, vətəndaş məsuliyyəti də, dövlətə və xalqa sədaqətlə xidmət də var. Bu yolun hər mərhələsində bir insanın yalnız öz taleyini deyil, həm də yaşadığı dövr və cəmiyyət qarşısında mənəvi borcunu necə dərk etməsini görmək mümkündür.

Fəzail İbrahimli təkcə ictimai-siyasi fəaliyyəti ilə tanınan bir şəxsiyyət deyil. O, hər şeydən əvvəl, müəllim adını uca tutan, biliyi mənəvi sərvətə, düşüncəni cəmiyyət üçün faydaya çevirən bir ziyalıdır. Müəllimlik onun həyatında, sadəcə, bir peşə, bir fəaliyyət sahəsi olmayıb, mənəvi varlığının ayrılmaz hissəsinə çevrilib. Əsl müəllim həm də düşüncə formalaşdıran, xarakter yetişdirən, cəmiyyətə istiqamət verən, nəsillər arasında mənəvi körpü yaradan şəxsdir. Fəzail İbrahimlinin ömür yoluna bu prizmadan baxdıqda aydın görünür ki, o, müəllim adının yalnız daşıyıcısı olmayıb, həm də onu öz fəaliyyəti, davranışı, nitqi, mövqeyi ilə doğruldan insanlardan olub.

Onun haqqında danışarkən müəllim ləyaqəti anlayışı xüsusi olaraq vurğulanmalıdır. O, sözü ilə, düşüncə tərzi ilə, insanlara münasibəti ilə, elmi yanaşması ilə müəllim adının daşıdığı mənəvi ağırlığı qoruyub. Buna görə də onun adı çəkiləndə təkcə siyasi fəaliyyət yada düşmür; onunla yanaşı, müəllim əxlaqı, ziyalı təmkini, düşüncə mədəniyyəti və mənəvi sanbal da xatırlanır.

Fəzail müəllimin həyat yolunda milli tarixçiliyin xüsusi və əvəzsiz yeri var. Tarix yalnız keçmişin hadisələrini sadalamaq deyil, xalqın yaddaşını qorumaq, milli kimliyin köklərini yaşatmaq, bu günün və sabahın düşüncə əsaslarını möhkəmləndirməkdir. Tarixə bağlılıq, əslində, millətin özünüdərkidir. Fəzail İbrahimli də tarixə məhz bu dərinliklə yanaşan, onu quru faktların düzümü kimi deyil, xalqın taleyinin, dövlətçilik iradəsinin, milli mənəviyyatın aynası kimi dərk edən simalardandır.

Tarixçi alimin dünənə baxışında yalnız keçmişi anlamaq yox, həm də milli yaddaşı diri saxlamaq, cəmiyyətə tarixi şüur aşılamaq, köklərə bağlılığı qorumaq missiyası dayanır. Bu baxımdan, o, milli tarixçi kimi təkcə elmi fikir sahəsində deyil, həm də ictimai şüurun formalaşmasında özünəməxsus yer tutan şəxsiyyətlərdəndir.

Milli tarixçi olmaq, sadəcə, tarix elmini bilmək demək deyil. Bu, həm də zamanın axarında millətin yaddaşını qorumağı bacarmaq, keçmişi bu günün məsuliyyəti ilə bağlamaq, tarixin dərslərini cəmiyyət üçün mənəvi istiqamətə çevirmək deməkdir. Fəzail İbrahimlinin fəaliyyətində bu keyfiyyətlər aydın görünür. O, tarixə elmi səliqə ilə yanaşan alim olmaqla yanaşı, onu milli təfəkkürün mühüm dayaqlarından biri kimi dəyərləndirən ziyalı mövqeyi sərgiləyib.

Fəzail İbrahimlinin ictimai-siyasi fəaliyyəti də onun şəxsiyyətini tamamlayan mühüm istiqamətlərdən biridir. O, ictimai həyatın müxtəlif məqamlarında hər zaman fəallığı, prinsipiallığı və aydın mövqeyi ilə seçilib. Fəal deputat olmaq, hər şeydən əvvəl, dövlət, xalq və cəmiyyət üçün əhəmiyyətli məsələlərə biganə qalmamaq, zamanın çağırışlarına münasibət bildirmək, milli maraqları qətiyyətlə müdafiə etmək, sözün məsuliyyətini dərk edərək danışmaq deməkdir. Fəzail İbrahimli məhz belə bir ictimai-siyasi obraz formalaşdırıb.

Bu fəaliyyətin əsas özəlliyi ondadır ki, burada vəzifə ambisiyası deyil, mövqe aydınlığı, vətəndaş məsuliyyəti və dövlətə xidmət niyyəti daha qabarıq hiss olunur. Cəmiyyətin müxtəlif məsələlərinə münasibətdə nümayiş etdirdiyi həssaslıq, ictimai proseslərə laqeyd qalmaması, milli dəyərlərə bağlı mövqeyi onun fəal deputat kimi tanınmasını şərtləndirən əsas cəhətlərdəndir.

Əsl ziyalı yaşadığı dövrün tələblərini dərk edən, amma köklərindən qopmayan, cəmiyyətin ağrılarını duyan, xalqın taleyinə biganə qalmayan, şəxsi maraqlarını ümumi mənəvi borcdan üstün tutmayan şəxsdir. Fəzail İbrahimlinin həyat yolu bu anlayışların canlı təcəssümü kimi görünür. Onun şəxsiyyətində alim təfəkkürü, müəllim nəcibliyi, ziyalı mədəniyyəti və ictimai xadim məsuliyyəti bir ahəng içində birləşir. Məhz buna görə də onun adı çəkiləndə insan təkcə bir elm adamını, bir siyasətçini və ya bir müəllimi xatırlamır; eyni zamanda, bu xüsusiyyətlərin bütöv vəhdətinə çevrilmiş bir ziyalı obrazını görür.

Fəzail İbrahimlinin həyatının mühüm cəhətlərindən biri də ondadır ki, bu ömür yolu zəhmətin, ardıcıllığın, təmkinin, elmi axtarışın, mənəvi möhkəmliyin və ictimai məsuliyyətin nəticəsidir. Belə ömürlər asan formalaşmır. Belə həyat yolları illər boyu qazanılmış təcrübənin, düşüncə zəhmətinin, daxili intizamın və mənəvi sədaqətin bəhrəsi olur. Onun keçdiyi yol göstərir ki, əsl nüfuz və əsl hörmət səs-küylə deyil, xidmətlə qazanılır.

Bu baxımdan Fəzail İbrahimlinin 75 illik ömrü yalnız bir insanın yaşadığı illərin yekunu deyil, həm də müəllimlik ləyaqətinin, milli tarixçiliyin, fəal deputatlıq nümunəsinin və əsl ziyalılığın bir ömürdə qovuşduğu mənəvi salnamədir. Bu salnamədə insanın cəmiyyət qarşısında daşıdığı məsuliyyət aydın görünür. Bu salnamədə biliyin necə dəyərə, sözün necə mövqeyə, mövqenin necə etimada çevrildiyini müşahidə etmək mümkündür. Bu baxımdan onun yubileyi mənalı bir ömrün cəmiyyət tərəfindən ehtiramla dəyərləndirilməsidir.

Belə yubileylər həm də bir ömür yoluna dönüb baxmaq, o yolun cəmiyyət üçün ifadə etdiyi mənanı bir daha dərk etmək fürsətidir. Fəzail İbrahimlinin ömür yolu göstərir ki, insanın böyüklüyü yalnız tutduğu mövqedə deyil, həmin mövqeyə hansı əxlaqla, hansı düşüncə ilə, hansı mənəvi təməl üzərində gəlib çatmasındadır.

Fəzail İbrahimlinin 75 illik yubileyi münasibətilə ona möhkəm cansağlığı, uzun ömür, mənalı və məhsuldar həyatının davamını arzulamaq ən səmimi diləklərdən biridir. Onun keçdiyi yol bundan sonra da müəllim ləyaqətinin, milli tarixə bağlılığın, fəal ictimai mövqenin və əsl ziyalılığın örnəyi kimi davam edəcək.

***Nəsimi ŞƏRƏFXANLI***

## “Neftmaştəmir” ASC səhmdarlarının nəzərinə!

5 iyun 2026-cı il saat 15:00-da **“Neftmaştəmir” ASC** səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Ümumi yığıncağın gündəliyinin təsdiq edilməsi.

**2.** Səhmdar cəmiyyətin 2025-ci ilin yekunları ilə bağlı maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı və cəmiyyətin 2025-ci il üzrə illik hesabatlarının təsdiqi.

**3.** Müəssisənin gəlir və zərəri haqqında məlumat.

**4.** Digər məsələlər.

**Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.**

Eyni zamanda səhmdarların nəzərinə çatdırılır ki, nağdsız hesablaşmalar haqqında Azərbaycan Respublikası Qanununun 3.4.4-cü bəndinə uyğun olaraq bank rekvizitlərinin və şəxsiyyət vəsiqələrinin surətlərini ASC mühasibatlığına, yaxud neftmashtemir @mail.ru elektron ünvanına təqdim etsinlər.

**İclasın keçiriləcəyi ünvan:** Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Oktyabr küçəsi 52, “Neftmaştəmir” ASC-nin iclas otağı.

**Əlaqə telefonları:** (012) 550 27 86, (012) 550 33 00.

**“Neftmaştəmir” ASC-nin direktoru - S.Y.Səmədov.**

## “Simurq Kompani” ASC səhmdarlarının nəzərinə!

“Simurq Kompani” ASC səhmdarlarının 2025-ci ilin yekunlarına həsr edilmiş illik ümumi yığıncağı 27 iyun 2026-cı il saat 12:00-da Gəncə şəhəri, Heydər Əliyev prospekti 170 nömrəli ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin müşahidə şurasının 2025-ci ilin yekunlarına aid hesabatı.

**2.** Təftiş komissiyasının 2025-ci ilin yekunlarına aid hesabatı.

Gündəlikdəki məsələlərin materialları ilə 2026-cı il iyunun 12-dək cəmiyyətin ofisində tanış olmaq mümkündür.

**“Simurq Kompani” ASC-nin müşahidə şurası.**

# Hörmüz üzərində şimşək çaxır

## *Qlobal təhlükəsizliyə yeni zərbə*



**ABŞ və İran arasında münasibətlərdə paralel şəkildə həm eskalasiya, həm də dialoq cəhdlərinin müşahidə olunması regionda qeyri-müəyyənliyi artırıb. Hörmüz boğazı ətrafında yaranan təhlükəli dinamika qlobal ticarət və enerji təhlükəsizliyi baxımından vəziyyəti beynəlxalq gündəmin mərkəzinə daşıyıb. Xarici medianın məlumatlarından görürük ki, vasitəçi ölkələrin fəallaşması və razılaşma ümidlərinin qorunması böhranın idarəolunan mərhələdə saxlanılmasına hesablanıb.**

**“The Wall Street Journal”:** Həm İran, həm də ABŞ tərəfinin sərt bəyanatlarına baxmayaraq, diplomatiya qapıları açıq qalır. Qəzet, həmçinin qeyd edib ki, region ölkələri gərginliyi cilovlamaq və gərginliyin daha da artmasının qarşısını almaq məqsədilə ABŞ və İranı yenidən danışıqlar masasına qaytarmağa çalışır.

**“Reuters”:** ABŞ-də İranın qadın və ailə məsələləri üzrə keçmiş vitse-prezidenti Məsumə Ebtikarın oğlu İsa Haşimi saxlanılıb və daimi rezident statusundan məhrum edilib. Bu barədə ABŞ Dövlət Departamentinin bəyanatında deyilir. Məlumata görə, Haşimi ilə birlikdə onun həyat yoldaşı və oğlu da saxlanılıb. Hazırda onlar deportasiya edilməyi gözləyirlər. Dövlət Departamentindən bildirilib ki, onlar 2014-cü ildə ABŞ-a gəliblər, 2016-cı ildə “Green card” alıblar.

**“BBC”:** ABŞ Prezidenti Donald Tramp və onun müşavirləri Hörmüz boğazının blokadası ilə yanaşı, İrana məhdud hərbi zərbələrin bərpası imkanını araşdırırlar. Bu, Trampın Pakistandakı danışıqların fiaskoya uğramasından sonra, aprelin 12-də nəzərdən keçirdiyi variantlardan biridir. Qeyd edilir ki, Tramp genişmiqyaslı bombardman kampaniyasına qayıda bilər. Amma bu, regionda qeyri-sabitliyin artması riski və prezidentin uzunmüddətli hərbi münaqişəyə cəlb olunmaq istəməməsi səbəbindən ən az ehtimal olunan variant sayılır.

**“Mehr”:** İran Hərbi Dəniz Qüvvələrinin komandanı Şəhram İrani ABŞ Prezidenti Donald Trampın Hörmüz boğazını blokadaya almaqla bağlı təhdidini "absurd və gülünc" adlandırıb. Onun sözlərinə görə, İran Hərbi Dəniz Qüvvələri ABŞ Silahlı Qüvvələrinin regiondakı bütün hərəkətlərini nəzarətdə saxlayır.

**“Tasnim”:** İran ABŞ və İsraillə əlaqəli gəmilərin Hörmüz boğazından keçməsinə tam qadağa qoyur. Bunu İran Silahlı Qüvvələrinin "Xatəm əl-Ənbiya" mərkəzi qərargahının nümayəndəsi İbrahim Zülfüqari bəyan edib: “Düşmən gəmilərinin Hörmüz boğazından keçmək hüququ yoxdur və olmayacaq, digər gəmilər isə İran İran Silahlı Qüvvələrinin qaydalarına riayət etməklə əvvəlki kimi boğazdan keçmək hüququna malikdir”, - o bildirib.

**“Al Jazeera”:** İsrail Müdafiə Ordusu Livanın cənubunda radikal "Hizbullah" qruplaşmasının hərbi infrastrukturuna qarşı quru əməliyyatlarını genişləndirir. Bu barədə ordunun mətbuat xidməti məlumat yayıb. Mətbuat xidməti bildirib ki, İsrail ordusu Livanın cənub bölgəsində qruplaşmanın 100-dən çox üzvünü öldürüb, "Hizbullah"ın onlarla infrastruktur obyektini sıradan çıxarıb və yüzlərlə müxtəlif növ silah aşkar edib.

**“IRNA”:** İranın xarici işlər naziri Abbas Əraqçi səudiyyə ərəbistanlı həmkarı Feysal bin Fərhan Əl Səud ilə telefon danışığı aparıb. Danışıq zamanı tərəflər regiondakı hadisələri, İslamabad danışıqlarını müzakirə ediblər.

**“Axios”:** Misir, Pakistan və Türkiyədən olan vasitəçilər yaxın günlərdə ABŞ və İran arasında mövcud fikir ayrılıqlarını aradan qaldırmaq və aprelin 21-də atəşkəs razılaşmasının müddəti bitənədək sülh sazişinə nail olmaq məqsədilə danışıqların yeni raundunu təşkil etməyi planlaşdırır: “Bütün tərəflər hələ də razılaşmanı mümkün hesab edirlər. Vasitəçilər ümid edirlər ki, fikir ayrılıqlarının azaldılması aprelin 21-də atəşkəs razılaşmasının müddəti bitənədək danışıqların daha bir raundunun keçirilməsinə imkan verəcək”.

**“Anadolu Agentliyi”:** Həm ABŞ, həm də İran atəşkəs mövzusunda səmimidir. Bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan "Anadolu" Agentliyinin proqramında suala cavabında deyib. O bildirib ki, tərəflərin razılığı ilə atəşkəs müddətinin uzadılması müzakirə edilə bilər. XİN rəhbəri günboyu tərəflərlə müntəzəm əlaqə saxladıqlarını əlavə edib. O, Hörmüz boğazı ilə bağlı suala cavabında buradan ölkələrin ödənişsiz keçməli və keçidə maneə törədilməməli olduğunu qeyd edib.

**“Politico”:** Fransa Prezidenti Emmanuel Makron bildirib ki, Paris Londonla birgə yaxın günlərdə hərbi əməliyyatlar dayandırıldıqdan sonra Hörmüz boğazında müdafiə missiyasında iştirak etməyə hazır olan ölkələrin konfransını təşkil etməyi planlaşdırır. Bu barədə o, "X" şəbəkəsində yazıb: “Hörmüz boğazına gəldikdə, yaxın günlərdə Birləşmiş Krallıqla birlikdə boğazda naviqasiya azadlığının bərpasına yönəlmiş dinc çoxmillətli missiyaya bizimlə birgə öz töhfəsini verməyə hazır olan ölkələrlə konfrans təşkil edəcəyik. Bu, münaqişədə döyüşən tərəflərdən ayrı olan, yalnız müdafiə xarakterli missiyadır və şərait imkan verən kimi yerləşdirilməsi nəzərdə tutulur”.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

# Yaxın Şərqdə “şiddət” qlobal iqtisadiyyatı “tormoz”layır

## *Blokadaya qarşı blokada “bağlı kilidi” açacaqmı?*

**Ötən həftəsonu dünya ictimaiyyətinin diqqəti İslamabad şəhərinə yönəlmişdi. Pakistanın vasitəçiliyi ilə ABŞ və İran rəsmiləri arasında keçirilən görüşdə razılaşma əldə olunacağı təqdirdə, qlobal iqtisadiyyatın yenidən sabit axarına qayıda bilərdi. Xüsusilə, Vaşinqton və Tehranın uranın zənginləşdirilməsi və Hörmüz boğazı ilə bağlı məsələlərdə ortaq məxrəcə gəlməsi halında digər fikir ayrılıqlarının ikinci plana keçəcəyi ehtimal olunurdu. Lakin 14 günlük atəşkəs fonunda aparılan danışıqların ilk raundu nəticəsiz başa çatdı.**

Belə ki, ABŞ nümayəndə heyətinə rəhbərlik edən vitse-prezident Cey. Di. Vens bəyan etdi ki, İran nüvə silahı əldə etmək imkanından imtina etməyib. İran tərəfi isə əksinə, Vaşinqtonun etimad yaratmaq üçün daha ciddi addımlar atmalı olduğunu vurğulayıb. Eyni zamanda, Pakistan rəsmiləri gərginliyin yenidən artmaması üçün tərəfləri təmkinli olmağa çağıraraq yeni danışıqlar mərhələsinin təşkilinə çalışacaqlarını bildirdilər. Xarici işlər naziri İshaq Dar isə atəşkəs öhdəliklərinə riayət olunmasının vacibliyini xüsusi qeyd etdi.

Digər tərəfdən, nüfuzlu “The Guardian” nəşri pakistanlı mənbələrə istinadən yazır ki, 21 saat davam edən danışıqlar gərgin və dəyişkən atmosferdə keçib, tərəflər arasında emosional dalğalanmalar müşahidə olunub. Nəticədə, görüş bazar günü səhər saatlarında uğursuz başa çatdıqdan sonra tərəflər yenidən sərt ritorikaya qayıdıblar. Məhz bundan sonra vəziyyət daha da kəskinləşib. ABŞ Prezidenti Donald Tramp strateji əhəmiyyətli Hörmüz boğazına nəzarəti ələ keçirmək məqsədilə bu su yolunun blokadaya alınacağını bəyan edib. Onun sözlərinə görə, ABŞ hərbi gəmiləri münaqişə başlayandan sonra İrana ödəniş etmiş bütün gəmiləri müəyyən edərək saxlayacaq, eyni zamanda, Tehran tərəfindən “təhlükəli zona” elan edilən ərazilərdə mina təmizləmə əməliyyatları aparacaq. Bununla belə, boğazda yerləşdirilən minaların sayı barədə dəqiq məlumat yoxdur.

Çin Hörmüz boğazının blokadaya alınmasının beynəlxalq ictimaiyyətin maraqlarına zidd olduğunu bəyan edərək bütün tərəfləri təmkinli davranmağa çağırıb. Rəsmi Pekin hesab edir ki, belə bir addım qlobal enerji təhlükəsizliyinə ciddi risklər yarada bilər. Qeyd edək ki, müharibədən əvvəl İran neft ixracının böyük hissəsi dünyanın ən iri xam neft idxalçısı olan Çinə yönəlirdi ki, bu da Pekinin mövqeyini daha həssas edir. Bu kontekstdə, Çinin xarici işlər naziri Vang Yi Pekində BƏƏ Prezidentinin Çin üzrə xüsusi elçisi Xaldun Xəlifə əl-Mübarəklə görüşü zamanı bildirib ki, Hörmüz boğazı üzərində hər hansı blokada təşəbbüsü ümumi beynəlxalq maraqlara xidmət etmir. Onun sözlərinə görə, Çin Körfəz Ərəb dövlətlərinin təhlükəsizlik narahatlıqlarını anlayır və böhranın həlli yalnız siyasi-diplomatik vasitələrlə, davamlı və hərtərəfli atəşkəs əsasında mümkündür.



Bu arada mövcud gərginliyin iqtisadi təsirləri də özünü açıq şəkildə göstərir. Məlumata görə, ABŞ və İsrailin İrana qarşı hava zərbələrindən sonra təxminən 100 tanker Hörmüz boğazından keçərək hər dəfə 2 milyon dollara qədər ödəniş edib. Bu gəmilərin əksəriyyəti İran neft məhsullarını Çin və Hindistana daşıyırdı ki, onların qarşısının alınması ABŞ-ın bu ölkələrlə münasibətlərinə əlavə təzyiq yarada bilər.

Eyni kontekstdə, ABŞ prezidentinin blokada qərarı enerji bazarlarında qiymət artımına səbəb olub. Aprelin 13-nə olan məlumata görə, Londonun ICE birjasında “Brent” markalı neftin bir barelinin qiyməti 6,54 dollar artaraq 101,74 dollara, Nyu-Yorkun NYMEX birjasında isə “Light” markalı neft 7,44 dollar bahalaşaraq 104,01 dollara çatıb. “Financial Times”a danışan “Energy Aspects” şirkətinin analitiki Amrita Sen bildirib ki, real blokada baş verməsə belə, bazarda gündəlik neft çatışmazlığı 10 milyon bareldən 11,7 milyon barelə yüksələ və qiymətlər 110 dolları keçə bilər.

Digər tərəfdən, yaranmış vəziyyət ən çox Asiya bazarına təsir göstərir. Əvvəllər sanksiyalar səbəbindən Yaxın Şərqə yönələn Hindistan, hazırda həm müharibə, həm də boğazdakı məhdudiyyətlər səbəbindən çətinliklərlə üzləşib. Xarici nəşrlər yazır ki, ölkənin iri neftayırma zavodları ABŞ-ın Rusiyaya qarşı sanksiyaları müvəqqəti yumşaldacağına ümid edir. 2026-cı ilin əvvəlindən Hindistanın Rusiyadan gündəlik neft idxalı 1,98 milyon barel təşkil edib.

Körfəzdəki müharibə fonunda yaranan qıtlıq səbəbindən sutkada emal gücü 400 min barel olan “Nayara energy” zavodu fəaliyyətini dayandırıb. İslamabadda başlayan danışıqlar zavodun yenidən işə düşəcəyi ilə bağlı ümid yaratsa da, nəticəsiz yekun bu prosesi də qeyri-müəyyən vəziyyətdə saxlayıb. Qeyd edək ki, aprelin əvvəlindən bu günə qədər Hindistan Rusiyadan ümumilikdə 60 milyon barel neft idxal edib.

Nəhayət, məsələnin başqa bir mühüm aspekti İranın boğazdan keçən gəmilər üçün rüsum tətbiq etmək planları ilə bağlıdır. ABŞ və Avropa mediası bu təşəbbüsün əlavə risklər yaratdığını bildirir. Ekspertlərin fikrincə, belə bir addım neftin qiymətini daha da artıracaq, çünki əlavə xərclər birbaşa bazar qiymətlərinə yansıyacaq. Üstəlik, hərbi gərginlikdən əvvəl bu marşrutdan ildə 20 mindən çox gəmi istifadə edirdi.

Bu kontekstdə, “Frontier Investments” şirkətinin rəhbəri Lui LaValle hesab edir ki, rüsum mexanizmi praktik baxımdan mümkündür. Onun hesablamasına görə, 2,2 milyon barel neft daşıyan tankerdən hər barelə 1 dollar tutulması 2,2 milyon dollar gəlir deməkdir. Neftin bir barelinin 90 dollar olduğu halda, ümumi yükün dəyəri 198 milyon dollar təşkil edir və bu fonda belə rüsumun ödənilməsi real görünür.

Bu yanaşma ilə İranın illik əlavə gəlirinin 7 milyard dollara çata biləcəyi bildirilir. İran parlamentinin Milli Təhlükəsizlik Komitəsinin üzvü Əlaəddin Borucərdi isə bununla bağlı qanun layihəsinin hazırlandığını və yaxın vaxtlarda müzakirəyə çıxarılacağını açıqlayıb. Bununla yanaşı, Tehran keçid rüsumlarının ABŞ dolları əvəzinə Çin yuanı ilə ödənilməsini tələb edir.

***Musa BAĞIRLI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 62 (31031) 14 aprel 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### “Sabah” liderliyini möhkəmlətdi

**Misli Premyer Liqasının XXVII turu başa çatıb. Son oyun günündə “Turan Tovuz” “Sumqayıt”la qarşılaşıb. Tovuz şəhər stadionunda ev sahiblərinin heyətində Filip Ozobiç 19-cu dəqiqədə hesabı açıb –1:0. Oyunun 50-ci dəqiqəsində Joarlem Santos fərq 2-yə çatdırıb.**



64-cü dəqiqədə isə buraxılan qollardan birinin əvəzini çıxıb. Rayan Senhadjinin başla vurduğu qol qarşılaşmanın yekun nəticəsini müəyyənləşdirib–2:1. Kurban Berdıyevin rəhbərlik etdiyi kollektiv xallarının sayını 52-yə çatdıraraq üçüncü pillədəki yerini möhkəmləndirib. “Sumqayıt” isə 32 xalla yeddincidir.

Turun əvvəlki matçlarında “Karvan-Yevlax” “Kəpəz”i (4:1), “Neftçi” “Araz-Naxçıvan”ı (2:1), “İmişli” “Qəbələ”ni (1:0) məğlub edib. “Şamaxı” – “Qarabağ” (0:0) və “Sabah” – “Zirə” (2:2) qarşılaşmalarında qalib müəyyənləşməyib.

Bu turdan sonra “Sabah” 66 xalla turnir cədvəlinə başçılıq edir. 2-ci pillədə yer alan “Qarabağ”ın 56 xallı var.

### Gimnastlarımızın tarixi uğuru

**8-12 aprel tarixlərində Portuqaliyanın Portimao şəhərində keçirilən batut gimnastikası və tamblinq üzrə Avropa Çempionatı Azərbaycan gimnastları üçün əlamətdar olub.**



Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, təsnifat mərhələlərindən uğurla keçən gimnastlarımız bir sıra kateqoriyalar üzrə yarımfinal və final mərhələlərində mübarizə aparıblar. Batut gimnastikası üzrə fərdi proqramda Selcan Mahsudova çempionatı 56.550 xalla 4-cü, Maqsud Mahsudov isə 60.080 xalla 6-cı pillədə tamamlayıb.

Komanda yarışlarında həm gənclər, həm də böyüklərdən ibarət heyətlərimiz final mərhələsinə vəsiqə qazanaraq tarixi nailiyyətə imza atıblar. Böyüklərdən ibarət komanda finalda 4-cü yeri tutaraq yüksək nəticə göstərib.

Sinxron proqramlarda – ikili-mini batut üzrə gənclərdən ibarət komandamız finala yüksələrək Azərbaycan gimnastikası tarixində yeni səhifə açıb. Eyni zamanda, Ammar Baxşalıyev fərdi proqramda finalda mübarizə aparıb.

Tamblinq üzrə çıxışlar xüsusilə yaddaqalan olub. Komandamız final mərhələsində yüksək nəticə göstərərək gümüş medal qazanıb. Fərdi proqramda isə Tofiq Əliyev 29.300 xalla Avropa çempionatının gümüş medalına layiq görülüb. Bu nəticə onun Avropa çempionatlarında ardıcıl olaraq qazandığı ikinci gümüş medaldır.

### Nihad Məmmədov “Ginnes”ə yaxınlaşır

**Stolüstü tennisçi Nihad Məmmədov adını “Ginnesin rekordlar kitabı”na yazdırmağa yaxındır. Azərbaycan seçmə komandasının üzvü bu gün “Şüa İdman Kompleksi”ndə təşkil olunan mərasimdə topu uzaq məsafədən oyuna daxil etməkdə qeydə alınan dünya rekordunu yeniləməyə cəhd göstərib.**



O, Azərbaycan Gənclər və İdman Nazirliyinin, Azərbaycan Stolüstü Tennis Federasiyasının rəsmilərinin və beynəlxalq dərəcəli hakim Zaur Mikayılovun nəzarəti ilə bu hərəkəti 17 metr məsafədən uğurla həyata keçirib. Nihad Məmmədovun göstəricisi ASTF tərəfindən müvafiq qurumun baş ofisinə göndərilib. Rəsmi cavab təxminən 4-8 həftədən sonra veriləcək.

Qeyd edək ki, sözügedən rekord (16.70) son olaraq türkiyəli Osman Gürcüyə məxsus idi.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Qlobal Şəhərsalma Forumu*

# Azərbaycan memarlığı dünyaya təqdim ediləcək

**Son illər Azərbaycanda, xüsusilə Bakı şəhərində həyata keçirilən genişmiqyaslı şəhərsalma layihələri strateji yanaşmanın mövcudluğunu aydın şəkildə nümayiş etdirir. Paytaxtın görkəminin yenilənməsi, müasir urban standartlarına uyğunlaşdırılması, eyni zamanda, tarixi və mədəni irsin qorunması balanslaşdırılmış şəkildə həyata keçirilir. İstər paytaxtımızda, istərsə də bölgələrdə şəhərsalma istiqamətində ən qabaqcıl müasir standartlar tətbiq edilməklə görülən işlər, irimiqyaslı layihələr sosial-iqtisadi inkişafa güclü təkan verib, ölkəmizi bu sahədə dünyanın qabaqcılları sırasına çıxarıb.**

Məlum olduğu kimi, paytaxt Bakı mayın 17-22-si tarixlərində “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusunda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun (WUF) 13-cü sessiyasına ev sahibliyi edəcək. Ümumdünya Şəhərsalma Forumu BMT-nin Məskunlaşma Proqramının (UN Habitat) ərsəyə gətirdiyi dayanıqlı şəhər inkişafı mövzusuna həsr edilmiş dünyanın ən böyük beynəlxalq platformalarından biridir. Dünyamiqyaslı belə bir Forumun ölkəmizdə keçirilməsi olduqca əhəmiyyətlidir. Bu, ilk növbədə, Azərbaycanın şəhərsalma və məskunlaşdırma fəaliyyətində müasir standartlara əsaslandığının göstəricisidir. Bununla bağlı Azərbaycanın dünyaya təqdim etmək üçün kifayət qədər nailiyyətləri var.

Xəzər və Cənubi Qafqaz regionunda ilk dəfə keçiriləcək forumda 10 minə yaxın beynəlxalq, ümumilikdə isə təxminən 30 min qonağın iştirakı gözlənilir. Əvvəlki WUF tədbirlərindən fərqli olaraq forumda 40 əsas sessiya və 350 tərəfdaş tədbirinin təşkili nəzərdə tutulur. Xüsusilə qeyd olunmalıdır ki, yürüdülən tarazlaşdırılmış siyasi xətt beynəlxalq aləmdə mövqelərimizi möhkəmləndirməklə dövlətimizə qarşı olan etimadı daha da artırıb. Eləcə də xeyli müddətdir bir-birindən mötəbər tədbirlərin təşkili ölkəmizin dünyada sülhə, mədəniyyətlər və sivilizasiyalararası dialoqa əhəmiyyətli töhfələr verməsinin növbəti təsdiqidir.

Paytaxtda son 20 ildə müasir texnologiyalar əsasında aparılan tikinti işləri, ən başlıcası isə 6 ilə yaxın işğaldan azad olunmuş bölgələrimizdə “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyaları əsasında geniş vüsət alan abadlıq-quruculuq işləri şəhərsalma fəaliyyəti ilə məşğul olan beynəlxalq qurumlar üçün olduqca maraqlıdır. Forumda dünyanın çoxsaylı ölkələrindən mütəxəssislər iştirak etməklə şəhərsalma fəaliyyəti ilə bağlı yeni konsepsiyalar müzakirə olunacaq. Odur ki, bu tədbir böyük maraq kəsb edir.




Mövzu ilə bağlı **memar Lalə Hüseynova** Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) respublikamızda keçirilməsinin əhəmiyyəti haqqında danışıb. Bildirib ki, bu, Azərbaycanın dünyada artan beynəlxalq nüfuzunun göstəricisidir və ölkəmiz üçün əhəmiyyəti böyükdür: “2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan olunması, yalnız simvolik bir qərar deyil, eyni zamanda, memarlıq və şəhərsalma sahəsində yeni yanaşmaların formalaşması üçün strateji bir imkan kimi dəyərləndirilə bilər. Bu il çərçivəsində həm nəzəri, həm də praktik səviyyədə şəhər mühitinə dair daha dərindən düşünmək, mövcud problemləri sistemli şəkildə analiz etmək və yeni həll yolları təklif etmək üçün əlverişli zəmin yaranır.

Bir memar və tədqiqatçı kimi bu ildən gözləntilər arasında ən vacib məqamlardan biri şəhərsalma prosesində insan mərkəzli yanaşmanın daha da gücləndirilməsidir. Müasir şəhərlər təkcə fiziki obyektlər toplusu deyil, eyni zamanda, sosial münasibətlərin, gündəlik həyat praktikalarının formalaşdığı kompleks sistemlərdir. Buna görə də şəhərsalma qərarları yalnız texniki və iqtisadi göstəricilərlə deyil, həm də insan təcrübəsi və məkanın hiss edilən keyfiyyəti ilə ölçülməlidir. Ümumdünya Şəhərsalma Forumu ilə bağlı təşkil olunan tədbirlərdə Azərbaycan Rəssamlıq Akademiyasının Memarlıq kafedrasının müəllimi olaraq həm özüm, həm də tələbələrimlə iştirak etmişəm. Bu prosesin akademik və praktik inteqrasiyası baxımından xüsusi əhəmiyyət daşıyır. Tələbələrin belə beynəlxalq platformalarda iştirak etməsi onların yalnız nəzəri biliklərini deyil, həm də qlobal şəhərsalma diskursunu anlamalarını və fərqli yanaşmaları müqayisə etmələrini təmin edir.

Seçdiyim mövzu olan “Şəhərsalma praktikalarında ambiansın fenomenoloji oxunuşu: Bakı şəhəri kontekstində” isə şəhərin yalnız fiziki struktur kimi deyil, eyni zamanda, hiss edilən, yaşanan və təcrübə olunan bir mühit kimi dərk olunmasına yönəlir. Fenomenoloji yanaşma şəhəri istifadəçinin gözü ilə oxumağı, məkanın yaratdığı emosional və duyğusal təsirləri nəzərə almağı tələb edir. Ambians anlayışı isə məkanın atmosferini, səs, işıq, miqyas, material və insan axınları kimi elementlərin birlikdə yaratdığı ümumi hissi ifadə edir.

Bu yanaşma şəhərsalma prosesinə daxil edildikdə, qərarların məntiqi dəyişir: artıq əsas sual təkcə “nə qədər bina tikilir?” deyil, həm də “bu binaların arasında necə bir mühit formalaşır?” olur. Yəni şəhərin strukturundan çox, onun insan üzərində yaratdığı təsir ön plana keçir. Bu, piyada mühitinin keyfiyyətinin artırılması, ictimai məkanların daha rahat və cəlbedici olması, insanların şəhərlə daha güclü emosional bağ qurması deməkdir. Belə yanaşma tətbiq olunduqda, şəhər daha inklüziv və sosial baxımdan balanslı olur. Fərqli yaş qrupları, sosial təbəqələr və istifadəçi tipləri üçün əlçatan və uyğun məkanlar formalaşır. Piyada hərəkəti prioritetə çevrilir, ictimai həyat aktivləşir, küçələr sadəcə tranzit məkanlardan çıxaraq sosial qarşılıqlı əlaqə zonalarına transformasiya olunur. Bu isə şəhərin ümumi yaşayış keyfiyyətini yüksəldir”.

Həmsöhbətim daha sonra qeyd etdi ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası kimi tədbirlər məhz bu cür yanaşmaların müzakirəsi və yayılması üçün mühüm platformadır. Bu forum yalnız beynəlxalq təcrübənin paylaşılması ilə məhdudlaşmır, həm də şəhərlərin gələcək inkişaf strategiyalarının formalaşmasına təsir edən ideyaların meydana çıxdığı məkandır. Müxtəlif ölkələrdən mütəxəssislərin iştirakı yeni perspektivlər yaradır, lokal problemlərin qlobal kontekstdə dəyərləndirilməsinə imkan verir.

Nəticə etibarilə, bu kimi tədbirlər şəhərsalma tarixində yeni səhifələr aça bilər. Çünki burada yalnız mövcud təcrübələr müzakirə olunmur, eyni zamanda, gələcək şəhərlərin necə olacağına dair konseptual çərçivələr formalaşır. Azərbaycan üçün belə platformalar həm yerli şəhərsalma düşüncəsinin inkişafına, həm də beynəlxalq inteqrasiyaya töhfə verir. Ən əsası isə, şəhərsalmanın mərkəzinə insan təcrübəsini və məkanın hiss edilən keyfiyyətini yerləşdirərək daha dayanıqlı, daha humanist və daha yaşana bilən şəhərlərin formalaşmasına şərait yaradır.

Sözsüz ki, Bakıda keçiriləcək 13-cü Sessiya Cənubi Qafqazda ən böyük tədbirlərdən biri olacaq. Tədbir maraqlı tərəflər, o cümlədən dövlət rəsmiləri, QHT nümayəndələri, şəhərsalma mütəxəssisləri və ekspertlər, həmçinin özəl sektor nümayəndələri arasında fikir və təcrübə mübadiləsi üçün unikal imkan yaradacaq. WUF13 tədbiri Azərbaycanda şəhərsalma və memarlıq sahəsində görülən işlərin beynəlxalq ictimaiyyətə geniş şəkildə təqdim olunması üçün mühüm platforma olacaq, ölkəmizin regional lider kimi mövqeyini daha da möhkəmləndirəcək.

*Müşfiq MİRZƏ*
*XQ*

## “OĞUZ AQROTEXSERVİS” ASC səhmdarlarının nəzərinə!

1 iyun 2026-cı il saat 11:00-da “Oğuz Aqrotexservis” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

**2.** Digər məsələlər.

Səhmdarların növbəti illik ümumi yığıncağının gündəliyinin materialları ilə ümumi yığıncaq zamanı tanış olmaq mümkündür.

Ümumi yığıncağın keçiriləcəyi ünvan – Oğuz rayonunun Padar kəndi, səhmdar cəmiyyətinin həyəti.

## HAVA

# Aranda yağış, dağlarda qar...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gündüz yağışda fasilə olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturunun gecə 8-10, gündüz 14-17 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 766 milimetr civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində hava şəraitinin arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı proqnozlaşdırılır. Axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 6-9, gündüz 14-19 dərəcə isti, dağlarda gecə 3-8, gündüz 0-3 dərəcə şaxta olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Məhkəmə-Hüquq Şurası bütün hakim korpusu adından Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin sədri Anar Tanrıverdiyevə atası

**VƏZİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi I tədris işləri üzrə prorektor, professor Əlikram Abdullayevə qardaşı

**ƏLİSÖHBƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apellyasiya Məhkəməsinin kollektivi Yasamal Rayon Məhkəməsinin sədri Anar Tanrıverdiyevə atası

**VƏZİR TANRIVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin kollektivi və ictimai təşkilatları fizika və kimya kafedrasının kimya üzrə məsləhətçi-professoru

**ƏLİ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərova yaxın qohumu

**ELMİRA RZAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3128
SİFARİŞ 486
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00